RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 260 (9427) 29 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# İlham Əliyevin şərtini ABŞ qəbul etdi



**ABŞ Dövlət katibi Entoni Blinkenin noyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyevə zəngi məlum həqiqətlərə aydınlıq gətirdi. Belə ki, bu telefon danışığı ilk növbədə İlham Əliyevin qətiyyətli və müstəqil siyasət yürütdüyünü, Azərbaycanın bütün böhtançı və qərəzli davranışlara qarşı adekvat və sərt mövqe ortaya qoyduğunu bir daha dünyaya nümayiş etdirdi.**

### Azərbaycan mövqeyində qətidir və prinsipialdır

Son vaxtlar ABŞ rəsmilərinin Azərbaycanı hədəfə alan açıqlamaları artıb. Görünən odur ki, Vaşinqtonda Azərbaycanın torpaqlarını işğaldan azad etməsini, erməni separatizminə son qoymasını həzm edə bilmirlər. ABŞ Senatının "2023-cü il ermənilər müdafiə aktı"nı qəbul etməsi, Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində dinləmələrdə ölkəmiz əleyhinə səslənən çıxışlar bunu təsdiq edir.

6

## Entoni Blinken İlham Əliyevə zəng etdi

**Noyabrın 27-də ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.

Dövlətimizin başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib.

Azərbaycan tərəfinin ABŞ-nin Azərbaycana münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dən olan yüksəksəviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.

Danışıqlar zamanı tərəflər həmçinin noyabrın 30-da Azərbaycan-Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## Xankəndiyə Qarabağ Universiteti ilə qayıdırıq



**Şanlı Zəfərimizin yaratdığı reallıqlardan biri də Qarabağ və Şərqi Zəngəzurda elm və təhsilin inkişafı fonunda müasir çağırışlara cavab verən orta və ali təhsil müəssisələrinin yaradılmasıdır.**

Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın prioritetlərindən biridir. Dünən Prezident İlham Əliyev hər bir azərbaycanlının ürəyini dağa döndərən sərəncam imzalayaraq Xankəndidə Qarabağ Universitetinin yaradılması ilə bağlı tapşırıq verdi.

6

## Prezident tərəfindən qarşıya qoyulan vəzifələr operativ yerinə yetirilir

Əlaqələndirmə Qərargahının 3 illik fəaliyyətinin yekunlarına dair iclas keçirilib

Samir Nuriyev qərargahın ötən 3 illik fəaliyyəti dövründə dövlət başçısının verdiyi tapşırıqlara əsasən işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirildiyini, yeni şəhər və kəndlərin salınması istiqamətində işlərin sürətlə davam etdiyini diqqətə çatdırıb. Bu sahədə qarşıya qoyulmuş vəzifələrin icrasında səmərəlilik, hesabatlılıq, qurumlararası qarşılıqlı kommunikasiya, əlaqələndirilmə və operativlik qərargahın fəaliyyətinin əsas prinsipləri olub.

3

## Azərbaycan-Albaniya dostluq əlaqələri möhkəmlənir

Albaniya Respublikasının Prezidenti zati-aliləri cənab Bayram Beqaya



Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Diplomatik münasibətlərimizin qurulmasından ötən otuz ildə dost xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Albaniya dostluq əlaqələri möhkəmlənmiş, qarşılıqlı maraq doğuran əməkdaşlığımız dinamik inkişaf etmişdir.

Keçən il Azərbaycanın Albaniyada səfirliyinin təsis edilməsi, habelə həyata keçirdiyimiz qarşılıqlı səfərlər dövlətlərarası münasibətlərimizin yeni müstəviyə keçməsinə, müxtəlif sahələrdə, xüsusilə də energetika sektorunda əməkdaşlığımızın genişlənməsinə təkan vermişdir.

İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq əlaqələrimizin gücləndirilməsi, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam edirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Albaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2023-cü il*

## Əməkdaşlığımızın inkişafı yolunda birgə səylər göstərəcəyik

Mavritaniya İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd uld Şeyx əl-Qazuaniyə

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq dostluq münasibətlərimizin, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2023-cü il*

◆ Müəllifi İlham Əliyevdir



## Bakıdan Zəngəzura...

- 158 km yol, 22 tunel, 23 körpü necə inşa olunur?
- "Murovdağ" dünyanın ən uzun tunelləri sırasına necə düşdü?
- 3260 metr hündürlükdəki dağ zirvəsinin altından 23,4 km-lik ikihissəli tunel gecə-gündüz necə qazılır?

4

## Ədalətsiz "ədalət carçıları"

Ermənistan 200 min azərbaycanlının malını, əmlakını əlindən alıb tarixi torpaqlarından zorla çıxaranda nə Qərb dövlətləri səsini çıxardı, nə ABŞ dindi

5

## Sözdə "sülh tərəfdarı" olanlar...

Onlar Cənubi Qafqazda qarşıdurmanın aradan qaldırılmasında deyil, onun idarə edilməsində maraqlıdırlar

5

## Amerika öz mövqeyindən geri çəkildi

Bir daha təsdiq olundu ki, heç bir qüvvə Azərbaycanla təzyiq dili ilə danışa bilməz

6

# Qarabağ Universitetinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olmuşdur. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə **qərara alıram:**

1. Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs (bundan sonra - Universitet) yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Universitetin nizamnaməsini təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. Universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.1.3. Universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 427** QƏRAR **Bakı şəhəri, 27 noyabr 2023-cü il**

## Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsinin müəyyən edilməsi haqqında

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun tətbiqi və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 avqust tarixli 2298 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasında istehsal olunan dərman vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

1.1. dərman vasitəsinin latın qrafikasında əmtəə nişanı adı;

1.2. dərman vasitəsinin ingilis dilində beynəlxalq patentləşdirilməmiş adı;

1.3. dərman vasitəsinin təsiredici maddəsinin dozası;

1.4. dərman vasitəsinin farmasevtik forması;

1.5. dərman vasitəsinin ticarət qablaşdırılması;

1.6. dərman vasitəsinin qablaşdırılma miqdarı;

1.7. dərman vasitəsinin orijinal və ya generik olması;

1.8. dərman vasitəsinin reseptlə və ya reseptsiz buraxılması;

1.9. dərman vasitəsinin qlobal identifikasiya nömrəsi (olduğu halda);

1.10. dərman vasitəsinin dövlət reyestrinə daxil edildiyi tarix və reyestr nömrəsi (olduğu halda);

1.11. dərman vasitəsinin istehsal həcmi;

1.12. dərman vasitəsinin yararlılıq müddəti;

1.13. dərman vasitəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

1.14. dərman vasitəsinin istehsalçısının VÖEN-i.

2. Azərbaycan Respublikasında istehsal olunan dərman maddələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

2.1. dərman maddəsinin beynəlxalq patentləşdirilməmiş adı;

2.2. dərman maddəsinin qablaşdırılması;

2.3. dərman maddəsinin yararlılıq müddəti;

2.4. dərman maddəsinin istehsal həcmi;

2.5. dərman maddəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

2.6. dərman maddəsinin istehsalçısının VÖEN-i.

3. Azərbaycan Respublikasında istehsal olunan tibb vasitələrinin istehsalçıları tərəfindən təqdim edilən məlumatların dairəsi aşağıdakı kimi müəyyən edilsin:

3.1. tibb vasitəsinin əmtəə nişanının adı;

3.2. tibb vasitəsinin risk dərəcəsi;

3.3. tibb vasitəsinin növü və qablaşdırılması;

3.4. tibb vasitəsinin istifadə forması;

3.5. tibb vasitəsinin tərkibində dərman vasitəsi olduqda bu dərman vasitəsinin təsiredici maddəsi və dozası barədə məlumatlar;

3.6. tibb vasitəsinin yararlılıq müddəti;

3.7. tibb vasitəsinin istehsal həcmi;

3.8. tibb vasitəsinin istehsalçısının hüquqi şəxslərin dövlət reyestrindəki adı;

3.9. tibb vasitəsinin istehsalçısının VÖEN-i.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakıda Mədəniyyət və Yaradıcı Sənayelər Forumu işə başlayıb

**Noyabrın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Yaradıcı Həftə" çərçivəsində keçirilən Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçılar kreativ məhsulların və yaradıcı sənaye nümayəndələrinin fəaliyyətinin tanıdılması məqsədilə təşkil edilmiş Mədəniyyət və Yaradıcı Sənayelər Sərgisi (MY EXPO 2023) ilə tanış olublar. Sərgi kino, animasiya, musiqi, cultech (mədəniyyət sahəsində startaplar), gametech (oyun texnologiyaları), dəb, dizayn kimi yaradıcı klasterləri, eləcə də yaradıcı məkan və regionları bir araya gətirib.

Açılış mərasimində çıxış edən mədəniyyət naziri Adil Kərimli forumdan gözləntilərin böyük olduğunu bildirib: "Dövlətimiz mədəni və yaradıcı sahələrə önəm verir. Ona görə dövlət strategiyasına uyğun mövcud ekosistemlərin fəaliyyətini araşdırmaq, bu sahəni inkişaf etdirmək əsas məqsədimizdir. Düşünürəm ki, forumda ortaq problemlər səslənəcək və onların həlli istiqamətində işlər görüləcək".

Sonra çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev keçirilən forumun ölkə iqtisadiyyatına müsbət töhfə verəcəyini diqqətə çatdırıb. Bildirib ki, İqtisadiyyat Nazirliyi tərəfindən "İnnovasiya fəaliyyəti haqqında" yeni qanun layihəsi hazırlanır və sözügedən layihə dövlət orqanlarında razılaşdırma mərhələsindədir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa forumun yaradıcı və istedadlı şəxslərə imkanlar yaradacağını vurğulayıb. Qeyd edilib ki, bu cür forumlar ölkənin potensialını üzə çıxarmağa imkan yaradır.

Üç gün davam edəcək forumda həmçinin müvafiq dövlət qurumlarının rəhbərlərinin və yaradıcı sektorun təmsilçilərinin iştirakı ilə ayrı-ayrı sahələr üzrə yaradıcı sənayelərə dair panel sessiyalar və "dəyirmi masa"lar keçiriləcək.

Noyabrın 29-30-da Heydər Əliyev Mərkəzində forum çərçivəsində "Türk dünyası animasiya şəbəkəsinin qurulması", "Türk dünyasının yumor sahəsi üzrə əməkdaşlıq perspektivləri" və digər mövzularda "dəyirmi masa"lar da təşkil olunacaq.

# Mədəniyyət və yaradıcı sənayelər ekosisteminin inkişafına həsr olunan panel sessiya keçirilib

**Noyabrın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Mədəniyyət və Yaradıcı Sənayelər Forumunda "Mədəniyyət və yaradıcı sənayelər ekosisteminin inkişafı: beynəlxalq perspektiv" adlı panel sessiya təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun moderatorluğu ilə keçirilən tədbirdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova fondun fəaliyyəti barədə danışıb, türk dünyasının maddi-mənəvi irsinin və tarixinin qorunması istiqamətində mühüm işlərin görüldüyünü bildirib. Fondun prezidenti Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun fikir və ideya mübadiləsi aparılmasında, həmçinin gənc istedadların üzə çıxmasında önəmli rol oynadığını diqqətə çatdırıb.

"British Council" təşkilatının yerli ofisinin direktoru Nərgiz Hacıyeva təşkilatın fəaliyyəti barədə məlumat verib. O, "Creative Spark: Ali Təhsil Müəssisəsi Proqramı" adlı layihənin uğurla həyata keçirildiyini vurğulayıb. Bildirib ki, "Creative Spark" Birləşmiş Krallığın dəstəyi ilə ümumilikdə yeddi ölkədə biznes bacarıqlarını və yaradıcı iqtisadiyyatı inkişaf etdirmək məqsədilə universitetlərarası və institusional əməkdaşlığı beynəlxalq səviyyədə dəstəkləmək üçün nəzərdə tutulan beşillik təşəbbüsdür.

Art market üzrə litvalı mütəxəssis, "artXchange Global"ın icraçı direktoru Ornela Ramasauskaite yaradıcı və mədəni sənayenin yalnız gözəllik deyil, həmçinin iqtisadiyyat olduğunu deyib. O, insanların düşüncə tərzini dəyişərək, bu sahəni gəlir mənbəyinə çevirməyin vacib olduğunu söyləyib. "Azərbaycanda məhz bu ekosistem yaradılmalıdır. Eyni zamanda bu sahənin inkişafına böyük töhfə verə biləcək bir sıra tədbirlər keçirməlidir. Mədəniyyətə yanaşma dəyişməlidir. Əlbəttə ki, biz mədəni irsimizi qorumalıyıq, eyni zamanda yaradıcılıq sənayesini bir biznesə çevirməliyik", - deyə o diqqətə çatdırıb.

Qırğızıstanda Yaradıcı Sənayelər Assosiasiyasının sədri Daniar Amanaliyev ölkəsində fəaliyyət göstərən Yaradıcı sənaye parkı haqqında danışıb. Bildirib ki, kreativ iqtisadiyyat son illərdə dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sektorlarından biridir. O əlavə edib ki, sahibkarlar Yaradıcı Sənaye Parkında öz sahələrini inkişaf etdirə və genişləndirə bilirlər, bundan əlavə, onlar üçün dünya bazarına çıxış imkanı var. D.Amanaliyevin sözlərinə görə, bütün bunlar yaradıcı iqtisadiyyat sahəsində sahibkarlığın inkişafına töhfə verir.

Tədbirdə digər çıxış edənlər - Beynəlxalq Biznes və Texnologiyalar İnnovasiyaları üzrə israilli ekspert Tal Catran və Marketinq və Rəqəmsal transformasiya üzrə ekspert Fəxri Eminov kreativ sənayenin inkişafının iqtisadiyyata töhfəsi barədə danışıblar.

Eyni zamanda sənayenin inkişaf etdirilməsi, bu sahədə biznesin dəstəklənməsi, yaradıcı şəxslərin və biznes subyektlərinin təşkilatlanması barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan tərəfini təxribatçı bəyanatlar səsləndirməkdən çəkinməyə çağırıb

**Ermənistan parlamentinin spikeri Alen Simonyan noyabrın 28-də jurnalistlərə açıqlamasında növbəti dəfə regionda mövcud olan reallıqları təhrif edərək həqiqətdən uzaq fikirlər səsləndirmişdir. Ermənistan parlamenti spikerinin bu müsahibəsi Ermənistan rəhbərliyinin "absurd iddialar" növbəsinə dayandığını aşkar şəkildə göstərməklə yanaşı, xarici havadarlarının gözünə girmək uğrunda yarışdığına da dəlalət edir. Son səsləndirilən fikirlərə başqa cür izahat vermək mümkün deyil.**



Simonyan Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı faktını yaddaşlardan silmək və Ermənistan tarixinin bu qara ləkəsini beynəlxalq ictimaiyyətin gündəmindən çıxarmaq "arzusunu" gələcəyə baxış adı altında pərdələməyə çalışır.

Yaxşı olardı ki, Simonyan Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının öz doğma torpaqlarından qaçqın və məcburi köçkün düşməsinə, Xocalı soyqırımının törədilməsinə, işğal dövründə 9 şəhər və yüzlərlə kəndin darmadağın edilməsinə görə üzr istəyərək, gələcək haqda danışmağa başlasın.Təəssüf ki, bu, baş verməyəcək.

İşğal olunmuş torpaqlarda və Ermənistan ərazisində azərbaycanlılara məxsus yüzlərlə tarixi, mədəni və dini abidələri yerlə yeksan edən, abidələrin və yaşayış yerlərinin adlarını dəyişərək saxta tarix yazan monoetnik Ermənistanın parlamentinin spikerinin müxtəlif etnik qrupların mehriban və dinc şəkildə birgə yaşadığı, tarixi və mədəni irsinin dövlət səviyyəsində mühafizə edildiyi Azərbaycanı öz arşını ilə ölçməsi, əslində onun həqiqi simasını ifşa edir.

Simonyanın Qazax rayonunun 7 kəndinin və Kərkinin hələ də Ermənistanın işğalı altında qalmasına primitiv düşüncə tərzi ilə hüquqi don geyindirməyə çalışması, əksinə, Azərbaycanı işğalda ittiham etməsi isə xəstə təfəkkürün təzahüründən başqa bir şey deyil.

Ermənistan rəhbərliyinin "Azərbaycanın müharibəyə hazırlaşması", "sülh danışıqlarından imtina etməsi" kimi beynəlxalq ictimaiyyəti aldatmağa yönəlik yalanları təkrarlamağa nə dərəcədə alışdığı artıq bir faktdır. Simonyana bir daha xatırlatmaq istərdik ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Ötən 3 il ərzində Ermənistan öz siyasi və hərbi təxribatları ilə sülh prosesini əngəlləməyə çalışıb. Hazırda regionda uzunmüddətli sülhün bərqərar olması üçün tarixi şans yaranıb. Azərbaycan hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında Ermənistanla sülhə hazır olduğunu dəfələrlə bəyan edib. Belə bir məqamda isə Ermənistan sülh müqaviləsinin mətni üzrə Azərbaycanın təkliflərinə cavabını uzun müddət gecikdirməklə danışıqlar prosesini uzatmağa çalışır.

Bir daha qeyd edirik ki, Azərbaycan regionda davamlı sülhün tərəfdarıdır və Ermənistanla münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını dəstəkləyir. Biz inanırıq ki, sülh müqaviləsinin imzalanması üçün hazırda geniş imkanlar vardır. Ona görə də Ermənistan tərəfini bu cür təxribatçı və həqiqətdən uzaq bəyanatlar səsləndirməkdən çəkinməyə və sülhə töhfə verməyə çağırırıq.

# Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın iclası olub



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkmənistana səfəri çərçivəsində Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan və Türkmənistan arasında güclü dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. İkitərəfli münasibətlərdə mühüm rol oynayan iqtisadi-ticarət sahəsində intensiv inkişaf müşahidə olunur. Ötən il Türkmənistanla ticarət dövriyyəsi 5 dəfədən çox artıb, 2023-cü ildə də artım tendensiyası davam edib. Tədarük olunan məhsulların çeşidini genişləndirməklə ticarət dövriyyəsini daha da artırmaq üçün böyük potensial var. Ölkələrimiz arasında azad ticarət rejimi ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərir. Ticarət sahəsində uğurlu əməkdaşlıq qarşılıqlı investisiyalar üçün stimul ola bilər. Türkmənistanla sənayenin müxtəlif sahələri, investisiya, enerji, gömrük, nəqliyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və s. üzrə əməkdaşlıq imkanları böyükdür.

İclasda Azərbaycanın artan iqtisadi göstəriciləri, əlverişli işgüzar mühiti, o cümlədən azad edilmiş ərazilərimizin biznes potensialı, investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib, yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi baxımından işgüzar tədbirlərin davamlı keçirilməsinin önəmi bildirilib, Türkmənistan investorları fəal əməkdaşlığa dəvət olunub.

Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Türkmənistanın Nazirlər Kabinetinin sədr müavini Batır Atdayev vurğulayıb ki, ölkələrimiz arasında müxtəlif sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı üçün yaxşı perspektivlər var və Türkmənistan əlaqələrin dərinləşməsinə önəm verir.

İclasda ölkələrimizin iqtisadi müstəvidə ortaq maraqlarına xidmət edən təşəbbüslər, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri barədə müzakirə aparılıb.

İclasın sonunda Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasının yekunlarına dair protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Batır Atdayev imzalayıblar. Sənəddə ticarət, sənaye, energetika, nəqliyyat, aqrar və digər sahələrdə tərəfdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Türkmənistana işgüzar səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti "Agro Pack Turkmenistan 2023" beynəlxalq sərgisinin açılış mərasimində iştirak edib. Nümayəndə heyəti innovativ istehsal mexanizmlərinin təqdim edildiyi sərgidə sənaye, kənd təsərrüfatı, qida, İKT, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən beynəlxalq şirkətlərin təqdim etdiyi xidmətlər, həmçinin iqtisadi səmərəliliyin artırılmasını, resurslardan effektiv istifadəni və iqtisadiyyatın müxtəlif sahələri üçün müasir həlləri təmin edən yeniliklərlə tanış olub.

# Aşqabadda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgi açılıb

**Noyabrın 28-də Aşqabadda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Heydər Əliyev - Türkmənistan və Azərbaycan qardaşlığı" adlı fotosərgi açılıb.**



Azərbaycanın Türkmənistandakı səfirliyindən AZƏRTAC-a verilən məlumata əsasən, Aşqabadın "Muğam" Sarayında açılan fotosərgidə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini, eləcə də Azərbaycan ilə Türkmənistanın diplomatik münasibətlərini səciyyələndirən fotolar nümayiş etdirilib.

Sərginin açılışında Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyasının həmsədrləri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Batır Atdayev iştirak ediblər. Tədbirə həmçinin xarici ölkələrin Türkmənistandakı səfirləri, diplomatik nümayəndəliklərin rəhbərləri, əməkdaşları, ailə üzvləri, eləcə də ictimaiyyət və media təmsilçiləri qatılıblar.

# Prezident tərəfindən qarşıya qoyulan vəzifələr operativ yerinə yetirilir

## Əlaqələndirmə Qərargahının 3 illik fəaliyyətinin yekunlarına dair iclas keçirilib

**Noyabrın 28-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü, ardıcıl və müdrik siyasəti nəticəsində 2020-ci ilin noyabrında torpaqlarımızın işğaldan azad edilməsi ilə ölkəmizin və bütövlükdə regionun yeni strateji inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. O qeyd edib ki, 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağdakı Ermənistan silahlı qüvvələrinin birləşmələri tərk-silah edilib, onların hərbi infrastrukturu zərərsizləşdirilib, işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Respublikasının Konstitusiya quruluşu və suverenliyi tam bərpa olunub. Əminliklə demək olar ki, bu gün Azərbaycan xalqı öz tarixinin ən şanlı və qürurverici dövrünü yaşayır.

Samir Nuriyev qərargahın ötən 3 illik fəaliyyəti dövründə dövlət başçısının verdiyi tapşırıqlara əsasən, işğaldan azad olunmuş ərazilərdə iri-miqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirildiyini, yeni şəhər və kəndlərin salınması istiqamətində işlərin sürətlə davam etdiyini diqqətə çatdırıb. Bu sahədə qarşıya qoyulmuş vəzifələrin icrasında səmərəlilik, hesabatlılıq, qurumlararası qarşılıqlı kommunikasiya, əlaqələndirilmə və operativlik qərargahın fəaliyyətinin əsas prinsipləri olub.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, antiterror tədbirləri nəticəsində suverenliyin bərpa edildiyi ərazilərdə zəruri məsələlərin həlli istiqamətində görülən işlər, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərdə həyata keçirilən işlərin cari vəziyyəti, geri qayıdan əhalinin məskunlaşmasının, təhlükəsizliyinin və dayanıqlı məşğulluğunun təmin edilməsi, azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili ilə bağlı məruzələr dinlənilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi sahəsində aparılan işlərə dair məruzə təqdim edilib. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin iclasın gündəliyindəki məsələlərin yerlərdə əlaqələndirilməsi və müvafiq ərazilər üzrə görülən işlərin cari vəziyyəti barədə məlumatları dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

# Vətəndaşın mənafeyinə xidmət edən dövlət büdcəsi

**Son 20 ildə iqtisadiyyatının inkişaf tempinə görə də dünyada liderlər sırasında olan Azərbaycanın dövlət büdcəsi gəlir və xərclərinin effektivliyi baxımından hər il daha da təkmilləşdirilir. Azərbaycanın növbəti ildə sosial-iqtisadi inkişafını müəyyənləşdirən büdcə layihəsindən və büdcə zərfinə daxil edilmiş sənədlərdən də aydın olur ki, dövlətin əsas prioritetləri quruculuq, təhlükəsizliyin təminatı və əlbəttə ki, əhalinin sosial rifahının yüksəldilməsidir.**

Gələn ilin dövlət büdcəsi qeyri-neft sektorunun sürətli inkişafına, regionda mövcud olan yeni reallıqlara və vətəndaşların mənafeyinə hesablanmış sosialyönümlü islahatlara hədəflənib. Bu optimal və balanslı büdcə zərfi "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla hazırlanıb və hökumətin müasir dövrün çağırışlarına cavab olaraq müəyyənləşdirdiyi sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsinin təminatına hesablanıb.

### Sosialyönümlülük yenə prioritetdir

Bütün vətəndaşları yüksək həyat səviyyəsi ilə təmin etmək istəyi dövlətin sosial xərclərinin həcmində öz əksini tapır. Azərbaycanda 2024-cü il üçün büdcə xərclərinin strukturunda sosial xərclərin 42,9 faizə çatdırılması ölkəmizdə sosialyönümlü siyasəti özündə bariz şəkildə təcəssüm etdirir. Yeni büdcə layihəsində sosialyönümlü xərclər 1 milyard 34,5 milyon manat artırılaraq 15 milyard 772,9 milyon manata çatdırılıb.

Ümumiyyətlə, 2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsində büdcə gəlirləri 34 milyard 173 milyon, xərcləri isə 36 milyard 763 milyon manat nəzərdə tutulub. Növbəti ildə neftin 1 barelinin orta illik qiymətinin baza ssenarisi əsasında 60 ABŞ dolları olacağı, ümumi daxili məhsulun real artım tempinin 2,4, qeyri-neft-qaz sektoru üzrə ÜDM-nin real artım tempinin 4,6, inflyasiyanın orta illik göstəricisinin 5,3 faiz, orta aylıq əməkhaqqının isə 980 manat olacağı proqnozlaşdırılır. Bütün bunlar əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılmış mühüm addımlardır.

Ölkə büdcəsinin ildən-ilə artması sosial məsələlərin həllinə hər ötən il daha ciddi diqqət ayrılacağına əminlik yaradır. Dövlət büdcəsinin xərclərinin istiqamətləri növbəti ildə hökumətin sosial təminatla bağlı xeyli işlər görəcəyini sübut edir. Xərclərin strukturuna baxdıqda görünür ki, əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də əsas hədəflər arasında əhalinin rifah səviyyəsinin yüksəldilməsi xüsusi yer tutur.

### Sosial sahənin müxtəlif istiqamətləri üzrə xərclər artırılır



Vətəndaşlarımızın sosial müdafiəsini daha təminatlı şəkildə həyata keçirmək məqsədilə gələn ilin dövlət büdcəsi layihəsində səhiyyə, təhsil, elm, mədəniyyət və turizmin inkişafına yönəlmiş xərclər artırılıb. Bu, Prezident İlham Əliyevin daxili siyasətində sosialyönümlülüyün, əhalinin rifah halının yaxşılaşdırılmasının, sosial müdafiəyə ehtiyacı olan şəxslərin daim dövlət qayğısı ilə əhatə olunmasının vacib yer tutduğunu təsdiq edir.

Aparılan islahatların uğurlu nəticəsi olan növbəti ilin büdcəsində təhsil xərclərinin 4 milyard 549,9 milyon, səhiyyə xərclərinin 1 milyard 871 milyon manata çatdırılması, əməyin ödənişi xərclərinin isə 9 milyard 7,2 milyon manat olması nəzərdə tutulub. Ərzaq təhlükəsizliyi tədbirləri üçün 502,9 milyon, su ehtiyatları və su idarəedilməsi üçün 507,1 milyon, məqsədli kənd təsərrüfatı tədbirləri üçün 546,2 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Göründüyü kimi, 2024-cü ilin dövlət büdcəsi də sosialyönümlü olacaq. Xatırladaq ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Növbəti ilin dövlət büdcəsi onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin vətəndaş mənafeyinə xidmət edən siyasəti hər il öz bəhrəsini verir. Bu sosialyönümlü siyasətin qarşıdakı illərdə də davam etdirilməsi Azərbaycanın daha böyük iqtisadi uğurlarına etibarlı zəmin yaradır.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Serbiya Prezidenti Azərbaycan şirkətinin layihələndirdiyi yolun təməlqoyma mərasimində iştirak edib



**Serbiyada Azərbaycanın "AzVirt" şirkəti tərəfindən Şabac şəhəri yaxınlığında 15,4 kilometr uzunluğundakı "Slepçeviç-Badovinçi" sürətli avtomobil yolunun tikintisinə başlanılıb.**

AZƏRTAC xəbər verir ki, avtomagistralın təməlqoyma mərasimində Serbiya Prezidenti Aleksandar Vuçiç, dövlət rəsmiləri, Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasiyev və "AzVirt" şirkətinin Belqraddakı nümayəndələri iştirak ediblər. Layihə çərçivəsində dörd yolayrıcı, beş körpü və dörd yerüstü kəsişmənin inşası planlaşdırılır.



Aleksandar Vuçiç bu yolun strateji əhəmiyyətinə toxunaraq deyib ki, indi insanlar Serbiya-Bosniya və Herseqovina istiqamətində daha sürətli hərəkət edə biləcəklər və Biyelina ilə Belqrad şəhərləri arasında əlaqə imkanları genişlənəcək. Serbiyanın Prezidenti gələcək planların Brçko və Banya Luka, daha sonra isə Tuzla və Sarayevo şəhərləri istiqamətində rahatlıqla gedə bilmək olduğunu bildirib.

Qeyd edək ki, sözügedən layihə hazırda tikilməkdə olan Şabatsdan Loznitsaya qədər olan yüksəksürətli yolun davamıdır və onun gələn ilin sonuna qədər istifadəyə verilməsi gözlənilir.

# Bakıda Orta dəhliz üzrə tarif siyasəti müzakirə olunub

**Orta dəhlizin perspektiv imkanları, onun fəaliyyətinin genişləndirilməsi, o cümlədən 2024-cü il üzrə tarif siyasətinin formlaşdırılması ilə bağlı məsələlər Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə İşçi qrupunun Bakıda keçirilən iclasında müzakirə olunub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan, Gürcüstan və Qazaxıstanın dəmir yolları, liman şirkətləri və digər tərəfdaşların birgə qatıldığı görüşdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin həyat qabiliyyətini, səmərəliliyini və dayanıqlı inkişafını daha da təkmilləşdirmək baxımından qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi geniş müzakirə olunub.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası"nın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflər səsləndirilib. Belə ki, əməkdaşlığın yeni formatının müəyyən edilməsi, tarif siyasətinin bazar tələbatına uyğun formalaşdırılması, alternativ marşrutlarla müqayisədə Orta dəhliz üzrə qiymət və daşıma şərtlərinin optimallaşdırılması, dəhlizin beynəlxalq müstəvidə marketinq fəaliyyətinin düzgün formalaşdırılması və s. istiqamətlərdə atılması zəruri olan addımlar nəzərdən keçirilib.

Qeyd edək ki, hazırda Orta dəhlizin funksionallığının artırılması məqsədilə rəqəmsallaşma konsepsiyası hazırlanır, bununla bağlı beynəlxalq şirkətlərlə danışıqlar aparılır, ən yaxşı təcrübələr öyrənilir.

Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, növbəti üç il ərzində Azərbaycan ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırılması nəzərdə tutulur.

# ABŞ, Almaniya və Fransa diplomatları Azərbaycan XİN-ə çağırılıb

**Noyabrın 28-də Amerika Birləşmiş Ştatlarının və Almaniyanın müvəqqəti işlər vəkilləri, habelə Fransanın fövqəladə və səlahiyyətli səfiri ayrı-ayrılıqda Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıblar.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə bu ölkələrdə qeydiyyatda olan təşkilatların iştirakı ilə "Abzas Media" xəbər portalının qeyri-qanuni maliyyə əməliyyatları həyata keçirdiyi, eləcə də sözügedən ölkələrin səfirliklərinin də bu fəaliyyətə cəlb olunduğu diqqətə çatdırılıb və bu fəaliyyətə ciddi etiraz bildirilib.

ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin, "FreedomNow", "New Democracy Fund" və digər təşkilatların qrant verilməsi qaydalarını pozaraq maliyyə resurslarının Azərbaycan ərazisinə qanunsuz yolla transferini həyata keçirdikləri, "Abzas Media"nın fəaliyyətinə qanundankənar töhfələr verdikləri qeyd olunub.

Qrant fəaliyyəti və qrant müqavilələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qrant müqavilələrinin müvafiq prosedura uyğun olaraq dövlət qeydiyyatına alınmasının tələb olunduğu, qeydiyyatı həyata keçirilməyən layihələrə maliyyə ayrılmasının ölkə qanunvericiliyinin ciddi pozuntusu olduğu vurğulanıb.

Bununla yanaşı, beynəlxalq təcrübəyə uyğun olaraq, Media haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, yerli media subyektinin xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmədiyi xatırlanıb.

Sözügedən ölkələrin səfirliklərinin və onlara məxsus təşkilatların ölkəmizin ərazisində qeyd edilən qanunvericiliyə zidd hərəkətləri Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının da pozuntusu olduğu qeyd edilib.

Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinə zidd olan və ölkənin daxili işlərinə qarışmaq məqsədi daşıyan bu fəaliyyəti şiddətlə qınayıb və sözügedən faktlarla əlaqədar milli qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görmək hüququnu özündə saxladığı diqqətə çatdırılıb.

◆ **Müəllifi İlham Əliyevdir**



# Bakıdan Zəngəzura...

**- 158 km yol, 22 tunel, 23 körpü necə inşa olunur?**
**- "Murovdağ" dünyanın ən uzun tunelləri sırasına necə düşdü?**
**- 3260 metr hündürlükdəki dağ zirvəsinin altından 23,4 km-lik ikihissəli tunel gecə-gündüz necə qazılır?**

*Qarın, şaxtanın məmləkətdə ən tez düşdüyü Murovun sərt keçidli aşırımı ilə dağ silsiləsinin zirvəsinə doğru qalxırıq...*

*Yolsuzluqdan avtomobil kəskin boranlı, küləkli havanın müqavimətini çətinliklə dəf edir. Buz bağlamış dolanbacların təhlükəsi hər addımbaşı özünü göstərir...*

*Bura Ömər aşırımıdır...*

*Savaş tariximizin ən faciəli olaylarında adının qara xətlə keçdiyi "ölüm aşırımı..."*

*30 il öncə minlərlə kəlbəcərlinin həm xilas yolu, həm də onların xeylisini Murov uçqunlarına izsiz-tozsuz sürükləyən aşırım...*

*İlin demək olar bütün fəsillərində ağappaq örpəyə bürünən bu aşırımın hər qarışındakı qara zülmət izləri Azərbaycan boyda bir ürəyin 27 illik yarası oldu...*

*27 il dəhşətlə anılan bu matəm yolu artıq 3 ildir quruculuğunun miqyası ilə düşməni dəhşətə salır, düşmənin arzularının matəm yoluna çevrilir...*

*Bura Ömər aşırımıdır - artıq bizi təşvişə, kədərə bürüyən yox, sevindirən, qürurlandıran, Zəfərin əsl mahiyyətini anladan bir yol...*





## Azərbaycanın yenidən dirilişi

İlham Əliyev Zəfər Komandanıdır, qüdrətli Liderdir. Ancaq həm də hərbdən siyasətə, iqtisadiyyatdan mədəniyyətə bütün sahələrdə mənəvi rəmzlərə, psixoloji məqamlara böyük önəm verən, həm də onu yaradan dahidir...

Qarabağ və Şərqi Zəngəzurda İlham Əliyevin şəxsi təşəbbüsü ilə həm işğalın, həm də Zəfərin real simvolları qurulur. İşğal muzeylərinin yanında olacaq Zəfər muzeyləri, əslində, genişmiqyaslı quruculuq və tikintilərin kiçik modelləridir.

Hər kənddə, hər şəhərdə Zəfərin möhtəşəm izləri yaradılır. Bunlar, əlbəttə ki, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın inkişaf, quruculuq dinamikasının adekvat təsirləridir. Ancaq həm də, - bəlkə daha çox, - məhz İlham Əliyevin dünyaya verdiyi Zəfərin mənəvi-psixoloji mesajıdır!..

16.460 kv.km-lik ərazi - Qarabağ və Şərqi Zəngəzur bölgəsi Qafqazın ən böyük tikinti meydanına çevrilib, burada dünyanın "ən", "ilk" kateqoriyalı infrastrukturları qurulur. Bunlar Azərbaycan insanı naminədir - rahat, firavan yaşaması üçün...

Bu həm də millətin, Azərbaycanın yenidən Dirilişidir...

Düşmənin adi göz müşahidəsi ilə gördüyü Laçın şəhərində, Zabuxda cəmi 5-6 aya ərsəyə gətirilən yüzlərlə mənzil, infrastruktur, hər həftə buraya onlarca ailənin köçü sadəcə Qayıdış demək deyil...

Dünya İlham Əliyevin "Biz burdayıq, biz öz yurdumuzdayıq, biz əbədi burada olacağıq!" çağırışını aydın eşidir...

Öz xalqı isə İlham Əliyevdən "Biz bunu bacardıq, biz hələ daha böyük Zəfərləri, qayıdışları gerçəkləşdirəcəyik!" mesajını altlı-üstlü bütün mətləbləri ilə dəqiq alır...

Və ayağını Azərbaycan torpağına daha bərk basır!..

O torpağa ki onun vüsalı ilə 30 il məşəqqətlər yaşadıq, uğrunda minlərlə gəncimiz canını fəda etdi...

O torpağa ki əsrlərboyu ovcunda sıxsan, daim müqəddəs şəhid qanı damacaq...

## Müasir Fərhadlar

Görüşünə getdiyimiz Kəlbəcər və Laçında da İlham Əliyev belə möhtəşəm quruculuq işlərinə müəlliflik edir...

...Ömər aşırımının buz bağlamış sərt dolayları nə qədər narahatçılıq, çətinlik yaratsa da, əsla təhlükəli saymırıq. Çünki ətrafımızda həyat və iş qaynayır... Ömər aşırımınadək və ondan sonra bütün yolboyu şaxtanın ayazına baxmadan, dayanmadan çalışan minlərlə işçi heyəti, nərilti ilə gedən yüzlərlə ağırtonnajlı yük maşınları insanı fərəhləndirən canlanma yaradır.







Burada əksər dövlət qurumlarının təmsilçiləri fəaliyyətdədir. Energetiklər, suçəkənlər, ekoloqlar, kartoqraflar, tibb, rabitə və digər sahələrin mütəxəssisləri, ən əsası isə Müdafiə və Daxili İşlər nazirliklərinin, Sərhəd Xidmətinin əməkdaşları xidmət çəkirlər. Hər birinin işi digərinin əməyini birbaşa tamamlayır, yüngülləşdirir, səmərəli edir. Burada vahid komanda sistemi ilə mütəşəkkil fəaliyyət yaradılıb.

Bu nailiyyət üç il öncə Prezident sərəncamı ilə təsis olunan Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının effektiv fəaliyyətinin real nəticəsidir...

Səfərboyu ünsiyyətdə olduğumuz müxtəlif peşə sahiblərinin isə hamısı bir rəydə həmrəy idi: əgər bu ərazilərdə ilkin yollar təmir olunmasa, yeniləri çəkilməsəydi, fəaliyyət istənilən səviyyədə olmazdı. Hər biri böyük qədirbilənlik və minnətdarlıqla, dost təəssübkeşliyi və səmimi zarafatları ilə yol işçilərinə ehtiramlarını bildirirdilər. Bütün əziyyəti unutduran münasibət idi bu...

Kəlbəcər və Laçın dağlarını dələn müasir fərhadların külüngü, əlbəttə ki, indi innovativ və yüksək texnoloji əsaslıdır, amma əsas odur ki, fədakarlıqları, zəhmətləri, hədəfə nail olma əzmləri əsatirdəkilərdən də güclü, daha inadlıdır...









Bələdçimiz Əyyub Hüseynov Kəlbəcərdəndir, I Qarabağ savaşının veteranıdır. Beynəlxalq layihələrdə 20 illik təcrübəsi ilə ixtisaslaşıb, peşəkar yol inşaatçısı olaraq, xeyli nəqliyyat infrastrukturlarında kamil mütəxəssis imzasını qoyub. Zəfərdən dərhal sonra Şuşaya çəkilən Zəfər yolundan başlayaraq, Zəngəzur dəhlizi istiqamətindəki çoxşaxəli yollarda, həmçinin Bərdədən Ağdama, Xocavəndə, Füzuliyə uzanan, Toğanalıdan Laçınadək gedən yeni qələbə yollarında keyfiyyətə texniki nəzarəti həyata keçirir.

Kəlbəcərə, Laçına salınan yolun maraqlı tarixçəsi var. 10 noyabr üçtərəfli Bəyanatından sonra artıq bu rayonların ermənilər tərəfindən boşaldılması aydın idi. Qələbədən cəmi bir həftə keçmiş Şuşaya Zəfər yolunun təməlini atan Prezident Avtomobil Yolları Dövlət Agentliyinə bütün istiqamətlər üzrə, o cümlədən Kəlbəcər və Laçına yeni yolların çəkilməsinə başlamaq göstərişi verir. İlham Əliyev tapşırığının mahiyyəti də hamıya məlumdur: qısa müddətdə layihələndirilmə aparılmalı, tez zamanda yol çəkilişinə başlanılmalı, məsuliyyətli icraçılıqla keyfiyyətli iş təcili yekunlaşdırılmalıdır.

Əyyub Hüseynov xatırlayır ki, 2020-ci ilin noyabrından etibarən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bütün qüvvəsini Qarabağa və Şərqi Zəngəzura səfərbər edir: *"Prezident tapşırığı təcili icra olunmalı idi. Zəfər yolu ilə paralel digər istiqamətlər üzrə layihələndirmə başlamışdı. Kəlbəcərin azadlığa çıxdığı gün - 25 noyabrda artıq "Azəravtoyol" Ömər aşırımında idi və elə həmin gündən də işə başlanıldı. Aşırımın bərpası qısa müddətdə həyata keçirildi. Dekabrda isə artıq Kəlbəcərə layihələndirmə işçi heyəti gəldi. 2021-ci ilin ilk aylarından etibarən Toğanalıdan Kəlbəcərə, oradan da Laçına uzanacaq yol şəbəkəsinin qurulması ilə bağlı işlərə start verildi. Saleh Məmmədovun rəhbərliyi ilə heyətimiz səhər Şuşada, günorta Kəlbəcərdə, axşam Zəngilanda olurdu və bu rejim hər gün təkrarlanırdı. Gecələmək üçün nəinki daldalanacaq, heç elektrik, su yox idi, uzaqdan gətirilən yeməyi sədr, mühəndislər, fəhlələr birgə yeyirdik. Necə ki savaş anında zabit də, əsgər də eynidir, hamısı döyüşçüdür, bizim "döyüşümüzdə" də rəhbər və fəhlə söhbəti, ayrılığı yox idi, elə indi də yoxdur! Bunlar bizə zərrə qədər də çətinlik, problem kimi gəlmirdi, bu işin məsuliyyətinin şərəfi bizə yetərli idi. İndiyədək mövcud olmayan istiqamətdə yol, özü də Zəfər yolu çəkirdik - bu, nəyə desən dəyərdi..."*

## Zəfər yollarında İlham Əliyev imzası

Kəlbəcərə, Laçına çəkilən yol, salınan tunellər barədə Azərbaycanda hamı məlumatlıdır. Dünyanın ən yaxşıları sırasına indidən möhürünü vuran bu layihələr haqlı olaraq qürur mənbəyimizdir. Ancaq etiraf edək ki, bu nəhəng infrastruktur barədə bilgilərimiz yetərincə deyil. Elə isə Bakıdan Kəlbəcərə, oradan isə Laçına gedən, Zəngəzuradək uzanan yollar və tunellər barədə detallara varaq...

Göygöldən Zəngəzur sərhədlərinədək uzanan 158 km-lik yol şəbəkəsi 22 tunel, 23 körpüdən ibarətdir və iki hissədən - Toğanalı-Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın avtomobil yollarından təşkil olunur.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinə 23 iyul 2021-ci ildə başlanılıb. Magistral yolun üzərində yerləşən nəhəng Murovdağ tunelinin təməli isə İlham Əliyev və Mehriban Əliyevanın iştirakı ilə 16 avqust 2021-ci ildə qoyulub. Həmin gün Kəlbəcər-Laçın avtomobil yolundakı ilk tunelin inşasına da start verilib.

Xatırladaq ki, əraziyə Ömər aşırımı ilə gələn Prezident *"Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq"* söyləmişdi.

*"Biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq"* mesajı ilə bütün dünyaya səslənən İlham Əliyev yeni layihənin və tunellərin əhəmiyyətini də çox düzgün dəyərləndirmişdi: *"Bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - eyni zamanda Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Bu tunel çox rahat və təhlükəsiz bir yol olacaq".*

Ümumiyyətlə, yol infrastrukturu Prezidentin Qarabağ və Şərqi Zəngəzurun quruculuq strategiyasında əsas prioritetlərdəndir. İlham Əliyevin göstərişi ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hələ Vətən Savaşının ilk günlərində - 2020-ci ilin oktyabr ayında yenidənqurulmasına başlanılan və uzunluğu 28,5 km təşkil edən Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu cəmi bir il sonra - 2021-ci il oktyabrın 3-də istismara verildi.

Bu silsilədə ən əlahiddə hadisə isə Zəfər yolu idi. 2020-ci il noyabrın 16-da İlham Əliyev tərəfindən təməli qoyulan və uzunluğu 101,5 km olan Zəfər yolu cəmi bir il sonra - 2021-ci il noyabrın 7-də istifadəyə verildi.

İndiyədək bu bölgələrdə icra olunan 21 layihədən ümumi uzunluğu 186.3 km təşkil edən 5 avtomobil yolu layihəsi uğurla yekunlaşıb.

## Yol inşaatçılarının şah əsəri - Murovdağ

Bir məqamı da xatırladaq ki, Toğanalı-Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın avtomobil yolları layihələri Prezidentin daim diqqət mərkəzindədir. Özü mütəmadi olaraq layihələrin durumu ilə maraqlanır, həm tunel, həm də yol infrastrukturu ilə bağlı tapşırıqlarının icrasını şəxsən yoxlayır. Ötən il iki dəfə - iyunun 26-da və sentyabrın 21-də, həmçinin cari ildə də iki dəfə - mayın 27-də və avqustun 25-də bu avtomobil yollarında, tunellər tikintisində görülən işlərlə tanış olub.

Qardaş Türkiyənin dünyaca məşhur "CENGİZ İnşaat Sənaye və Ticarət" şirkəti tərəfindən subpodratçı olaraq inşa olunan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Rayonun əksər yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edən yol 82 km uzunluğa malikdir və 2, 3, 4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Yolun uzunluğu Toğanalı-Kəlbəcər istiqamətində 56 km, Kəlbəcər-İstisu üzrə 26 km təşkil edir. Yolda mövcud olacaq 5 tunelin ümumi uzunluğu isə 25,9 kilometrdir.

İlk tunelə daxil oluruq. Füsunkar təbiət qoynundan 561,2 metr uzunluğunda modern nəqliyyat qurğusuna girərkən insan heyran qalmaya bilmir. 626,9 metrlik ikinci tuneldən sonra isə bu infrastrukturun şah əsəri - Murovdağ tuneli başlayır.

...Murovdağ tunelinə axşam saatlarında çatdıq. Girişdə ilk andan gərgin iş prosesi diqqəti cəlb edirdi. Məlumat verildi ki, burada, ümumiyyətlə, inşa olunan bütün tunellərdə fasiləsiz - 24 saatlıq iş prosesi tətbiq olunub. Növbəli qaydada işçi heyəti tuneldə çalışırdı.

*Tunel qazıntısının canlı şahidi olmaq, çoxşaxəli inşa prosesinin fərqli yönümlərini görmək, irəlidə qazıntı üçün törədilən partlayışların səsini eşitmək, dünyanın ən yaxşılarından sayılacaq tunelin tikintisini prosesin içindən müşahidə etmək insanda duyğusal ovqat yaradırdı...*

*(Ardı var)*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan",***
*Bakı-Kəlbəcər-Laçın-Bakı*









# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan Fransanı qlobal fiaskoya uğradır

**"Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində qələbə qazanması, Ermənistanı və onun havadarlarını 3 il ərzində iki dəfə məğlubiyyətə uğratması regionda tamamilə yeni reallıq formalaşdırıb. Mövcud situasiyada ABŞ, Avropa İttifaqı və Fransa kimi neoimperialist niyyətdə olan beynəlxalq subyektlər faktiki olaraq Azərbaycana və bütövlükdə bölgəyə təsir rıçaqlarını itiriblər. Həmin beynəlxalq subyektlər, ələlxüsus Fransa özü və orbitində olan dövlətlər vasitəsilə İrəvanı silahlandırmaqla işğal dövrünün status-kvosunu bərpa etməyə çalışır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Fransa xüsusən beynəlxalq platformalarda aktivlik nümayiş etdirərək Azərbaycanın ətrafında təzyiq çənbəri formalaşdırmaq, "insan haqları" və "demokratiya" pərdəsi altında ölkəyə səlib yürüşü həyata keçirmək istiqamətində səylərini artırıb. Lakin Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda bölgədə marağı olan bütün subyektlər artıq respublikamızla bərabərhüquqlu tərəfdaş kimi hesablaşmalı olduqlarının fərqindədirlər. Ona görə də Fransanın ədalətsiz və beynəlxalq hüquqazidd istiqamətlərdə səyləri ilk andaca fiaskoya məhkum olur. "Məsələ burasındadır ki, Fransa özünün qeyri-adekvat və hüquqazidd mövqeyindən əl çəkmək istəmir. Bununla da özünü beynəlxalq ictimaiyyət qarşısında rüsvay edir. Bu günlərdə Fransa Xarici İşlər Nazirliyinin Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın müvəqqəti təminat tədbirləri qismində 10 iddiasından 7-ni rədd etməsinə qəbuledilməz ritorika ilə münasibət bildirməsi, Beynəlxalq Ədalət Məhkəməsi üzərində təzyiq mühiti formalaşdırmağa çalışması Fransanın müasir beynəlxalq münasibətlərin prinsipləri ilə qəbul edilməyən mövqedə qərarlaşdığını bir daha aydın nümayiş etdirdi", - deyə deputat söyləyib.

Bəhruz Məhərrəmovun dediyinə görə, proseslərin gedişi göstərir ki, Fransanın bu cür "ərköyün" davranışının, habelə beynəlxalq hüququn və münasibətlərin prinsiplərinə zidd hərəkətlərinin təməlində bu ölkənin bu günə qədər törətdiyi sülh və insanlıq əleyhinə cinayətlərinin, eləcə də Parisin proteksiyası altında törədilmiş çoxsaylı terror əməlinin hələ də ifşa olunmaması dayanırdı. Lakin Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyevin Fransanın Əlcəzairdə törətdiyi cinayətləri ifşa etməsinin və Fransanın Əlcəzair xalqından üzr istəməsi tələbini qoymasının ardınca Qoşulmama Hərəkatının zirvə toplantılarında bu ölkənin neokolonialist siyasətinin açıq şəkildə tənqid olunması, Fransanın ümumbəşəri dəyərləri hədəfə alan cinayətkar subyekt kimi üzr istəməsinin zərurətinin bəyan olunması artıq bu istiqamətdə müəyyən rəylər formalaşdırmaqdadır.

"Təsadüfi deyil ki, Ərəb Dövlətləri Liqasında Prezident İlham Əliyevin müvafiq bəyanatının ardınca Fransanın koloniyalarında bu ölkənin əsl simasının artıq qlobal miqyasda ifşa olunmasından cəsarət alan xalqlar çoxillik müstəmləkə siyasətinə qarşı etirazlarını bildirməyə başladılar. Artıq Fransa Afrikadan demək olar ki, qovulmaq üzrədir. Bu günlərdə isə Yeni Kaledoniyada Fransa əleyhinə aksiyalara start verilib və çox güman ki, 21-ci əsrin ən qaniçən müstəmləkəçisi tezliklə dənizaşırı ərazilərdən qovulacaq", - deyə müsahibim bildirib.

Deputat vurğulayıb ki, Cənubi Qafqazın hesabına özünün neokolonialist ideologiyasını genişləndirmək niyyətinə düşən Fransa məhz Qoşulmama Hərəkatı çərçivəsində Prezident İlham Əliyevin qətiyyətli davranışları ilə fiaskoya uğradı və digər müstəmləkələrindən də məhrum olmaq üzrədir. Bu, ümumbəşəri dəyərlər adına ən böyük töhfələrdən biri, həmçinin müstəmləkə siyasətinə ən ciddi zərbə idi. Fransanın ifşa edilməsi fonunda isə Makron hökuməti bu ölkə tarixində ən zəif, iddiaları güc və imkanları ilə üst-üstə düşməyən gülünc iqtidar kimi tarixə düşməkdədir.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Azərbaycanın sülh formulu yeganə seçimdir

### Ermənistan ərazisini dünyanın müxtəlif siyasi güclərinin toqquşma mərkəzinə çevirməklə Cənubi Qafqazda barış və dayanıqlı inkişafı təhdid edir

**Son üç il ərzində Azərbaycan torpaqlarını işğaldan qurtarmaqla, ərazi bütövlüyü və suverenliyini təmin etməklə Cənubi Qafqazda dayanıqlı sülhə, əməkdaşlığa nail olunmasına əlverişli mühit, zəmin hazırlayıb.**

Onilliklərdir münaqişə ocağı kimi tanınan bu regionda nisbətən sabitlik yaranıb, nəhayət ki, bölgənin rahat nəfəs alacağı mühüm mərhələyə qədəm qoyulub.

Müharibədən dərhal sonra Ermənistana sülh təklif etməsi, üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri zamanından öncə və layiqli şəkildə yerinə yetirməsi, ümumiyyətlə, iki ölkə arasında normallaşmaya nail olunması istiqamətində ardıcıl və əməli addımlar atması ilə Azərbaycan bölgədə barışa tərəfdar olduğunu əyani nümayiş etdirib.

O da reallıqdır ki, təcavüzkar siyasəti sayəsində özünü bölgədən təcrid edən, regionda gerçəkləşdirilən bütün nəhəng iqtisadi layihələrdən kənarda qalan və hərtərəfli böhran yaşayan Ermənistanın özünə sülh müqaviləsinin tezliklə imzalanması hava-su kimi lazımdır. Lakin Ermənistanın forpost ölkə olaraq müstəqil siyasət yeridə bilməməsi, ərazisini dünyanın müxtəlif siyasi güclərinin toqquşma mərkəzinə çevirməsi səbəbindən hələ də iki ölkə arasında sülh müqaviləsinin bağlanmasına nail olunmayıb.

Çox aydın görünür ki, başda Fransa olmaqla, bəzi qərəzli ölkələrin siyasi, hərbi dəstəyindən iştahlanan Ermənistan hakimiyyəti hazırda sülhə yox, müharibəyə hazırlaşır.

### Bəzi dairələr yenidən müharibənin fitilini alovlandırmağa çalışırlar

Ümumiyyətlə, xarici havadarlarının Ermənistana dəstəyi Cənubi Qafqazda sabitliyi pozmağa, burada yenidən müharibənin fitilini alovlandırmağa yönəlib.

Məhz buna görə də İrəvan ilə Bakı arasında sülh müqaviləsinin imzalanmasına real şərait yarandığı həssas bir məqamda, bəzi islamofob, türkofob Qərb ölkələri dırnaqarası xristian təəssübkeşliyindən çıxış edərək, ölkəmizə qarşı kütləvi hücuma keçiblər.

Xüsusilə müstəmləkəçi Fransanın canfəşanlığı ilə beynəlxalq mediada Azərbaycana qarşı qara piar aparılır, əl oyuncağına çevrilmiş qurumlar vasitəsilə qərəzli qətnamələrin qəbuluna nail olurlar. Qərbin "demokratik" simasının təmsilçisi Fransa təcavüzkar Ermənistanı silahlandıraraq onu müharibəyə qızışdırır. Amma unudurlar ki, Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyub, suverenliyini bərpa edib, Qarabağ bölgəsində "boz zona"nı ləğv edərək separatizmin kitabını bağlayıb.

Cənubi Qafqazda yaranan reallıqlarla heç cür barışmaq istəməyən Qərb siyasi dairələri Qarabağı könüllü tərk edən erməniəsilli sakinlərdən sui-istifadə edərək guya onların etnik təmizləməyə məruz qalması barədə böhtan xarakterli bəyanatlar səsləndirirlər. Ancaq Qarabağ bölgəsində bir neçə dəfə monitorinq aparan BMT missiyasının, eləcə də əlaqədar beynəlxalq qurumların bu ərazidə heç bir etnik təmizləmə olmadığı ilə bağlı yaydığı məlumatların özü də ikili standartlı ölkələrin bölgənin reallıqlarından çox uzaq düşdüyünü təsdiqləyir.

### "Böyük bacı" heç nə edə bilməz

Bütün bunlar bir daha inkarolunmaz şəkildə ortaya qoyur ki, "sülh" qiyafəli, hərb niyyətli Qərb ölkələri bölgəyə müdaxilə etməsələr, bir o qədər yaxşı olar. İlk növbədə də marionet Ermənistanın özü üçün.

Ötən müddətdə baş verənlər göstərdi ki, xarici havadarlarına güvənərək Azərbaycana qarşı siyasi, hərbi təxribatlara yol verən Ermənistan ölkəmiz qarşısında həm siyasi, həm hüquqi, həm də hərbi müstəvidə ağır məğlubiyyətlərə uğradı. Və İrəvanı bu məğlubiyyətlərdən güvəndiyi heç bir xarici güc, eləcə də "böyük bacı"sı Fransa qurtara bilmədi.

Noyabrın 20-də Prezident İlham Əliyevin və İraq Prezidenti Əbdüllətif Camal Rəşidin mətbuata bəyanatlarla çıxışı zamanı dövlətimizin başçısı da bildirdi ki, Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək: "Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər? Heç nə".

Göründüyü kimi, arxalandığı Qərb dairələri belə Ermənistanı məğlubiyyətlər sindromundan xilas edə bilmir və gələcəkdə də Azərbaycan qətiyyəti, siyasi iradəsi ilə heç zaman buna imkan verməyəcək. Ona görə də Ermənistan neçə ki gec deyil, ağlını başına yığaraq sülh üçün yaranmış əlverişli şəraitdən yararlanmalıdır. Əks təqdirdə dalan ölkə olmaqdan, siyasi, iqtisadi, sosial, hərbi sahələrdə sürükləndiyi uçurumdan onu heç bir kənar güc xilas edə bilməyəcək.

Sözügedən bəyanatında Prezident İlham Əliyev məhz bu məqama toxunaraq bildirdi ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdır: "Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək".

### Azərbaycan ədalətli sülhə tərəfdardır

Azərbaycan hər zaman ədalətli, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan, sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazır olduğunu bildirib. Həm də dövlətimiz bunu təkcə sözlə ifadə etməyib, haqqın yerini tapan sülhün bərqərar olması üçün əməli fəaliyyət göstərib, real mövqe ortaya qoyub.

Amma xarici dəstəkçilərinə güvənən Ermənistan tərəfi ötən müddətdə sülh müqaviləsinin imzalanmasından siyasi riyakarlıqlarla, təxribatlarla yayınıb. Paşinyan hakimiyyəti elə düşünür ki, "məzlum" roluna girib dünyaya yalan sırımaqla, riyakar ölkələri üzərimizə qaldırmaqla nəyəsə nail ola bilər, lakin yanılır.

Azərbaycan dövləti milli maraqlarına təhdid olan bütün xarici qüvvələrə qarşı qətiyyətlə mübarizə aparmaq iqtidarındadır və dövlətimizin, xalqımızın iradəsinə heç bir beynəlxalq təzyiq, güc təsir edə bilməz.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




## Sözdə "sülh tərəfdarı" olanlar...

### Onlar Cənubi Qafqazda qarşıdurmanın aradan qaldırılmasında deyil, onun idarə edilməsində maraqlıdırlar

**Qalib olmasına baxmayaraq, Azərbaycan tərəfindən üç ildir ki, Ermənistana sülh təklif olunsa da, qarşı tərəfin pozucu fəaliyyəti davam edir. Doğrudur, regionda sülhün, sabitliyin bərpa olunmasını istəməyənlər də işğalçı dövlətə "dəstək" olur, hər vəchlə Cənubi Qafqazda münaqişə ocağının qalması üçün səy göstərirlər.**



Xüsusilə sentyabrdakı lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanın bütün ərazilərində suverenliyini bərpa etməsi ABŞ-ni, Qərbdəki müəyyən dairələri daha da qıcıqlandırmağa başladı və onlar dərhal ölkəmizə qarşı fəaliyyətə keçdilər.

ABŞ rəsmilərinin Azərbaycana qarşı əsassız ittihamları, bəzi məsələlərdə ölkəmizi günahlandırması, özlərini sülh göyərçini kimi göstərmələri son vaxtlar daha çox müşahidə olunur. Elə bir müddət əvvəl ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın sülhün əldə olunmamasında Azərbaycanı günahlandırması və bununla bağlı ABŞ və Azərbaycan münasibətlərinə yenidən baxılacağı ilə bağlı "hədəsi" bunun bariz nümunəsidir.

Amma O'Braynın son çıxışı göstərir ki, rəsmi Vaşinqton bununla heç nə əldə etmədiyini, yeni reallıqların yarandığını yavaş-yavaş anlayır. Belə ki, ABŞ dövlət katibinin köməkçisi noyabrın 27-də növbəti çıxışında Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi üçün real fürsət gördüklərini bildirib.

Dövlət katibi Blinken də Prezident İlham Əliyevlə telefon danışığında münasibətlərin normallaşdırılması məqsədilə dekabrda Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib.

Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Mövzu ilə bağlı Milli Məclisin deputatı Sahib Alıyev "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, regionda sülh üçün real imkanlar var və bunu ilk növbədə sentyabrın 19-20-də öz torpaqları üzərində suverenliyini tam təmin etməklə Azərbaycan yaradıb.

Deputat təəssüflə qeyd edib ki, Entoni Blinkenin başında durduğu Dövlət Departamenti, ümumiyyətlə, Qərbdəki bəlli çevrələr bu imkanın real anlaşmaya çevrilməsinin yolunu kəsirlər: "Onlar sözdə dayanıqlı, davamlı sülh tərəfdarı olduqlarını desələr də, hətta bununla bağlı vasitəçilik təşəbbüsündə olsalar da, hərəkətləri ilə göstərirlər ki, keçmiş Minsk qrupuna həmsədrlik etdikləri dövrdə olduğu kimi, indi də Azərbaycanla Ermənistan arasında qarşıdurmanın aradan qaldırılmasında deyil, onun idarə edilməsində maraqlıdırlar. Bütün bu qəbildən olan cəhdlərə baxmayaraq, əminəm ki, regionda gec-tez sülh bərqərar olacaq. Bu əminliyi yaradan odur ki, elə həmin güclər, ilk növbədə də keçmiş Minsk qrupuna həmsədrlik edənlər Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinin, yumşaq desək, heç də tərəfdarı deyildilər. Çünki onlar qətiyyətlə buna qarşı çıxırdılar və təkidlə bildirirdilər ki, Azərbaycan torpaqlarını savaş yolu ilə azad edə bilməz. Amma nəticə ortadadır".

S.Alıyevin fikrincə, Azərbaycanın diplomatik, siyasi müstəvidə atdığı addımlar, ölkədəki xalq-hakimiyyət birliyi, Müzəffər Ali Baş Komandanın dəmir iradəsi, yüksək diplomatik bacarığı ona aparıb çıxaracaq ki, Cənubi Qafqazda sülhün əleyhinə olanların onun bərqərar edilməsi ilə razılaşmaqdan başqa yolu qalmayacaq.

Prezident İlham Əliyev nəinki tarixə torpaqlarımızı işğaldan qurtarmış lider kimi, həm də Qafqazda sülh yaratmağı bacarmış, sülhpərvər, humanist dövlət xadimi kimi düşəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Ədalətsiz "ədalət carçıları"

### Ermənistan 200 min azərbaycanlının malını, əmlakını əlindən alıb tarixi torpaqlarından zorla çıxaranda nə Qərb dövlətləri səsini çıxardı, nə ABŞ dindi

**Bu "susqunluq"dan istifadə edən Ermənistan ardınca Qarabağ və Şərqi Zəngəzurdakı yüz minlərlə həmvətənimizi yurdundan, doğma evindən didərgin saldı. İllərlə torpaqlarımızı işğal altında saxladı, təbii sərvətlərimizi taladı, işğal etdikləri əraziləri xarabazara çevirdi, azərbaycanlılara aid tarixi mədəni irsi vandalcasına məhv etdi. Yenə də Qərbdən və ABŞ-dən bir səs çıxmadı...**

Əvəzində Azərbaycan öz ərazilərini hər dəfə hərbi yolla azad etmək istəyəndə Qərb dövlətləri və ABŞ dil töküb, yaxa cırıb dəridən-qabıqdan çıxırdılar ki, problemin hərbi həlli yoxdur. Buna baxmayaraq, Azərbaycan illərdir dünyanın guya həll etmək istədiyi, lakin həlli yolunda irəliyə doğru bir addım olsun belə atmadığı problemi hərbi yolla, özü də birdəfəlik həll etdi. Dərhal da bəzi Qərb dövlətləri ABŞ ilə əl-ələ verib üstümüzə "hücum"a keçməyə başladılar.

Səbəb nədir? Nədir bu dünyada "ədalət", "demokratiya" axtaran, "insan hüquqları", "azad söz", "azad cəmiyyət" üçün dəridən-qabıqdan çıxıb milyardlarla pul xərcləyən dövlətləri narahat edən? Bəlkə illərdir ermənilərin başımıza gətirdikləri dəhşətli, insanlığa yaraşmayan əməlləri görüb bu hadisələrin təsirindən "donub"larmış?! Bəlkə indi də Azərbaycanın müstəqil siyasət aparması, dünyada söz və nüfuz sahibi olmasından təsirləndikləri üçün "don"ları açılıb?! Bunun bir izahı var: bu gün Ermənistanı müdafiə, Azərbaycana isə təzyiq etmək istəyənlər elə problemi yaradan və ondan ölkəmizə qarşı istifadə edən dövlətlərdir.

Bu sirr deyil ki, Qərb və ABŞ Ermənistan vasitəsilə Cənubi Qafqazı, eləcə də Türkiyəni, İranı nəzarətdə saxlamaq istəyir. İllərdir ki, Ermənistana "maya" qoymalarının da əsl səbəbi budur. Heç nədən çəkinmədən, utanıb-qızarmadan oyuncaqları olan Ermənistana "demokratik" dövlət donu geyindirməyə çalışırlar. Olduqca paradoksaldır. Ermənistanda parlament seçkisində yüksək səs alan partiyanın liderlərini parlamentdə güllələyirlər, terror edirlər, bu dövlətin adı terrorçu yox, demokrat olur. Niyə? Ona görə ki, Qərbin və ABŞ-nin müxtəlif fondlarının satın aldıqları adamları hakimiyyətə gətirib öz maraqlarını Ermənistanda asanlıqla təmin edə bilirlər.

Azərbaycan Vətən müharibəsindən sonra müvafiq beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın illərdir tarixi mədəni irsimizə qarşı törətdiyi vandalizmi gözləri ilə görmələri üçün işğaldan azad olunmuş ərazilərimizə dəvət etdi. UNESCO nümayişkaranə surətdə bu dəvəti heç nə olmayıbmış kimi qulaqardına vurdu.

Başqa bir misal: işğaldan azad edilmiş ərazilərdə minalanmış sahələrin xəritəsinin verilməsi üçün Ermənistana heç bir Qərb dövləti və beynəlxalq təşkilat tərəfindən ciddi təzyiq və təsir edildiyinin şahidi olmadıq. Dünyanın hər hansı bir nüfuzlu beynəlxalq təşkilatının Qarabağda, işğal olunmuş ərazilərdə tapılan məzarlıqlar barədə Ermənistanı qınayıcı hər hansı bir bəyanat verdiyini, səsini çıxartdığını eşitmədik.

Azərbaycanın müstəqil siyasətini, suverenliyini arzu etməyən bəzi Qərb dövlətləri və ABŞ ölkəmizə qarşı təzyiq etmək niyyətinə düşüb öz maraqlarını təmin etmək istəyəndə həmişə eyni üsuldan yararlanmağa çalışıblar, özü də Ermənistan və pulları hesabına ələ aldıqları "qərbpərəst", "amerikapərəst" "demokratiya carçıları", "insan hüquqlarını müdafiə edən" dəllallar vasitəsilə... Bu, müstəqilliyimizə qarşı təhlükə yaratmaq istəyən qüvvələrin ən çox istifadə etdikləri sınaqdan çıxmış üsuldur. Ölkəmizdə öz maraqlarını təmin etmək istəyən qüvvələrin bu üsuldan yararlanmaları barədə ortalıqda kifayət qədər fakt var. Xatırlatmaq yerinə düşər ki, 2002-ci ildə beynəlxalq təşkilatlar Azərbaycanda "fəaliyyət" göstərən Sülh və Demokratiya İnstitutuna Ermənistanda fəaliyyət göstərən "Region" Tədqiqatlar Mərkəzi və digər qeyri-hökumət təşkilatları ilə birgə "xalq diplomatiyası" layihələrini gerçəkləşdirmək üçün kifayət qədər böyük məbləğdə qrant ayırmışdılar.

ABŞ Azərbaycana və maraqlı olduğu dövlətlərə qarşı planlarını əsasən donor təşkilatları olan Beynəlxalq İnkişaf Agentliyi (USAID), Milli Demokratiya İnstitutu, NED kimi tanınan Milli Demokratiya Fondu, German Marşal Fondu və digər fondlar vasitəsilə həyata keçirirlər. Qərbin demokrat, ədalət ovçuları isə işlərini Aİ vasitəsilə görürlər.

Qeyd etdiyimiz kimi, Azərbaycana qarşı qəzəb, kin püskürən, Ermənistanın maraqlarını təmin etmək məqsədilə Azərbaycana qarşı az qala hər gün bir oyun quran Aİ-nin yadına bu dar macalda yenə ölkəmiz düşüb. Avropa Şurası tərəfindən 2023-cü il üçün nəzərdə tutulan qrantın məbləği nə az, nə çox - düz 4,5 milyon avrodur. Eyni zamnda ABŞ-nin Milli Demokratiya Fondu ötən il Azərbaycanda "insan haqları, şəffaflıq (korrupsiya ilə mübarizə), müstəqil KİV və ölkədə demokratiyanın inkişafı" istiqamətləri üzrə 15 qeyri-layihə üçün də külli miqdarda vəsait xərclədiyi məlumdur.

Sual oluna bilər: ABŞ və Qərb toruna saldığı insanları necə tapır və hansı üsulla seçir? Şübhəsiz ki, ilk növbədə ağla gələn sosial şəbəkələrdir. Bildiyimiz kimi, sosial şəbəkələr ağzıaçıq qazana, qapısı olmayan binaya bənzəyir. Sosial şəbəkələrdə fəallıq edən "tənqidçilər", kosmopolit düşüncə və əxlaq sahibləri, söyüşü, əxlaqsız davranışı "qəhrəmanlıq" hesab edənləri ovlamaq, bizcə, heç də çətin deyil. Pulun xatirinə hər an satılmağa hazır olan və özünü bütün məsələlərdə haqlı hesab edənlər ölkəmizin əleyhinə "tədqiqat" aparan qüvvələrin toruna asanlıqla düşən xammallardır. Onlardan sayt redaktoru da, "televiziya" rəhbəri də, "hüquq müdafiəçisi" də düzəltmək çətin olmur.

Belələri düşünmürlər ki, qulluqlarında durduqları ölkələr imkan düşdükcə onlardan vətəndaşı olduqları dövlətə qarşı qərəzli, məkrli niyyətlərini gerçəkləşdirmək üçün istifadə edirlər. Bilərəkdən və ya bilməyərəkdən "beynəlxalq" donor təşkilatlarının tələsinə düşənlər anlamalıdırlar ki, onların həyata keçirdikləri "layihə"lər kimi, özlərinin də təyinatı var və bu təyinat başa çatdıqdan sonra onlar istifadə edilmiş əl kağızı kimi atılacaqlar.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# Xankəndiyə Qarabağ Universiteti ilə qayıdırıq

*Əvvəli 1-ci səh.*



### Prezidentin himayəsi ilə...

Sənəddə qeyd edilir ki işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.

Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılacaq "Qarabağ Universiteti" publik hüquqi şəxsin fəaliyyəti üçün Xankəndi şəhərində torpaq sahəsi ayrılacaq, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələləri həll ediləcək. Bu, onu deməyə əsas verir ki, İlham Əliyevin himayəsi ilə Qarabağda tarixi ənənələrimiz dirçəldiləcək.

Tarixə ekskurs etsək, görərik ki, Qarabağda fəaliyyət göstərən yeganə ali təhsil ocağı Xankəndi şəhərində mövcud olub. 1969-cu ildə Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filialı Xankəndi şəhərində fəaliyyətə başlayıb. 1973-cü ildə isə Azərbaycan KP MK-nın birinci katibi Ulu Öndər Heydər Əliyevin təşəbbüsünə əsasən, filial Azərbaycan Nazirlər Sovetinin 28 noyabr 1973-cü il qərarı ilə müstəqil ali məktəb - Xankəndi Pedaqoji İnstitutu kimi fəaliyyətini davam etdirib.

50 il öncə Xankəndi Pedaqoji İnstitutu adı altında fəaliyyətini davam etdirən təhsil ocağı Qarabağın və ərazi cəhətdən ona bitişik olan digər rayonların gənclərinin ali təhsilə yiyələnməyində xüsusi rol oynayıb. İnstitutda Azərbaycan və erməni bölmələri fəaliyyət göstərib. İnstitut kənardan çox sakit bir təhsil ocağı təəssüratını bağışlasa da, fəaliyyətə başladığı gündən burada çalışan erməni müəllimlər və təhsil alan erməni tələbələr bu təhsil ocağını daşnak yuvasına çevirmək arzusunda olublar. Lakin institutun azərbaycanlı müəllimləri və tələbələri uzun illər ermənilərin çirkin niyyətlərini ifşa etməyi bacarıblar. Amma təəssüflər olsun ki, 1988-ci ildə millətçi ermənilər açıq müstəvidə torpaq iddiasına başlayanda institutun ziyalılarına, müəllim və tələbələrinə, onların apardıqları milli mübarizəyə həmin dövrdə Azərbaycana rəhbərlik edənlər dəstək olmayıblar. Kimsəsizlik, köməksizlik bu təhsil ocağının azərbaycanlı kollektivini cinayətkar, türk qanına susamış və amansız olan millətçi ermənilərlə üz-üzə qoyub.

1988-ci ilin may ayında minlərlə azğınlaşmış erməni üç dəfə institutun qarşısına toplaşaraq azərbaycanlılardan şəhəri tərk etmələrini tələb ediblər. Bu tələb təkcə sözlə ifadə olunmayıb. Baş verən hadisələri fiziki təzyiqlər müşayiət edib. Mayın 16-da institutun Azərbaycan bölməsinin müəllim və tələbələri fiziki və mənəvi təzyiqlər altında Xankəndi şəhərini tərk etmək məcburiyyətində qalıblar. Bununla da Xankəndi Pedaqoji İnstitutunun taleyinə köçkünlük həyatı yazılıb.

### Tarixi ənənələr dirçəldiləcək

Maraqlı məqamlardan biri odur ki, Xankəndi Pedaqoji İnstitutunun yaradılması haqqında qərarı Azərbaycan Nazirlər Soveti verdiyi halda onun sonrakı fəaliyyəti haqqında SSRİ Nazirlər Soveti qərar çıxarıb. 1988-ci ilin oktyabr ayında Xankəndi Pedaqoji İnstitutunun iki il müddətinə bağlanması haqqında SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkov qərar imzalayıb. Qərara əsasən, institutun Azərbaycan bölməsi Kirovabada (Gəncə şəhəri), erməni bölməsi isə Kirovakana (Böyük Qarakilsə) köçürülüb. Amma Rıjkovun imzaladığı qərar birtərəfli icra olunub. Xankəndi Pedaqoji İnstitutunun azərbaycanlı müəllim və tələbələri öz pedaqoji fəaliyyətlərini və təhsillərini Kirovabad Pedaqoji İnstitutunda (indiki Gəncə Dövlət Universiteti) davam etdiriblər. Ermənilər isə cəmi iki-üç həftədən sonra Xankəndiyə qayıdıblar və qısa müddət ərzində Xankəndi Pedaqoji İnstitutu Kirovakan Pedaqoji İnstitutun filialına çevrilib, sonralar isə qondarma "Qarabağ Dövlət Universiteti" adı altında fəaliyyət göstərib.

Gəncədə birillik fəaliyyətdən sonra Xankəndi Pedaqoji İnstitutunun müəllim və tələbələri respublika rəhbərliyi və müvafiq qurumlar qarşısında institutun Qarabağ ərazisində, Şuşada fəaliyyətini davam etdirməsi ilə bağlı təşəbbüs qaldırıblar. Təklif qəbul olunub, institutun Şuşa şəhərində fəaliyyət göstərməsinə razılıq verilib və institut üçün Şuşada yer ayrılıb, maddi-texniki bazasının yaradılması üçün Nazirlər Soveti lazım olan vəsaitin ayrılması haqqında qərar verib.

Amma bu məsələdə növbəti yanlışlığa yol verilib. İnstitut Şuşada Xankəndi Pedaqoji İnstitutu kimi deyil, Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Şuşa filialı kimi fəaliyyət göstərməyə başlayıb. Bununla da Xankəndi Pedaqoji İnstitutunun adının üstündən birdəfəlik xətt çəkilib. Həmin dövrdə Azərbaycanda hakimiyyətdə olanlar rəsmi olaraq bu təhsil ocağını ləğv edib.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, ermənilərin ikiəsrlik "böyük Ermənistan" xülyasının üstündən birdəfəlik xətt çəkən İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirdiyi misli görünməyən tikinti-quruculuq işləri ilə yanaşı, Qarabağda, Şərqi Zəngəzurda mövcud olan tarixi-dini və mədəni abidələrimizi, təhsil ocaqlarımızı da bərpa edərək dünyaya nümunə göstərir, düşmənlərə gözdağı verir.

Bəşəri bir həqiqət var ki, təhsil gələcəyin qapısı, həm də bələdçisidir. O, insana yeni ideyalar və tükənməz ruh verir. Bölgənin inkişaf konsepsiyası elm, təhsil və innovasiya mərkəzi kimi Xankəndidə yeni nəsil ali təhsil müəssisəsinin yaradılmasını labüd edir. Şübhəsiz ki, yeni yaradılacaq Qarabağ Universiteti şəhərin və bölgənin ictimai həyatında fəal rol oynayacaq, sosial missiyası çərçivəsində əhəmiyyətli töhfələr vermək potensialına sahib güclü təhsil brendi və regionda müasir universitet modelinin bənzərsiz nümunəsi olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İlham Əliyevin şərtini ABŞ qəbul etdi

*Əvvəli 1-ci səh.*

Azərbaycan öz qətiyyətli yolu olan, ona qarşı istənilən riyakar davranışı layiqincə cavablandırmağa qadir ölkədir. Məsələn, Azərbaycan ABŞ-nin qərəzli və düşmən mövqeyinə görə Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində təklif olunan görüşün keçirilməsini mümkün hesab etməyib. Eyni zamanda Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfər etmələrinə əsassız qadağa qoyulmasına görə Azərbaycan da ABŞ rəsmilərinin ölkəmizə səfərinə qadağa qoyub.

Azərbaycan beynəlxalq münasibətlərdə öz maraqlarını qətiyyətlə qoruyur və ABŞ-nin ölkəmizə qarşı qərəzli mövqe tutması Bakını narahat etmir. Çünki bütün bunlardan Azərbaycanın itirəcəyi heç nə yoxdur. Azərbaycanın nə ABŞ, nə də onun Konqresi qarşısında heç bir öhdəliyi yoxdur. Amma bütün bunlardan sonra əl-ayağa düşən də ABŞ oldu. Bu mənada ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevlə telefon danışığında münasibətlərin normallaşdırılması məqsədilə dekabrda köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş etməsi Azərbaycanın siyasi-diplomatik qələbəsidir.

Bu xahişinin yerinə yetirilməsi üçün Dövlət katibi Blinkenin Prezident İlham Əliyevin şərtini qəbul etməkdən başqa yolu qalmayıb. Belə ki, ABŞ rəsmisi Azərbaycana o şərtlə gələ bilər ki, həmin səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılacaq.

Beləliklə, bu telefon danışığı bir daha göstərdi ki, Azərbaycan öz mövqeyində qətidir, prinsipialdır və heç bir qüvvə ölkəmizi öz yolundan döndərə bilməz.

### ABŞ-nin ikiüzlü siyasətinin növbəti göstəricisi

ABŞ-nin Azərbaycanın ərazi bütövlüyünün bərpasını qəbul edə bilməməsi digər müstəvilərdə də üzə çıxır. Belə ki, Türkiyənən hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çəlik bildirib ki, ABŞ Türkiyəyə F-16 təyyarələrinin verilməsi üçün şərt irəli sürüb. Vaşinqton Ankaradan Qarabağın azad edilməsi üçün Azərbaycana verdiyi dəstəyi kəsməsini tələb edib.

Bu da ilk növbədə ABŞ-nin ikiüzlü siyasətinin göstəricisidir. Qarabağ bütün dünyada Azərbaycan torpağı kimi tanınsa da, BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etsə də, işğalçı və işğala məruz qalan gün kimi agah olsa da, ABŞ hər zaman ikili standartlardan çıxış edib. Ankaradan etdiyi tələb isə həm də ABŞ-nin riyakar davranışının, erməni təəssübkeşliyinin göstəricisidir.

Görünən həm də odur ki, ABŞ hətta öz müttəfiqləri ilə təzyiq dilində danışır, onları təhdid edir. Əlbəttə, Türkiyə güclü dövlətdir və xaricdən olan bütün təzyiq və təhdidləri adekvat şəkildə cavablandırır, dünyada və regionda öz milli maraqlarını təmin edən qətiyyətli siyasət həyata keçirir.

Eyni zamanda ABŞ-də çox yaxşı bilirlər ki, Türkiyə Azərbaycana yalnız siyasi və mənəvi dəstək verib. Ermənistanın işğalı altında olan torpaqlarımızı Azərbaycan öz gücü ilə azad edib. F-16, F-35-lərin Türkiyəyə verilməməsinin əsl səbəbləri isə bəllidir və ABŞ bunun üçün çoxsaylı bəhanələr ortaya atıb, Türkiyəyə təzyiq göstərməyə çalışır. Azərbaycana yardım məsələsi də bu bəhanələrdən biridir.

ABŞ-yə qarşı son onilliklərdə beynəlxalq səviyyədə etimadsızlıq mühiti formalaşıb. Dünyanın bir çox yerində müharibələrin, siyasi kataklizmlərin, dövlət çevrilişlərinin baş verməsinin səbəbkarı məhz ABŞ-dir. Azərbaycana qarşı məlum davranışlarına görə ABŞ həm də özünün Qafqaz siyasətinə böyük zərbə vurdu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Mərkəzi Asiya ölkələrinin Azərbaycana marağı artır

## SPECA-nın sərgisi və Zirvə görüşü münasibətlərin inkişafına müsbət impuls verəcək



**"Azərbaycan beynəlxalq aləmdə iqtisadi, siyasi, mədəni, humanitar, diplomatik mərkəz kimi, böyük nüfuza malik ölkə kimi tanınır. Son illərdə Azərbaycanın ayrı-ayrı dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrinin inkişafına xidmət edən tədbirlərə evsahibliyi etməsi, bu və ya digər ölkələrdə qatıldığı tədbirlər də bunu təsdiqləyir".**

Ötən həftə Bakıda keçirilən SPECA-nın sərgisi və Zirvə görüşünün ölkəmiz üçün əhəmiyyətini dəyərləndirən Milli Məclisin deputatı Aydın Hüseynov qəzetimizə açıqlamasında qeyd edib ki, bu, ilk növbədə respublikamızın beynəlxalq nüfuzunun göstəricisidir: "Bu tədbir tarixi Zəfərdən sonra ölkəmizin beynəlxalq müstəvidə ciddi aktor, həm də dünya siyasi gücləri tərəfindən söz sahibi olaraq qəbul olunmasının örnəyi sayıla bilər. Bütün bunlar isə Prezident İlham Əliyevin Azərbaycanı inkişaf və yüksəlişə aparan mükəmməl siyasətinin nəticəsidir".

Deputat vurğulayıb ki, Azərbaycan çoxəsrlik tarixi və mədəni sivilizasiyalar beşiyi olan tarixi İpək yolunda nüfuzlu ölkə kimi coğrafiyaları birləşdirərək əməkdaşlığa töhfə verib: "Hazırda bu qədim ənənəyə söykənərək respublikamız yeni İpək yolunun qurulmasında fəal mövqe tutaraq bu coğrafiyanın əsas iştirakçıları olan Mərkəzi Asiya ölkələri ilə iqtisadi layihələrin reallaşmasına geniş imkanlar yaradır. Son illər Azərbaycan Mərkəzi Asiya ölkələrinin Avropa ilə iqtisadi əlaqələrinin inkişafında mühüm rol oynayır. Başqa sözlə, ölkəmizin həm şərqlə qərbin, həm də şimalla cənubun kəsişməsində yerləşməsi ona əlverişli tranzit imkanları yaradır. "Şərq-Qərb" dəhlizi Mərkəzi Asiyadan gələn yüklərin daşınması üçün ideal platformadır".

A.Hüseynov bildirib ki, Mərkəzi Asiya dövlətlərinin Avropa ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün tranzit ölkə olaraq Azərbaycanı seçməsi təsadüfi deyil. "Azərbaycan siyasi və təhlükəsizlik baxımından regionun ən sabit ölkəsidir, qlobal və regional təşəbbüslərin müəllifidir, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qarantıdır. Azərbaycan irəli sürdüyü təşəbbüslər, reallığa çevirdiyi enerji layihələri ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir. Bütün bunlar isə Mərkəzi Asiya ölkələrinin Azərbaycana marağını artırır. Azərbaycan Mərkəzi Asiya ilə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Avratlantik Tərəfdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TürkPA, TÜRKSOY kimi platformalarda da fəal əməkdaşlıq edir", - deyə A.Hüseynov vurğulayıb.

Deputatın sözlərinə görə, Mərkəzi Asiya ölkələrinin də təmsil olunduğu Türk Dövlətləri Təşkilatının bu bölgəyə inteqrasiyası güclənməkdədir: "Azərbaycan "Şərq-Qərb" nəqliyyat magistralının əsas nöqtələrindən biri olan Mərkəzi Asiya ilə əlaqələrini də gücləndirir. Xüsusilə Zəngəzur dəhlizinin yaradılması ilə Çin-Mərkəzi Asiya və Avropanın sıx inteqrasiyası genişlənəcək ki, bu prosesdə də əsas tranzit ölkə Azərbaycan olacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Amerika öz mövqeyindən geri çəkildi

## Bir daha təsdiq olundu ki, heç bir qüvvə Azərbaycanla təzyiq dili ilə danışa bilməz

**Atılan hər addımın, görülən hər işin arxasında mütləq bir maraq dayanır. Təbiidir ki, ABŞ-nin Azərbaycana qarşı atdığı qərəzli addımların da arxasında marağı var. Yəni ABŞ-nin erməni sevgisi həqiqi sevgi deyil, maraqları xatirinə olan bir şeydir. Maraq xatirinə olan sevginin isə ömrü çox uzun çəkmir...**



İndi gələk ABŞ-nin Azərbaycana qarşı olan qərəzinin arxasında dayanan maraqlarına. Məlumdur ki, ABŞ Zəngəzur dəhlizinin İran ərazisindən keçən hissəsini qəti şəkildə qəbul etmir. İstəmir ki, iki ölkə arasında normal qarşılıqlı qonşuluq əlaqəsi yaransın. Buna görə də ABŞ öz maraqlarından çıxış edərək Ermənistanın "dünyanın kəsişməsi" adlı planını dəstəkləyir. Bu yolla Ermənistanı bataqlıqdan çıxarmağa çalışır. Amma Ermənistan elə bir bataqlığa düşüb ki, onu oradan çıxarmaq Amerika üçün çox çətindir. ABŞ-nin gücü yalnız Ermənistanı dəstəkləyən bəyanatlar verməyə çatır.

ABŞ-nin Fransanın əli ilə Ermənistanı silahlandırmaqda başqa bir marağı da Azərbaycanın Ermənistanın şərtləri daxilində sülhə imza atmasına nail olmaqdır. Təbiidir ki, bu, mümkün olan bir şey deyil. Çünki Azərbaycan qalib ölkədir. Qalib ölkə isə məğlub Ermənistanın şərtləri ilə heç vaxt razılaşmaz. Bu şərtləri heç yaxına da buraxmaz. ABŞ-nin bu cəhdləri də heç bir nəticə verməyəcək. Çünki bu gün danışıqlarda şərtləri qalib olan Azərbaycan diktə edir. Əksinə, ABŞ Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinə dəstək versəydi, ikitərəfli danışıqlara praktik yanaşsaydı, regiona sülh gələrdi. Bundan sonra Amerikanın geosiyasi mövqeyi güclənə bilərdi. Təəssüf ki, bunun əvəzinə ABŞ qərəzli mövqe tutmağa üstünlük verdi.

ABŞ-nin Ermənistanı silahlandırmaqda başqa bir marağı isə Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Bunun üçün də Ermənistana yardımlar edib, onu gücləndirməyə çalışır, ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirməsi də buna hesablanıb. Müxtəlif yollarla təzyiq göstərməyə çalışır, hətta təxribatlara da əl atır. Bununla da Amerika istəyir ki, İranın, Türkiyənin və Rusiyanın Ermənistan üzərində rolunu əngəlləsin. Necə deyərlər, Azərbaycanla Ermənistanı bir tərəzinin gözünə qoysunlar. Təbiidir ki, bu da mümkün olan bir şey deyil. Azərbaycanla Ermənistan tərəzinin eyni gözündə çəkilə bilməz. Çünki Ermənistan işğalçı, Azərbaycan sülhsevər ölkədir.

ABŞ nə istədiyini heç vaxt konkret dilinə gətirmir. Məqsəd və məramını müxtəlif yollarla gizlətməyə çalışır. Üzdə bir şey deyir, arxada başqa bir şey edir. Məsələn, Konqresdəki dinləmələrdə çıxış edənlər deyirlər ki, ABŞ Qafqazda sülh istəyir və tərəfləri sülhə çağırmaqda davam edir. Bəs sülh istəyən ölkə nədən Ermənistana hərbi yardım göstərir, Gümrü paliqonunda təlim keçir, düşmən ordusunu müharibəyə hazırlayır? Əlbəttə, Amerika ümid edir ki, indi Rusiyanı Qafqazdan çıxarmağın ən yaxşı yolu Ermənistanla Rusiya münasibətlərini korlamaqdır. Özünü Ermənistana dost göstərmək üçün də Azərbaycana qarşı qərəzli mövqe tutur. Son vaxtlar ABŞ-nin və Avropa rəsmilərinin düşmən ölkənin tərif dolu komplimentlər yağdırması ondan irəli gəlir ki, onlar Ermənistanın Rusiya ilə münasibətlərinin daha da kəskin xarakter almasına nail olsunlar. ABŞ-nin Qafqaza girməkdə başqa planları da var. Amerika buradan Mərkəzi Asiyaya getməyi hədəfləyir. Amerika gələcək məqsədlərinə çatmaq üçün Qafqazda əsas oyunçular olan Rusiya və İranın təsirlərini minimuma endirməyə çalışır. Bunun üçün bütün imkan və vasitələrdən istifadə edir.

Amma, deyəsən, ABŞ-nin qərəzli mövqeyinin buzu yavaş-yavaş əriməyə başlayır. ABŞ Dövlət katibi Entoni Blinkenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi bunu bir daha təsdiqləyir. Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub. Dövlət başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə altkomitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib. Azərbaycan tərəfinin ABŞ-nin ölkəmizə münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb. Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dən olan yüksəksəviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O`Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksəksəviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

ABŞ-nin tutduğu yanlış və qərəzli yoldan dönməsindən aydın oldu ki, bu dövlətin daimi çəkişmədə olduğu Rusiya ilə davası, xoş olmayan münasibəti bəzi hallarda onun gözünü tutur. Bu da Ağ Evin obyektivliyinə, etibarlı tərəfdaşlıq imicinə mənfi təsir göstərir. ABŞ Administrasiyası hesab edir ki, Rusiya ilə normal münasibəti olan istənilən dövlət haqsızdır və əksinə, hansı dövlət Rusiya ilə ziddiyyətdədirsə, onu müdafiə etmək lazımdır. Belə yanlış siyasətin nəticəsidir ki, bu, Amerikanın imicinə zərbə vurur.

Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ-nin Dövlət katibi Entoni Blinken arasında olan telefon danışığı, Amerikanın tutduğu qərəzli mövqedən geri çəkilməsi rəsmi Bakının regionda mövqeyinin qətiyyətli, sarsılmaz olduğunu bir daha göstərdi. Gün kimi aydın görünən odur ki, regionda şərtləri Azərbaycan diktə edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 426

QƏRAR

Bakı şəhəri, 27 noyabr 2023-cü il

## “Radiotezliklərdən istifadəyə dair müqavilənin nümunəvi forması”nın təsdiq edilməsi haqqında

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 fevral tarixli 2022 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Radiotezliklərdən istifadəyə dair müqavilənin nümunəvi forması" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 noyabr tarixli 426 nömrəli Qərarı ilə təsdiq edilmişdir

## Radiotezliklərdən istifadəyə dair müqavilənin NÜMUNƏVİ FORMASI

№______

Bakı şəhəri "_____" _________ 20___ il

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-2-ci maddəsinə uyğun olaraq, bir tərəfdən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Dövlət Radiotezliklər İdarəsinin (bundan sonra - İcraçı) adından

______________________________
(səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı)

şəxsində və digər tərəfdən radiotezlik istifadəçisi (bundan sonra -İstifadəçi) adından _______________

______________________________
(hüquqi şəxsin tam adı, hüquqi ünvanı, onun səlahiyyətli şəxsinin vəzifəsi, soyadı,

______________________________
adı və atasının adı, fiziki şəxsin soyadı, adı, atasının adı və ünvanı)

şəxsində İcraçı və İstifadəçi adlandırılacaq, sonradan ayrılıqda Tərəf, birlikdə isə Tərəflər adlandırılmaqla, Radiotezliklərdən istifadəyə dair Müqaviləni (bundan sonra - Müqavilə) aşağıdakı şərtlərlə imzaladılar:

### 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilə İstifadəçiyə ayrılmış radiotezliklərdən və onlara köklənmiş radioelektron vasitələrindən (bundan sonra - REV) təyinatı üzrə istifadə və ödəniş şərtlərini, Tərəflərin hüquq və vəzifələrini, Müqavilənin ləğvi və dəyişdirilməsi qaydalarını və əsaslarını, habelə Müqavilənin predmetinə dair digər mühüm şərtləri tənzimləyir.

### 2. Tərəflərin hüquq və vəzifələri

2.1. İstifadəçinin hüquqları:

2.1.1. radiorabitə şəbəkəsinin istifadəsinə radiomaneə təsiri yarandıqda həmin radiomaneələrin aradan qaldırılmasını İcraçıdan tələb etmək;

2.1.2. beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik zolaqlarından istifadə hüququ dövlət təhlükəsizliyi məqsədləri üçün müstəsna hallarda məhdudlaşdırıldıqda müvafiq tədbirin, o cümlədən idman yarışının təşkilatçısının vəsaiti hesabına kompensasiya tələb etmək.

2.2. İstifadəçinin vəzifələri:

2.2.1. radiorabitənin yaradılması üçün tələb olunan sənədləri və istifadə olunacaq REV-in təsdiqlənmiş anketlərini İcraçıya təqdim etmək;

2.2.2. radiotezliklərdən və REV-dən ən səmərəli və optimal şəkildə istifadəni təmin etmək və bu işi daimi təkmilləşdirmək;

2.2.3. radiorabitə şəbəkəsində olan bütün dəyişikliklər haqqında İcraçıya 10 (on) iş günü müddətində məlumat vermək;

2.2.4. radiotezliklərin və REV-in istifadəsi üzrə cavabdeh şəxsi təyin etmək və bu barədə 10 (on) iş günü ərzində İcraçıya məlumat vermək;

2.2.5. radiotezliklərin və REV-in istifadəsinə verilən icazə şərtlərinə riayət etmək, onlardan icazə şərtləri daxilində istifadə olunmasını təmin etmək;

2.2.6. qüvvədə olan mövcud tariflərə uyğun ödənişləri bu Müqavilədə və qanunvericilikdə nəzərdə tutulmuş qaydada vaxtında və tam şəkildə təmin etmək;

2.2.7. ayrılmış radiotezliklərdən onların istifadəsinə icazə verilmiş ərazidə mövcud qanunvericiliyə, eyni zamanda Azərbaycan Respublikasının üzv olduğu Beynəlxalq Telekommunikasiya İttifaqının, həmçinin sahə üzrə digər beynəlxalq təşkilatların qərar və tövsiyələrinə, müvafiq standartlara uyğun radiorabitə şəbəkəsinin qurulmasına zəmanət vermək;

2.2.8. ayrılmış radiotezliklərin və İstifadəçiyə məxsus REV-in üçüncü şəxslərin istifadəsinə verilməməsini təmin etmək;

2.2.9. mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar üçün qanunvericiliyə uyğun xüsusi icazələr almaq;

2.2.10. ayrılmış radiotezliklərdə və radiorabitə şəbəkəsində REV-dən təyinatı üzrə və səmərəli istifadəyə nəzarət üçün tələb edilən müvafiq sənədləri təqdim etmək, İcraçıya "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yerində texniki baxış keçirilməsi üçün şərait yaratmaq;

2.2.11. icazə vərəqəsi olmadan REV-in istifadəsi aşkar edilərsə, bu halda İstifadəçi həmin REV-in istifadəyə verilməsinə dair aktda göstərilən tarixdən qeydiyyata salınmaqla mövcud tariflərə uyğun hesablanmış məbləğin ödənilməsini təmin etmək;

2.2.12. REV-in istismarına verilən icazə şərtlərinin İstifadəçi tərəfindən pozulması faktları aşkar edildikdə, həmin avadanlıqların İcraçı tərəfindən möhürlənməsinə şərait yaratmaq;

2.2.13. möhürlənmiş REV-in İcraçının icazəsi olmadan möhürünün açılmasına, həmin avadanlığın satışına, təqdimetmə formasından asılı olmayaraq üçüncü şəxsə verilməsinə və yaxud balansdan çıxarılması hallarına yol verməmək;

2.2.14. İcraçı tərəfindən təqdim edilmiş müraciət əsasında və ya hər hansı REV-in istismarı dayandırıldıqda, həmin REV-in möhürlənməsinə şərait yaratmaq;

2.2.15. radiorabitə şəbəkəsində istifadə edilən REV-lər üçün qanunvericiliyə uyğun icazə vərəqələri almaq və həmin icazə vərəqələri əsasında onların istismarını təmin etmək;

2.2.16. İcraçı tərəfindən göndərilən xəbərdarlıqlara uyğun operativ tədbirlər görmək və nəticəsi barədə məlumat vermək;

2.2.17. radiomübadilə prosesində efir təhlükəsizliyini təmin etmək;

2.2.18. radiorabitə şəbəkəsinin istifadəsini fəaliyyətdə olan digər radiorabitə şəbəkələrinə radiomaneələr yaratmamaqla təşkil etmək və fəaliyyətdə olan digər radiorabitə şəbəkələrinə radiomaneə təsiri olduqda həmin radiomaneələrin aradan qaldırılmasını təmin etmək.

2.3. İcraçının hüquqları:

2.3.1. müqavilə öhdəliklərini yerinə yetirmək üçün İstifadəçidən lazım olan sənədləri və məlumatları tələb etmək;

2.3.2. REV-in istismarına "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq plan üzrə (növbəti) və ya plandankənar (növbədənkənar) texniki baxışlar keçirmək;

2.3.3. İstifadəçi tərəfindən müqavilə öhdəlikləri pozulduğu və texniki baxış zamanı qeydiyyatsız REV aşkarlandıqda qanunvericiliyə uyğun olaraq həmin REV-in istifadəsinə qadağa qoymaq və istismarını dayandırmaq məqsədilə möhürləmək;

2.3.4. texniki baxış zamanı tərtib olunmuş aktı təhlil etmək və aktda qeyd olunan çatışmazlıqların aradan qaldırılmasını tələb etmək;

2.3.5. beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik zolaqlarından istifadə hüququnu Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin təklifi ilə dövlət təhlükəsizliyi məqsədləri üçün müstəsna hallarda məhdudlaşdırmaq;

2.3.6. radiorabitə şəbəkəsinin istifadəsi fəaliyyətdə olan digər radiorabitə şəbəkələrinin istifadəsinə radiomaneələr yaratdıqda, həmin radiomaneələrin aradan qaldırılmasını İstifadəçidən tələb etmək;

2.3.7. radiotezliklərdən və REV-dən səmərəli və optimal şəkildə istifadənin təmin edilməsini və bu işin daimi təkmilləşdirilməsini tələb etmək.

2.4. İcraçının vəzifələri:

2.4.1. radiotezliklərin istifadəsinə müvafiq olaraq yayım tezlikləri üzrə Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən, digər tezliklər üzrə isə Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası (bundan sonra - Dövlət Komissiyası) tərəfindən İstifadəçiyə ayrılmış radiotezliklər (zolaqlar) çərçivəsində konkret tezlik nominallarını (kanallarını) təyin etmək və qeydiyyata almaq;

2.4.2. ödənişlər tam aparıldıqdan sonra REV-in istismarı üçün icazə vərəqəsi vermək;

2.4.3. ayrılmış radiotezliklərin və həmin radiotezliklərdə işləyən REV-in qeydiyyatını aparmaq;

2.4.4. radiorabitə şəbəkəsinə təsir edən radiomaneə mənbələrini İstifadəçinin rəsmi müraciətinə əsasən araşdırmaq və onun aradan qaldırılması üzrə qanunvericiliyə uyğun tədbirlər həyata keçirmək;

2.4.5. radiotezliklərdən təyinatı və ərazi üzrə düzgün istifadə olunmasına nəzarət etmək;

2.4.6. İstifadəçi tərəfindən təqdim edilmiş müraciət əsasında hər hansı REV-in istismarı dayandırıldıqda, həmin REV-in möhürlənməsini təmin etmək;

2.4.7. İstifadəçi tərəfindən radiorabitə vasitələrinin istismarı şərtlərinin pozulması faktları (bu faktlar avadanlığın qeydə alınmış texniki parametrlərinin kənara çıxmaları ilə əlaqədar baş verdiyi halda da) aşkar edildikdə, həmin avadanlıqların istismarına verilən icazələrə məhdudiyyət qoymaq və ya onları ləğv etmək;

2.4.8. İstifadəçi tərəfindən öhdəliklərin pozulduğu hallarda ona məxsus REV-in istismarını dayandırmaq və möhürlənməsini aparmaq;

2.4.9. radiotezliklərdən istifadəyə görə tezlik nominalları üçün mövcud tariflərə uyğun 2 (iki) il müddətində ödənişlər tam aparılmadıqda və ya ayrılmış radiotezliklərdən 3 (üç) ay müddətində istifadə edilmədikdə radiotezliklərin geri alınması barədə Dövlət Komissiyası qarşısında məsələ qaldırmaq;

2.4.10. REV-dən və yüksəktezlikli qurğulardan səmərəli istifadə olunmasını təmin etmək üçün zəruri tədbirlər görmək.

### 3. Radiospektr idarəçisi ilə münasibətlərin tənzimlənməsi

3.1. Tərəflər Nazirliyin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (bundan sonra - Agentlik) tərəfindən radiospektr idarəçiliyi ilə bağlı tələb edilən məlumat və sənədləri, Agentliyin müəyyən etdiyi formada və dövriliklə, dövrilik təyin edilmədiyi halda belə tələb daxil olduğu gündən ən geci 15 (on beş) iş günü müddətində, Agentlik tərəfindən təcili hesab edildiyi halda isə 5 (beş) iş günündən gec olmayaraq Agentliyə təqdim etməli, radiospektr idarəçiliyi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblərin yerinə yetirilməsini təmin etməlidirlər.

### 4. Müqavilənin dəyəri, radiotezliklərdən istifadə və ödəniş şərtləri

4.1. İcraçının göstərdiyi xidmətlərin dəyəri İstifadəçinin bu Müqavilə ilə İcraçıya təqdim etdiyi anket sənədlərinə və qüvvədə olan mövcud tariflərə uyğun hesablanır.

4.2. İstifadəçi İcraçı tərəfindən ona bu Müqavilə üzrə təqdim olunmuş hesab-faktura əsasında ödənişləri 10 (on) iş günü müddətində təmin edir.

4.3. İstifadəçi tərəfindən bu Müqavilənin 4.2-ci bəndində nəzərdə tutulan müddətdə ödəniş təmin olunmadığı halda, İcraçı birtərəfli qaydada dəbbə pulu (cərimə və ya penya) tətbiq edə bilər.

4.4. İstifadəçi tərəfindən ödənişin aparılması gecikdirildiyi halda, hər gecikdirilmiş gün üçün ödənilməyən məbləğin ___ faizi həcmində penya hesablanır və İstifadəçi tərəfindən İcraçıya ödənilir. Hesablanan penyanın ümumi məbləği illik ödənilməli məbləğin 10 faizindən artıq olmamalıdır.

4.5. Radiotezliklərdən istifadə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"na uyğun həyata keçirilir.

### 5. Vergilər və rüsumlar

5.1. Tərəflər Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bütün vergilərin, rüsumların və digər ödənişlərin ödənilməsini təmin edirlər.

### 6. Fors-major

6.1. Bu Müqavilənin icrasına fors-major hallar təsir göstərərsə, Tərəflər bu Müqavilə üzrə öhdəliklərinin icra edilməməsi üçün məsuliyyət daşımırlar.

6.2. Fors-major hallara Tərəflər tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, əvvəlcədən nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara hərbi və silahlı münaqişələr, epidemiyalar, epizootiyalar, karantinlər, daşqınlar, zəlzələlər, digər fövqəladə hallar, embarqolar, həmçinin Müqavilənin şərtlərinə təsir edən qanunvericilikdə edilən əhəmiyyətli dəyişikliklər, dövlət orqanlarının (qurumlarının) qərarları aid edilir.

### 7. Mübahisələrin həlli

7.1. Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələr bir qayda olaraq danışıqlar vasitəsilə həll edilir.

7.2. Tərəflər arasında yaranan fikir ayrılığı və ya mübahisələrin danışıqlar vasitəsilə həll edilməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məhkəmə yolu ilə həll edilir.

7.3. Bu Müqavilə ilə tənzimlənməyən digər məsələlərin həllində Azərbaycan Respublikasının qanunvericiliyi rəhbər tutulur.

### 8. Müqavilənin ləğvi və dəyişdirilməsi qaydaları və əsasları, tərəflərin məsuliyyəti

8.1. Müqavilə Tərəflərin razılığı ilə və ya Tərəflərdən birinin tələbi ilə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş qaydada və əsaslarla ləğv edilə bilər.

8.2. Tərəflər bu Müqavilə üzrə yaranan öhdəliklərinin icra edilməməsinə və ya lazımi səviyyədə icra edilməməsinə görə Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məsuliyyət daşıyırlar.

8.3. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab edilir.

8.4. Tərəflər bir-birilərinə təqdim etdikləri, yaxud bu Müqavilənin icrası ilə əlaqədar iş prosesində əldə olunmuş bütün informasiyanın tam məxfiliyini təmin etməyi öz üzərilərinə götürürlər.

8.5. İcraçı tərəfindən təqdim edilmiş hesab bu Müqavilənin 4.2-ci bəndində göstərilən müddət ərzində ödənilmədikdə bu hal ödəmə şərtinin pozulması kimi qəbul edilir və verilən icazələr ləğv edilir. Eyni zamanda İcraçı tərəfindən radiotezliklərin geri alınması üçün aidiyyəti üzrə tədbirlər görülür.

### 9. Yekun müddəalar

9.1. Müqavilə imzalandığı gündən qüvvəyə minir və radiotezliklərin ayrılması haqqında qərarın qüvvədə olduğu müddət ərzində qüvvədədir.

9.2. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib olunmuşdur və bir nüsxəsi İcraçıda, digər nüsxəsi isə İstifadəçidə saxlanılır.

### 10. Tərəflərin ünvanları (hüquqi ünvanları) və rekvizitləri

| | |
|---|---|
| İstifadəçi ______________ | İcraçı ______________ |
| VÖEN: ______________ | VÖEN: ______________ |
| Ünvan/hüquqi ünvan: ______________ | Hüquqi ünvan: ______________ |
| S.W.I.F.T: ______________ | S.W.I.F.T: ______________ |
| Bankın adı: ______________ | Bankın adı: ______________ |
| Bankın VÖEN-i: ______________ | Bankın VÖEN-i: ______________ |
| Bankın kodu: ______________ | Bankın kodu: ______________ |
| Hesablaşma hesabı: ______________ | Hesablaşma hesabı: ______________ |
| Müxbir hesab: ______________ | Müxbir hesab: ______________ |
| ______________ (səlahiyyətli şəxsin soyadı, adı, atasının adı) | ______________ (vəzifəli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı) |
| İmzası ______________ | İmzası ______________ |
| M.Y. | M.Y. |

# Ölkə üzrə 55,6 milyard manatlıq sənaye məhsulları istehsal edilib



**Həyata keçirilən iqtisadi islahatların hədəfi məlumdur - Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirmək. Bu məqsədlə iqtisadi sektorda ciddi struktur islahatları aparılır, sahibkarlığın inkişafına geniş meydan verilir, qeyri-neft sənayesinin ağırlıq yükü regionlara ötürülür və s. Dünya təcrübəsi də göstərir ki, bütün bunlar olmadan iqtisadiyyatda hər hansı bir uğur əldə etmək mümkün deyil.**

Məlumdur ki, Azərbaycanda neft-qaz sənayesi dövlətin monopoliyasındadır. Qeyri neft-qaz sənayesinin inkişafı isə özəl sektorla sıx bağlıdır. Cari ilin yanvar-oktyabr aylarında sənayedə qeyri-dövlət sektorunun payı 84,9 faiz olmuşdur. Bu dövrdə ümumi istehsalın 91,4 faizi sənaye məhsullarının istehsalı, 8,6 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövrü ərzində ölkə üzrə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal edilən malların, habelə göstərilmiş xidmətlərin dəyəri 55,6 milyard manat olmuşdur. Həmin aylar neft-qaz sektorunda məhsul istehsalı 2,4 faiz azalmış, qeyri-neft-qaz sektorunda 7,4 faiz artmışdır.

DSK həmçinin açıqlamışdır ki, cari ilin 10 ayında emal sənayesində 14 milyard 779,6 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Onu da vurğulayaq ki, həcminə görə emal sənayesi qeyri-neft-qaz sənayesində öndə gedən sahədir. Ötən ilin eyni dövrü ilə müqayisədə içki istehsalında 27,2, qida məhsullarının istehsalında 10,7, tütün məmulatlarının istehsalında isə 3,8 faiz artım müşahidə olunmuşdur. Bu sahənin əsas məhsullarından üzüm şərabının istehsalı 41,7, unlu qənnadı məmulatlarının istehsalı 24,9, siqaret istehsalı 12,5 şəkərli qənnadı məmulatların istehsalı 7,1, meyvə-tərəvəz konservlərinin istehsalı 2,5 faiz artmışdır.

Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 377,1 milyon manat dəyərində məhsul istehsal edilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə toxuculuq sənayesində 11,4 faiz artım olsa da, geyim istehsalında 12,3 faiz azalma qeydə alınmışdır.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı qeyri-neft-qaz sənayesində iritutumlu sahələrdən sayılır. Cari ilin 10 ayında bu sahə üzrə 1 milyard 837,1 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rezin və plastik kütlə məmulatlarının istehsalı 19,8, kimya sənayesi məhsullarının istehsalı 8,1, əczaçılıq məhsullarının istehsalı 4,6 faiz artmışdır. Eyni zamanda kimya sənayesi məhsullarından polietilen istehsalı 29,8, etilen istehsalı 27,9, propen (propilen) istehsalı 21,6 faiz, rezin və plastik kütlə məmulatlarından plastmas butulkalar, flakonlar və oxşar məmulatların istehsalı 87,7 faiz, sərt plastmasdan borular, borucuqlar, qolçaklar və şlanqların istehsalı 26,5, plastmas çubuqlar, millər və protillərin istehsalı isə 7,3 faiz yüksək olmuşdur.

Ərazilərimizin düşmən işğalından azad edilməsi tikinti materiallarına olan tələbatı xeyli artırıb. O üzdən bu sahə üzrə müxtəlif məhsulların istehsalında artım var. Belə ki, hesabat dövrü ərzində sözügedən sahə üzrə 933,6 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,7 faiz artım deməkdir. 10 ayda tikinti gipsinin istehsalında 2 dəfə, əhəng istehsalında 12,7, tikinti şüşəsinin istehsalında 14, beton istehsalında 15,4 faiz artım qeydə alınmışdır.

Metallurgiya sənayesi və hazır metal məmulatları sahəsində isə 913,1 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu sahədə məhsul istehsalında artımla yanaşı, azalma da müşahidə edilmişdir. Məsələn, hazır metal məmulatlarının istehsalında 23 faiz artım qeydə alınsa da, metallurgiya məhsullarının istehsalında 25,4 faiz azalma olmuşdur. 10 ayda hazır metal məmulatlarının istehsalı sahəsində metaldan sair məmulatların istehsalı 37,6 faiz artmış, metallurgiya sənayesi üzrə polad tökmə istehsalı 17,9, armatur istehsalı isə 26,4 faiz azalmışdır.

Əvəzində kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahəsində artım dinamikası yüksəkdir. Yanvar-oktyabr aylarında sözügedən sahə üzrə 195,9 milyon manatlıq məhsul istehsal edilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 65, elektrik avadanlıqlarının istehsalı 7,8 faiz artmışdır. 10 ay ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə stolüstü kompüterlərin istehsalında 2,6, ölçmə cihazların istehsalında 2,2 dəfə, paylayıcı lövhələrin istehsalında 37,2 faiz artım qeydə alınmışdır.

***R.MÜTƏLLİMOV,***
***"Azərbaycan"***

# MDU Qətərdə Beynəlxalq Universitetlər Assosiasiyasının Konfransında təmsil olunub

**Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Qətərin paytaxtı Doha şəhərində "Ali təhsilin təsirləri: mədəniyyətlərarası öyrənmə və dialoqun əhəmiyyəti" mövzusunda təşkil olunan Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) Konfransında iştirak edib.**



Universitetdən AZƏRTAC-a bildirilib ki, Qətər Universitetinin evsahibliyi etdiyi beynəlxalq konfransa 70-dən çox ölkəni təmsil edən 300-dən artıq universitet rektoru və ali təhsil mütəxəssisi qatılıb.

Konfransın açılış mərasimində Qətər Dövləti Şurasının sədr müavini, Qətər Universitetinin rektoru və IAU-nun prezidenti çıxış edib.

Tədbirdə mədəniyyətlərarası səriştələr, qlobal vizyonlu universitetlər, açıq elm, universitet reytinqləri, ali təhsilin beynəlmiləlləşməsi, universitetlərin mədəniyyətlərarası əməkdaşlıqda rolu və digər vacib və maraqlı mövzularda müzakirələr aparılıb.

MDU-nun rektoru Ş.Bayramov konfransın işinə, bölmə iclaslarına və müzakirələrə qatılıb.

Konfrans çərçivəsində rektor həmçinin Qətər Universiteti də daxil olmaqla, IAU üzvü olan bir neçə universitetin rektorları ilə potensial əməkdaşlıq imkanlarını müzakirə edib. MDU 2022-ci ildə IAU-nun üzvü olub. 2022-ci ilin 25-28 oktyabrında Dublində keçirilmiş IAU-nun Konfransında MDU rektoru bu beynəlxalq təşkilatın idarə heyətinə üzv seçilib.

# REGİONLAR



## Cəlilabadda payızlıq taxıl əkini yekunlaşmaq üzrədir

### Amma taxılın satış qiyməti fermerləri qane etmir

**Cəlilabad Azərbaycanın iri kənd təsərrüfatı rayonlarındandır. İkinci Dünya müharibəsi illərində Cəlilabad taxılı respublikanın, əsasən də cənub bölgəsinin çörəklə təminatında xüsusi rol oynamışdır. Sonrakı illərdə də taxılçılıq burada həmişə diqqət mərkəzində olub. Bərəkətli torpaqda zəhmətkeş insanların əli ilə bol məhsul yetişdirilib.**

Ənənə indi də davam edir. Torpağın əsl sahibi olan kəndli, fermer zəngin təcrübə hesabına hər il zəmilərdən bol taxıl götürür. Çünki o öz işinin ağasıdır. Nə əkəcəyini, necə becərəcəyini özü götür-qoy edir, müəyyənləşdirir. Buna görə hər bir fermer yaxşı aqronom, iqtisadçı, mühəndis olmaqla bərabər, təsərrüfat rəhbəridir. Şumundan, əkinindən, becərməsindən, yığımından tutmuş hasilə gətirdiyi məhsula, onu hansı qiymətə satacağı məsələlərinə qədər nə varsa, hamısı fermerin öz əlindən çıxır.

Yeri gəlmişkən, qeyd edək ki, taxılın qiyməti bu gün fermeri qane etmir. Hazırda buğdanın bir kiloqramının bazarda pərakəndə satış qiyməti 30 - 32 qəpik arasındadır. Topdansatışını isə iş adamları 28 qəpiyə reallaşdıra bilirlər. Belə halda çəkdiyi zəhmət bir yana, fermer şum, səpin, mala, gübrə, ziyanvericilərə, alaq otlarına qarşı apardığı mübarizə tədbirlərinə və biçinə çəkdiyi xərci, demək olar ki, çıxara bilmir. Buna görə əksər istehsalçılar yetişdirdikləri buğdanı anbarlarda saxlayırlar. Yaranmış vəziyyətə görə onlar müvafiq nazirliklərin, təşkilatların fəaliyyətsizliyindən narazılıq edirlər. Bildirirlər ki, qonşu ölkələrdə bağlanmış müqaviləyə əsasən, sifarişçi qurumlar gəlib sahədən məhsulu aparırlar. Bu zaman nə məhsul itkiyə gedir, nə də fermer ziyana düşür. Bizdə isə bu işə məhəl qoyan yoxdur.

Cəlilabadlı fermerlər elə bu cür səbəblər üzündən cari il kartof satışında da çətinliklərlə qarşılaşdılar. Düşünürsən ki, kifayət qədər kənd təsərrüfatı məhsullarımız ola-ola, niyə vaxtında onları tədarük edib payız-qış aylarına saxlamırıq? Niyə oktyabr ayı başlayan kimi kartofu, soğanı ordan-burdan almalı oluruq? Niyə xarici valyutamız kənara axmalıdır?

Fermer istehsalçıdır. Onun bundan başqa işi yoxdur. O, hər gün gün batana kimi sahədə olur. "Bu il, inşallah, yaxşı olar" arzusu ilə yaşayır. Elə bu əhval ilə Cəlilabad fermerləri taxıl səpinini cari il də optimal müddətdə başa çatdırmağa çalışırlar. Rayon üzrə bu payız gələn ilin məhsulu üçün 76 min hektarda səpin aparılması nəzərdə tutulmuşdur. İndiyədək 66 min hektardan çox sahədə taxıl səpini həyata keçirilmişdir. Qalan 10 min hektara yaxın sahədə isə noyabrın sonunadək səpinin başa çatdırılması planlaşdırılıb. Səpinə 400-ə yaxın texnika cəlb edilib. Fermerlər, torpaq mülkiyyətçiləri əkin zamanı "Bərəkətli-95", "Qaraqılçıq-2", "Mirbəşir-50", "Əzəmətli-95", "Tanya" buğda, "Cəlilabad-19". "Qarabağ-22", "Dəyanətli" və s. arpa sortlarına üstünlük vermişlər. Əkində ammofos və karbamid mineral gübrələrindən istifadə olunub. Əkini başa çatdıran fermerlər Aqrar İnkişaf Mərkəzinə gələrək bu haqda məlumat verirlər.

Sirr deyil ki, kənd təsərrüfatı işləri birbaşa təbiətlə bağlıdır, necə deyərlər, yağmadı yağış, bitmədi qamış. Son ayyarımda payız fəsli olmasına baxmayaraq, yağıntıların olmaması fermerləri ciddi narahat edir. Əkdikləri toxum quru torpaqda qalmışdır. Belə olan halda onun bir hissəsini qurd-quş yeyir, yəni itkiyə gedir ki, bu da məhsuldarlığa ciddi təsir edir. Amma kəndli yenə ümidsiz deyil, böyük Yaradanın köməyi ilə yağışlı-yağmurlu günlərin gələcəyinə, toxumların su içib boz torpaqdan baş qaldıracağına, sahələrin yamyaşıl dona bürünəcəyinə, təbii itkilərin də təbiətin öz əli ilə bərpa olunacağına inanır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Sahibkarların təklif və problemləri dinlənilmişdir

**Samux Rayon İcra Hakimiyyətində rayon sahibkarları ilə görüş keçirilmişdir. Qarşılıqlı dialoq şəraitində keçirilən görüşdə sahibkarların rəy və təklifləri dinlənilmiş, sualları cavablandırılmış, problemləri həll edilmişdir.**

Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev rayon iqtisadiyyatının daha da inkişaf etdirilməsində sahibkarların rolundan danışmış və belə görüşlərin davamlı olacağını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, regionların dayanıqlı inkişafı, eləcə də ölkədə sahibkarlığın inkişafının stimullaşdırılması ilə bağlı ölkə başçısının verdiyi tapşırıqların icrası Samux rayonunda da özəl sektorun inkişafına güclü təkan vermişdir.

Görüşdə rayonda aqroturizmin inkişafı üçün xüsusi layihə hazırlandığı qeyd edilmiş, yaşıllaşdırma və ətraf mühitin mühafizəsi sahəsində tədbirlərin davam etdiriləcəyi diqqətə çatdırılmışdır.

Sonra söz sahibkarlara verilmişdir. Onlar yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmiş və fəaliyyətlərinin daha da genişləndirilməsi istiqamətində atılan addımları və əməli köməyi yüksək qiymətləndirmişlər.

## Tanınmış alim GDU-da ustad dərsi keçmişdir

**AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, GDU-nun fəxri doktoru, professor Məhəmməd Babanlı Gəncə Dövlət Universitetində ustad dərsi keçmişdir.**



Dərsdən əvvəl Gəncə Dövlət Universitetinin rektoru professor Yusif Yusibov çıxış edərək Məhəmməd Babanlının elmi nailiyyətlərindən, 4 kimya elmləri doktoru, 40-dan çox kimya üzrə fəlsəfə doktoru hazırlamasından danışmış və vaxt tapıb Gəncə Dövlət Universitetində ustad dərsi keçdiyinə görə ona minnətdarlığını bildirmişdir.

Çıxışlardan sonra professor Məhəmməd Babanlının "Faza diaqramları kimyəvi materialşünaslıqda" mövzusunda mühazirəsi dinlənilmişdir.

Ustad dərsində görkəmli alimin Gəncə Dövlət Universiteti ilə Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun birgə elmi tədqiqatlarının nəticələrinə dair məlumatları da dinlənilmişdir.

Sonda dərs iştirakçılarının mövzu ərtafında sualları cavablandırılmışdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Qusarda aqrar sığorta ilə bağlı regional tədbir keçirilib

**Qusar rayonunda "Dayanıqlı fermer fəaliyyəti üçün aqrar sığorta" mövzusunda regional tədbir keçirilib.**

Aqrar Sığorta Fondu və Qusar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə Quba-Xaçmaz iqtisadi rayonunda aqrar sığortadan istifadə, aqrar sığortanın üstünlükləri, təbiət hadisələri və müxtəlif hallar nəticəsində fermerlərə dəyən zərər və ödənişlərlə bağlı vəziyyət müzakirə edilib.

Tədbirdə çıxış edən Qusar Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şahid Fərəməzov bildirib ki, aqrar sığorta dövlətin fermerlərə dəstək üçün tətbiq etdiyi mühüm yenilikdir. Əkinçilik, xüsusilə də meyvə bağlarının geniş yayıldığı Qusarda aqrar sığorta xüsusi əhəmiyyət daşıyır. O, aqrar sığorta vasitəsilə heyvandarlıq təsərrüfatlarının da sığortalanmasını vacib sayıb.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin üzvü Roman Əmircanov bildirib ki, aqrar sığorta vasitəsilə əkin sahələri, heyvandarlıq və balıqçılıq təsərrüfatlarını sığortalamaq mümkündür. Aqrar sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət ödəyir. Hazırda aqrar sığorta ölkədəki 1,6 milyon hektar əkin sahəsinin 420 min hektarını əhatə edir.

Tədbirdə Quba-Xaçmaz regionu üzrə aqrar sığorta xidmətləri və müxtəlif məhsulların sığortalanması imkanları üzrə təqdimat keçirilib. Bildirilib ki, Qusar rayonunun da daxil olduğu Quba-Xaçmaz regionu ölkədə sığorta haqqı nisbətən aşağı olan bölgələrdəndir. Burada 1000 manatlıq arpa məhsulunun sığortalanması fermerə cəmi 8 manata, buğda sahəsinin sığortası isə 7 manata başa gəlir.

Bildirilib ki, bu regionda 1000 manatlıq fındıq sahəsini baza zərfi və donvurmadan sığorta etmək 12 manata, qoz məhsulunun bu risklərdən sığortası isə 20 manata başa gəlir.

Bundan başqa, 1000 manatlıq şaftalı məhsulunu bazar zərfi, donvurmadan və doludan keyfiyyət itkisindən sığorta etmək ümumilikdə 29 manata, armud məhsulunu eyni risklərdən sığorta etmək isə 38 manata başa gəlir. Alma bağı üçün bu rəqəm 32 manat, gilas bağı üçün isə 35 manat təşkil edir.

Heyvandarlıq sığortası üzrə 1000 manatlıq inəyin sığorta haqqı fermerə 31 manata, 300 manatlıq qoyunun sığortası isə 9 manata başa gələcək.

Tədbirdə iştirak edən fermer və təsərrüfat sahibləri quraqlıqdan sığorta, meyvə bağlarının müxtəlif risklərdən sığortalanması, dəyən zərərin hesablanması ilə bağlı sual və təkliflərini səsləndiriblər.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov jurnalistlərə açıqlamasında bildirib ki, artıq təbii fəlakətlər nəticəsində fermerlərə dəyən zərərlərin ödənilməsinə başlanılıb. Təqribi hesablamalara görə, bu il əkin sahələri üzrə aqrar sığorta ödənişləri 6 milyon manata çatacaq.

Fermerlər arasında fikir mübadiləsi formasında keçirilən görüşdə Aqrar Sığorta Fondunun elektron yenilikləri - "Aqrar Sığorta Kalkulyatoru" və "Sığorta şəhadətnaməsini yoxla" xidmətləri barədə məlumat verilib.

## Taxılçılıq, pambıqçılıq, tütünçülük...

### Goranboy kəndlisinin çörəyi bu sahələrdən çıxır







**Mövcud iqtisadi potensial hesabına ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində mühüm addımlar atılır. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır. Təsərrüfat sahibləri güzəştli qiymətlərlə yeni texnikalarla, gübrə və yanacaqla təmin edilirlər.**

Goranboy fermerləri də hər il əkinçilik və heyvandarlıq sahəsində bu hesaba yüksək göstəricilərə nail olurlar. Cari il 16563 hektar payızlıq əkinə görə 8315 istehsalçıya fevral-mart ayları ərzində 4,8 milyon manatdan çox subsidiya ödənilmişdir. Ümumilikdə 21490 hektardan 70,8 min ton taxıl biçilmişdir. Onun da 25 min tonu buğda, 45,8 min tonu arpa olmuşdur. Orta məhsuldarlıq 33,3 sentnerə çatmışdır.

Rayonda son illər xüsusən baramaçılıq, tütünçülük və pambıqçılığa maraq artır. Tütünçülüklə əsasən Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçanaq kəndlərinin sakinləri məşğul olurlar. 8 ildir ki, tütün əkən və hər il bol məhsul götürən kənd sakinləri bu il keçən ildəkindən 5 ton çox məhsul təhvil vermişlər.

Cari il rayon baramaçıları da istəklərinə nail olmuşlar. 140 qutu barama qurdu götürən 62 kümçü 5609 kiloqram yaş barama təhvil vermişlər ki, bu da əvvəlki ildəkindən çoxdur.

Goranboyda ənənəvi kənd təsərrüfatı sahələrindən olan pambıqçılığa da maraq azalmayıb. Qeyd edək ki, rayonda pambıqçılıqla əsasən "MTK İstehsal Kommersiya", "Azərpambıq" və Goran-Cotton" MMC-lər məşğul olurlar. Bu şirkətlər cari ilin məhsulu üçün 1539,8 hektarda pambıq əkdirmişlər. Pambıqçılığın inkişaf etdiyi əsas ərazilər Qızılhacılı qəsəbəsi, Səfikürd, Xan Qərvənd, Boluslu, Borsunlu, Quşçular, Hazırəhmədli və Fəxralı kəndləridir. Hazırda tarlalarda yığım davam edir. Noyabrın ortalarına olan məlumata görə, rayon üzrə 3700 ton pambıq təhvil verilmişdir.

Goranboyda həmçinin kartof, dən üçün qarğıdalı, meyvə, üzüm, şəkər çuğunduru, günəbaxan və digər kənd təsərrüfatı bitkiləri də yetişdirilir. Məsələn, cari il 44,23 hektarda şəkər çuğunduru, 1970 hektarda günəbaxan, 417,3 hektarda dənlik qarğıdalı yetişdirilmişdir. Hazırda yetişdirilən məhsulların son yığım dövrüdür. Hamı çalışır ki, min bir zəhmətlə yetişdirilmiş məhsullar yerdə qalmasın. Bu məqsədlə sübh tezdən əkin sahələrinə çıxan istehsalçılar yorulmaq bilmədən çalışır, 2023-cü ili də yüksək göstəricilərlə yola salmaq üçün əllərindən gələni əsirgəmirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Quba qış qonaqlarını qarşılamağa hazırlaşır



**Ölkəmizdə turizmin inkişafı üçün hər cür imkan və şərait olsa da, uzun müddət bu sahə o qədər də inkişaf etməmişdi. Sovet dönəmində turizm məkanlarımızın adlarını, necə deyərlər, barmaqla saymaq olardı.Turizm deyəndə Nabran, Naftalan, Qalaaltı və bir neçə başqası yada düşərdi.**

Müstəqilliyimiz bərpa olunduqdan sonra sahə qarşısında geniş perspektivlər açıldı. Bu gün ölkəmizdə sürətlə inkişaf edən sahələrdən biri də məhz turizmdir. İstər paytaxtda, istərsə də regionlarda turizm infrastrukturunun müasir standartlara uyğun qurulması bu sahə ilə məşğul olan təşkilatların qarşısında dayanan əsas vəzifələrdəndir. Turizmin daha sürətli inkişafı üçün həyata keçirilən dövlət siyasəti artıq öz bəhrəsini verir. Dünyanın hər yerindən ölkəmizin seyrinə gələn insanların sayı ildən-ilə artır.

Azərbaycanın turizm üçün əlverişli olan coğrafi məkanlarından biri də Qubadır. Bakıdan 150 kilometrlik məsafədə, Rusiya ilə sərhədin bir addımlığında yerləşən, özünəməxsus flora və faunaya, əsrarəngiz təbiətə malik olan Quba buraya gələn hər kəsi valeh edir. Həm də maraqlıdır ki, turistləri getdikcə daha çox dağ kəndləri özünə çəkir. Xalça üzərində yaşamağa adət etmiş insanlar üçün çadırlarda qalmaq bir növ adrenalindir. Dağlar, meşələr, bulaqlar, qədim qalalar turizm marşrutlarını zənginləşdirərək təbiətin qonaqlarına əsl zövq-səfa verir. Bu rəngarənglik çox vaxt turistləri marşrutlarını dəyişərək səfərlərinin vaxtını uzatmağa sövq edir. Bu baxımdan Qubanın qədim tarix-mədəniyyət abidələri, sənətkarlıq nümunələri də mühüm əhəmiyyət daşıyır. Tarixi uzaq əsrlərə gedib çıxan yaşayış məskənləri, tikililər buraya yolu düşənləri sözün əsl mənasında ovsunlayır. Xalçaçılıq, misgərlik sənətinin davam etdirildiyi emalatxanalar, sexlər də rayona səyahətə gələnlərin həvəslə baş çəkdikləri ünvanlardır.

Qubada dağ, kənd və çadır turizmi geniş yer alıb. Bu, turistlərin əsasən isti yay aylarında müraciət etdikləri növdür. Payız və qış aylarında isə onlar şəhərdə istirahət etməyə üstünlük verirlər. Qarlı və keçilməz yollarla səyahət etmək istəyənlər də olur. Lakin turizm şəbəkələri təhlükəli qar fırtınası ilə üzbəüz gəlmək istəyənlərə ehtiyatlı olmağı məsləhət görür. Çünki son illər qarlı dolaylarda həyatını itirən və zədə alan insanların aqibəti hamıya bəllidir. Ehtiyatı əldən verməyən turistlərin isə səyahəti həmişə xoş keçir. Elə bu günlərin özündə Şahdağın ətəklərində və Qudyalçayın sahilində istirahət edənlərin sayı az deyil.

Artıq payızın son ayını yaşayırıq. Quba və Qusar rayonlarına isə qar yağması gecikmədi. Noyabrın ortalarında Qubaya yağan qar buraya turist axınına səbəb oldu. 10-15 gün ərzində ölkənin müxtəlif yerlərindən gələn qonaqlar qarın ətrini duyub ləzzətini yaşadılar.

Bir neçə kəlmə də problemlər barədə. Qonaqkənd istiqamətində yolların təmiri bu ərazilərə turist artımı ilə müşahidə olunur. Səfalı Möhüc, Tülər, Gültəpə, Yenikənd kimi dağ kəndləri də yeni turist marşrutları ola bilər. Lakin rayon mərkəzindən bu istiqamətdəki yollar, eləcə də kəndarası yollar təmirsizdir. Bu isə turistlərin həmin istiqamətlərə hərəkətini sıfıra endirir. Halbuki həmin ərazilərin özəlliyi ilə fəqlənən ətraf mühiti, cəlbedici dağ mənzərələri var. Yeri gəlmişkən, qeyd edək ki, rayon rəhbərliyi turizmin inkişafına təkan verəcək işlərin görülməsi istiqamətində vacib qərarlar qəbul edib. Eşitdiyimizə görə, yeni ildən mövcud problemlərin bir çoxu öz həllini tapacaq.

Son illərədək istirahət mərkəzlərində çalışanlar arasında mütəxəssislər azlıq təşkil edirdi. Bu da turistlərin qəbulunda, onlara göstərilən xidmətin səviyyəsində özünü göstərirdi. Narazı qalan turist bəzən bir istirahət yerindəki çatışmazlığa görə bütünlükdə ərazini dəyişirdi. Artıq bu problem də aradan qaldırılıb. Rayonda bu sahədə çalışanlar vaxtaşırı xüsusi kurslarda iştirak edir, təcrübələrini artırırlar. Çünki bu gün istirahət mərkəzlərinin təkcə görkəmi deyil, xidmətləri də müasir qaydalara cavab verməlidir.

Məlumdur ki, indi ölkəmiz bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir. Bakıda keçirilən tədbirlərin iştirakçıları çox vaxt qısa müddətə olsa belə Qubaya da baş çəkmək istəyirlər. Böyük idman yarışlarının, beynəlxalq forumların iştirakçıları, rəsmi qonaqlar burada istirahət etməklə yanaşı, rayonun dünənini və bugününü özündə yaşadan Tarix Diyarşünaslıq və Xalça muzeylərində olur, Quba Memorial Soyqırımı Kompleksini ziyarət edirlər.

"Qış isti qəlblərin fəslidir" deyiblər. Ötən ilin qışı demək olar ki, qısa ömürlü oldu. Bu il isə havaların erkən soyuması, dağlara qarın yağması qarşıdakı qışın əsl qış olacağından xəbər verir. Bu o deməkdir ki, yeni ili Qubada qarşılamağa qərar verənlərin sayı az olmayacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 yanvar (Bazar günü) tarixli 97-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Yekşənbə, 23 rəbiülaxir sənə 1337.
26 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əlisahib Ələkbərov öz sevgili qardaşı **Əlimuxtar Ələkbərovun** uzun müddət naxoş yatdıqdan sonra vaxtsız vəfat etdiyini kamali-təhəssür [böyük bir kədər] və hüznlə öz qövm-əqrəbalarına və dost-aşnalarına xəbər verir. Təşyeyi-cənazə [cənazənin yola salınması] bu gün yekşənbə [bazar] günü yanvar ayının 26-sında səhər saat 10-un yarısında öz xüsusi evlərindən (Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə 22-70 nömrəli ev) qaldırılıb Təzəpirə gətiriləcək.

*2659*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağahüseyn Ələkbərov və Ələddin Mustafayev birincinin əmisi oğlu, ikincinin yoldaşı **Əlimuxtar Ələkbərovun** vaxtsız vəfat etdiyini öz qövm-əqrəbalarına və dostaşnalarına kamali-hüzn və təhəssürlə xəbər verirlər. Təşyeyi-cənazə yekşənbə günü yanvar ayının 26-sında səhər saat 10-un yarısında öz evlərindən (Verxni-Təzəpir və Gimnaziçeski küçələrin küncündə 22-70 nömrəli ev) qaldırılıb Təzəpir məscidinə gətiriləcək.

*2660*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məsai (Zəhmət) nazirinin icbari qərardadı**

Bakı rayonunda Fabrika Müfəttişliyinin qanunu şamil olan mədən sahiblərinə təklif edirəm ki, bu qərardad elan edilən gündən bir həftə müddətinə qədər öz mədənlərinin idarəsini tapşırdıqları zaman şəxslərin siyahısını və o şəxslərin mədənlər haqqındakı qanun qərardadının (1913-cü ildə nəşr edilmiş Rusiya qanunlarının 11-ci cildi, 2-nci maddəsi) və müəssisələrdə təhlükəsiz işi aparmaq üçün icbari qərardad qanunlara əməl etməkdən ötrü verdikləri məsuliyyət iltizamnamələrini Bakı quberniyasının fabrika baş müdirinə təqdim etməlidirlər. Gələcəkdə mədən sahibləri, mədən müdirləri haqqında verilən icbari qərardadların dürüst ifa edilməsinə nəzarət etməyə (mədənlər haqqında verilən qanunların 90-92 maddələri) və bundan əlavə, bu tarixdən bir ay müddətinə qədər fabrika, zavod müəssisələri haqqındakı qanun və tələbata müvafiq öz mədənlərini qaydaya salmağa məcbur edilirlər. Bakı quberniyasının fabrika müdirinə təklif edirəm ki, göstərilən müddətlər bitdiyi zaman həmin qərardada əməl etməməkdə müqəssir olanları qanuni surətdə məsuliyyətə cəlb etsin.

*Məsai naziri A. Səfikürdski*
*Bakı quberniyasının fabrika baş müdiri vəzifəsini ifa edən V. Kultepin*
*Bakı, 21 yanvar 1919*

## TELEQRAF XƏBƏRLƏRİ

**Sülh Konfransı Rusiya haqqında**

Sülh Konfransının yanvarın 16-da vaqe olan iclasında Rusiya əhvalı müzakirə edilib, saziş hüsula gəlmişdir. Bu saziş üzrə Rusiya məsələsinin ümumiyyətlə müzakirə edilməsi üçün hökumətlər Rusiya haqqında əllərində olan məlumatdan bir-birlərini xəbərdar etməlidirlər.

**Beynəlmiləl Sosialistlər Konfransı**

Berndən xəbər verirlər ki, İsveçrə sosialistlərinin razılığına görə, Beynəlmiləl Sosialist Konqresi yanvarın 27-də Berndə təyin edilmişdir. Eyni zamanda, Beynəlmiləl Sendikaçılar Konqresi iclası açılacaqdır.

**Axalkələk dairəsində**

Axalkələkdən Tiflisə verilən xəbərlərə görə, bu axır həftə müddətində sərhəd yaxınlığında qarışıqlıq müşahidə edilir. Bir neçə gün bundan irəli Potsxov rayonunda müsəlləh [silahlı] bir dəstə sərhəd qaraqolxanamıza hücum edib, altı nəfər saldatı əsir etmişdir. Müsəlləh dəstə arasında əsgərlər olduğu haqqında məlumat vardır. Bu əhvalatdan sonra Axalkələk uyezdi sərhədində olan müsəlman kəndlərində də qarışıqlıq başlanmışdır. Müsəlləh dəstənin hücum etdiyi yerə Axalkələkdən müsəlləh qüvvə göndərilmişdir. Bizim qüvvəmiz ətraf dağlardan atəşə tutulub Mareli kəndinə çəkilməyə məcbur olmuşdur. Burada bizim əsgərlərimiz mühasirə edilib, atəşə tutulmuşdur. Əsgərlərimiz müsəlləh dəstəni yarıb geri çəkilməyə müvəffəq olmuşlardır.

**Soçi əhvalı**

Soçidən teleqrafla xəbər verirlər ki, burada sağ ünsürlər Rus Milli Şurası təşkil etməkdədirlər. Demokratlar bu işdə iştirak etməyirlər. Soçi nahiyəsinin Könüllü ordu tərəfindən zəbt edilən hissəsindən kəndlilər gürcü hökuməti ilə İngiltərə heyəti namına [adına] məktublar yazıb, əhalini Könüllü ordu əsgərlərinin təcavüzatından mühafizə etməyi xahiş edirlər. Soçi Fəhlələr İttifaqı hamı milli şuraların qapanması tərəfdarıdır.

**Ukrayna hökumətinin bolşeviklərə ultimatumu**

Yanvarın 21-də Potidən teleqrafla xəbər verirlər ki, Ukrayna Direktoriyası, Şura hökumətinə bir nota verib, 48 saat müddətində bu aşağıda yazılan suallara cavab verilməsini ultimatumvari tələb etmişdir:

1) Rusiya Şura hökuməti, Ukrayna hökuməti əleyhinə olan hərəkati-hərbiyyənin tezliklə dayandırılmasına razıdırmı?

2) Hərgah razı isə tezliklə öz əsgərlərini Ukrayna dairəsindən çıxarmalıdır. Ukrayna hökuməti, Şura hökuməti nümayəndələri ilə sülh müzakiratı açılmasına və Rusiya ilə mal dəyişməyə başlanmasına hazırdır.

Hərgah bu suallara təyin edilən müddətdə cavab verilməsə, Ukrayna hökuməti bu işi rəsmi surətdə müharibə elanı ədd [hesab] edəcəkdir.

**Təzə müharibələr**

Litva qəzetələri yazırlar ki, Ukrayna sərhədini keçib və Lvov şəhərinə gələnlərin rəvayətinə görə, Ternopol oblastında [vilayətində] Ukrayna sərhədini keçən qüvvətli polyak dəstələri ilə külli miqdarda cəm olmuş ukraynalılar arasında təzə və qızğın müharibə başlanmışdır.

**Gürcü heyəti-mürəxxəsəsi**

Gürcüstan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Londondan çıxıb Parisə əzimət etmişdir [yola düşmüşdür].

## QƏZETƏLƏRDƏN

**Ukraynada Azərbaycan Komissarlığı**

Ukraynada yaşayan Azərbaycan və Dağıstan vətəndaşlarının mənafeyini rəsmi surətdə mühafizə etməkdən ötrü Kiyevdə Azərbaycan Komissarlığı təşkil edilmişdir. Komissarlıq rəisi Cəlil Sadiqov, müavini doktor Yusif Salehov, katib Mircəlal Mirtağıyevdir. Məzkur [adı çəkilən] Komissarlıq, Azərbaycan Cümhuriyyətinin rəsmi nümayəndəliyi sifətilə Ukrayna hökuməti tərəfindən təsdiq edilmişdir. (Bu Komissarlıq hələ Azərbaycan istiqlalı elan edilmədən "Müsavat"ın Kiyev şöbəsi sifətilə keçən ildən bəri azərbaycanlıları müdafiə edirdi.)

**İngiltərə Baş komandanının Əhməd İzzət paşaya teleqrafı**

Mondrosda [Mudrosda] olan İngiltərə qoşunlarının Baş komandanı, İstanbul bəhriyyə [donanma] zabiti Ceylton vasitəsilə Əhməd İzzət paşaya bu məzmunda bir teleqraf göndərmişdir:

*"Hökumətimin mənə verdiyi vəkalətə görə Türkiyə hökumətinə xəbər verirəm ki, mütarikə şəraitinin [atəşkəs şərtlərinin] 16-cı maddəsinə əməl olunduqda İngiltərə hökuməti mümkün qədər Türkiyənin şərəf və heysiyyətini gözləməklə bərabər, indiki ağır vəziyyətdən xilas olmasına səy edəcəkdir. Ümidvaram ki, Türkiyə hökuməti İngiltərənin səmimanə hərəkatına şübhə etməz."*

"Minbər" qəzetəsi bu teleqrafı dərc və mütarikə şəraitinin 16-cı maddəsini böylə şərh edir:

*"Hicaz, Yəmən, Suriya və İraqda olan türk əsgərləri tezliklə oradakı Müttəfiq komandanlığına tabe olmalıdırlar. Kadı-köydə olan əsgərlərə gəldikdə, mütarikə şəraitinin 5-ci maddəsinə görə asayiş mühafizəsinə lazım əsgərlərdən başqa qalanları geri getməlidir."*

* Smolensk - Yanvarın 14-də Ukrayna şura qoşunları tərəfindən Çerniqov işğal edilmişdir.

**Gürcüstan Hərbi vəzirinə [Müdafiə nazirinə] sui-qəsd**

"Ertoba" qəzetəsinin xəbər qismində böylə xəbər dərc edilmişdir:

Telavidən mahal komissarından bu məzmunda teleqraf alınmışdır:

"Yanvarın 16-da axşam saat 9-da Gürcüstan Hərbiyyə vəziri Giorqadzeni mövqifə [stansiyaya] müşaiyət edərkən, Maxaradze nam [adlı] bir gürcünün əlində patlanğıç bomba kəşf eylədim. Bu barədə istintaq davam edir."

**Tiflis-London**

Bu yaxın zamanlarda Tiflis ilə London arasında simsiz teleqraf müxabirəsi [əlaqəsi] başlanacaqdır.

**Erməni qoşunlarının tərxisi**

Erməni qəzetələrinin məlumatına nəzərən, Ermənistanda xüsusi surətdə erməni qoşunları silah altından çıxarılır, amma eyni zamanda 43 yaşınadək olan ermənilərin həpsinin siyahısı tutulur və ermənilərə bəyan edilir ki, hər kəs siyahıya yazılmasa, tənbehə düçar olacaqdır.

**Gürcüstanda general Milnin istiqbalı [qarşılanması]**

İngiltərənin Şərq cəbhəsindəki Baş komandanı general Miln, Gürcüstan Baş vəzirini [nazirini] ziyarət eyləmişdir. Gürcüstan Baş vəziri ilə Milnin görüşməsi sədrin kabinəsində vaqe olmuşdur. Gürcüstan Baş vəziri general Milnə bu məzmunda bir nitq irad etmişdir [söyləmişdir]:

*"Gürcüstan hökuməti namından, möhtərəm general, sizi təbrik edib deyirəm: Xoş gəlmişsiniz! Gürcüstan hökuməti bu etiqaddadır ki, siz Gürcüstanla olan əlaqənizi şayiata [şayiələrə] deyil, həqiqətə müstənidən [istinad edərək] təşxis edirsiniz [müəyyənləşdirirsiniz]. Bunun üçün ən başlıca sübut odur ki, böyük inqilab zamanında böyük gürcü milləti özünü böyük hərc-mərclikdən xilas eylədi. Biz gürcü milləti İngiltərənin Qafqaziyada olan Baş komandanı general Forester-Volkerdən son dərəcə məmnunuq. Çünki bu general birinci zatdır ki, Gürcüstan halına bələd olub, özümüz də İngiltərənin bizimlə olan əlaqəsini düşünə bilmişik. Hər iki millətin bu cür yekdigərini [bir-birini] düşünməsi bizi ümidvar edir ki, gələcəkdə bu millətlər yekdigəri ilə dostanə əlaqədə bulunacaqdırlar. Biz təkrar, möhtərəm general, sizə ərz ediriz ki, xoş gəlmişsiniz!"*

Jordaniyanın nitqinə müqabil, general Miln böylə cavab vermişdir:

*"Biz buraya sizin böyük dostunuz və müttəfiqiniz sifəti ilə gəldik. Bizim vəkilimiz general Orter hər bir iqdamatında [addımında] böyük etibara malikdir. Ümidvaram ki o, İngiltərənin sizin vətəninizdə bulunmaqdan nə məqsəddə olduğunu sizə andırar. Sizin və bizim düşmənimiz birdir. Onlar almanlar və bolşeviklərdən ibarətdir. Bu iki qüvvənin hər ikisi qanuna və nizama ziddir. Mən təkrar edirəm, biz dost sifətilə buraya gəlmişik. Bizim başqa bəhanəmiz yoxdur. Mən bunu da əlavə edirəm ki, biz qüvvəmiz gələn müavinəti [gücümüz çatan köməkliyi] edəcəyiz amma siz bu barədə öz müavinətinizi əsirgəməməlisiniz. Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə almanlar Qafqaziyadan çıxmalıdırlar. Nə qədər onlar tez getsələr, bir o qədər İngiltərənin sizə meyil və məhəbbəti artıq olacaqdır. Bir dəfə də Müttəfiqlər namından sizi, yəni Gürcüstan nümayəndəsi olmaq sifətilə zati-alilərinizi təbrik edirəm."*

Gürcüstanın Xariciyyə vəziri Ərdəhan mahalı barəsində general Milnə vüsətli [geniş] məlumat vermişdir. Xariciyyə vəziri bəyan eyləmişdir ki, Ərdəhan mahalından Gürcüstan torpağına türk əsakiri [əsgərləri] hücum edirlər. Bunların başında general Xəlil bəy durur.

Bu sözlərə cavab olaraq general Miln demişdir ki, Türkiyə tərəfindən edilən təcavüzlərə yol verilə bilməz. Gürcüstan sərhədini mühafizə etmək üçün ən ciddi tədbirlər ittixaz ediləcəkdir [tədbirlər görüləcəkdir].

**İngiltərə müstəmləkələri və Cəmiyyəti-Əqvam**

Sülh Konfransında İngiltərənin muxtariyyətli müstəmləkələri Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] zümrəsinə daxil olaraq, bunlar müstəqil millətlər hüququna malik olacaqdırlar. İngiltərə hökuməti isə onların beynəlmiləl hüququnu təftiş edə biləcəkdirlər.

**İspaniyada**

İspaniyada gəldikcə hərəkat artmaqdadır. İspaniyada yaşayan ruslar şiddətli nəzarət altına alınmışlardır.

* "Tayms" qəzetəsinə xəbər verilir ki, sülhi-ümumi əqd edilənədək [imzalananadək] hər halda bir milyon ingilis əsgərləri silah altında olmalıdır.

* Sülh Konqresində Rusiya məsələsi müzakirə edilərkən, Ali Şura bu məsələdə Müttəfiqlər arasında etilaf [uzlaşma] [əmələ] gəlməsinə çox çalışmışdır.

## ŞURAYİ-VÜKƏLADA
## [NAZİRLƏR KABİNETİNDƏ]

**22 yanvar 1919 sənə**

Rəisi-vükəla [Baş nazir] həzrətləri Dağıstanlılar Cümhuriyyəti Hökumətinə 10 milyon rublə istiqraz vermək və Zaqafqaziya bonları buraxılmasında iştirak etməyə riza vermək barəsində məruzə oxuduqdan sonra qət edilmişdir:

Əsas etibarı ilə Dağıstanlılar Cümhuriyyəti Hökumətinə 10 milyon borc verməyi qəbul etmək, fəqət Maliyyə Nəzarətinə tapşırılsın ki, Türüq və Məabir [Rabitə və Nəqliyyat] Nəzarəti, Ticarət və Sənaye Nəzarəti nümayəndələri və Dövlət Müfəttişliyi nümayəndəsi ilə bərabər istiqraz vermək şəraiti tərtibi və hökumətə təqdimi barəsində iqdamatda bulunsunlar [addımlar atsınlar]. Müqavilənamə əqd edilənədək Dağıstanlılar Cümhuriyyəti hökumətinə 2 milyon pul verilsin. İşbu para barəsində Parlamanın Senoren Konventinə [Ağsaqqallar Şurasına] məlumat vermək. Sonra veriləcək para barəsində iki dövlət Parlamanları və hökumətləri tərəfindən müqavilənamə əqd ediləcəkdir.

Dağıstanlılar Cümhuriyyəti Hökumətin[in] Zaqafqaziya bonlarında iştirak etmək təşəbbüsatını rədd etmək.

**22 yanvar 1919 sənə**

Daxiliyyə naziri həzrətləri Bakı Bələdiyyə İdarəsinə 4 milyon borc vermək haqqında məruzə pişnihad [təqdim] etdikdən sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətləri tərəfindən Bakı Bələdiyyə İdarəsinə 4 milyon borc pul vermək haqqında pişnihad edilən məruzəni təsvib etmək [bəyənmək] və işbu qanun layihəsini Parlamana idxal etmək, o vaxtadək Parlaman Senoren Konventi etilafı [razılığı] ilə həman borc hesabına bir milyon rublə pul buraxmalı.

**22 yanvar 1919 sənə**

Daxiliyyə naziri həzrətlərinin 1918-ci sənəsinin traktor vergisi vaxtını 1919-cu sənəyədək uzatmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

1918-ci və 1919-cu sənələr traktor vergisi vaxtını işbu 1919-cu sənənin 15 fevralınadək uzatmalı.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Ticarət və Sənaye Nəzarətində**

Ticarət və Sənaye naziri həzrətləri əmri mövcibincə [əsasında] işbu kanuni-saninin [yanvarın] 25-dən etibarən müvəqqəti olaraq mal mübadiləsinə dair müqavilənamələr əqdi [imzalanması] dayandırılmışdır.

**Məsai Nəzarətində**

* Maliyyə Nəzarəti, Məsai [Əmək] Nəzarətinə müraciətən rica etmişdir ki, Maliyyə Nəzarətinin Maliyyə və büdcə şöbəsinə Nəzarət tərəfindən pişnihad [təqdim] edilən məlumat təcili surətdə göndərilsin.

* Məsai Nəzarəti, Maliyyə və büdcə şöbəsinə nümayəndə göndərmək haqqında Maliyyə Nəzarətinə xəbər vermişdir ki, Şurayi-Vükəlanın [Nazirlər Kabinetinin] 15 yanvar qətnaməsinə baxmayaraq, bu vaxtadək Nəzarət dəftərxanası təşkili üçün para buraxılmadığından, nümayəndə göndərə bilməyəcəkdir.

* Məsai Nəzarəti müvəqqəti olaraq Mirbabayevin mülkündə, Post və Teleqraf Nəzarətində yerləşdirilmişdir.

## SALMAN BƏY KİMDİR?

Keçən nömrəmizdə Salman bəy Əlibəyovun danosa bənzər "ərizə"sini dərc etmişdik. Bu ərizənin mahiyyətini anlamaq üçün əlbəttə ərizə sahibinin kim olduğunu tanımaq icab edir. Buna görədir ki, sərlövhə intixab etdiyimiz [seçdiyimiz] "Salman bəy kimdir?" sualına burada cavab vermək istəriz.

İlk dəfə mən mütəəssifanə [təəssüf ki], Salman bəylə tanış oldum Şuşa İcraiyyə Komitəsində. (Bu komitəni ermənilər, indi anlaşıldığı məqsədlə, Qarabağ Komitəsi təsmiyə etmişdilər [adlandırmışdılar]. Şuşalılar bu sözün mənasını indi anlasınlar gərək.)

Bir iclasda "Qarabağ" icra komitəsi əsas etibarı ilə 12 erməni və 12 müsəlmandan mütəşəkkil ikən, müəyyən bir kələklə ermənilər öylə etmişdilər ki, komitədə müsəlman nümayəndəsi 12, erməni nümayəndəsi 35 olmuşdu. Bu münasibətlə müsəlmanlar icra komitəsinə protesto ilə bərabər, nümayəndəlik miqdaratının bərabərləşdirilməsini tələb edirlərdi. Məzuniyyətə getmiş ikən, tələbələr nümayəndəsi olmaq üzrə həman iclasda mən dəxi var idim. Burada birinci dəfə olaraq Salman bəyi tanıdım.

O, dədə-babadan bəy, arvad tərəfi dəxi bəyzadələrdən olan əsl bir bəydir. Fəqət zəmanəmizin bəyləri ilə Salman bəyin fərqi budur ki, birincilər düz-doğru müəyyən məslək sahibi, müəyyən sinif tərəfdarı ikən, Salman bəy "ümmülvəqt" denilən bir adamdır ki, yel hangi tərəfdən əsərsə o tərəfə əyilər. Məsələn 1917-ci il ibtidaları [əvvəlləri], fevral inqilabının elam [elan] etdiyi hürriyyətləri Zaqafqaziyanın qaranlıq guşələrinə təbşir edərkən [müjdələyərkən], Salman bəyi heç kəs, hətta yaxın dost və qövmləri [qohumları] tanımazdılar. Zira simayi-həqiqiyyəsini [əsl simasını] göstərməyə qorxurdu.

1917 sənəsinin yay fəsli gəldi. Artıq Salman bəy kimiləri Rusiya inqilabının möhkəmləşdiyini hiss etdilər. Bu və onun kimiləri mütləq "sosialist" kəsildilər. Salman bəy də bu cərəyana tabe olaraq sosialist çıxdı. Bu vaxtdan etibarən Salman bəy fəaliyyətə başladı. Birinci müvəffəqiyyətli qədəmi bundan ibarət oldu ki, Gövhər Ağanın "Yuxarı" məscidində (Şuşada), Mir Həsən Vəzirov kompaniyasında birər nitq söyləyərək, bir qədər bəylərdən, xanlardan, burjuylardan, möhtəkirlərdən bəhs etdi və həman gündən etibarən xalq içində təbliğata başladı. Nəticəsi də bu oldu ki, ertəsi gün şəhərin bazarında baqqallardan ibarət olan burjuylara qarşı bir para nagüvara [xoşagəlməz] işlər əmələ gəldi. Bu zəminə üzərinə Şuşada böyük müşkülat törənəcəyi gözlənirdi, fəqət bəzi şəxslərin əks təbliğat və fəaliyyəti iğtişaşın önünü aldı.

Salman bəy fəaliyyətinin ikinci dövrü Cavanşir qəzasında oldu. Ol vəqt bütün Şuşa uyezdində seçki icra edilirdi. Salman bəy mühüm bir məsələnin həllində iştirak etmək üçün Cavanşir uyezdindən Levon Atabekyanın seçilməsinə çalışdı və müvəffəq oldu. Çünki, müəyyən firqədən bunun üçün məvacib alan tutma agent idi.

Daha sonra oktyabr axırlarında bolşeviklər Petroqrad hökumətini əllərinə alaraq Şaumyanı Qafqaziya canişini elan etdikdə, meydan daha da genişləndi. Bu dəfə tavariş Şaumyan Salman bəyin binagüzarlığına [sərəncamına] türk dilində nəşr edilmiş olan "Müsəlman kəndli yoldaşlara" xitab edən intibahnamələrdən [vərəqələrdən] bir neçə yüz min göndərdi. Şübhəsiz ki, neçə dəstə intibahnamə ilə bərabər qospodin yepiskop Vağan ilə "sülhpərvər" Məlik-Şahnazarov vasitəsilə bir dəstə də Nikolay yüzlüyü göndərdi. Salman bəy yüzlükləri cibinə qoyub, intibahnamələri avtomobilə yığıb, Şuşa uyezdinin Üçüncü uçastokuna getdi.

---

Ağdamın 20-30 verstliyində, Azərbaycana hətta bütün Rusiya və bir çox sair məmləkətlərə deyil, Amerikanın Nyu-York, Vaşinqton həvalisində [tərəflərində] olmağa layiq bir yer var. Bu kəndin özünə məxsus post-teleqraf kantoru, biri Ağdama, digəri Şıx Qərbənd mövqifinə [stansiyasına] olmaq üzrə iki şose yolu, xəstəxanası, böyük məktəbi, pambıq və sairə zavodu, ziraətə məxsus fənnin son ixtiraatından olunan makina və sair ləvazimatı, elektrik işığı və mühərrikləri vardı. Bu kəndin adına "Hindarxı" deyərlərdi. Salman bəy Şaumyanın müraciətnamələrini götürüb həman bu kəndə və onun həvalisinə gəlmişdi.

---

Bir aydan sonra məzkur [adı keçən] məmur [abadan] və abad kənddən ancaq bir xarabazar qalmışdı.

Sarıcalıda bəyləri kənddən qovub on minlərcə put taxıl və pambıqları qarət edilmişdi. Mirzəhaqverdi kəndindən Əfşara (bu iki kəndin arası 5 verstdən artıq deyil) getmək qorxusuz deyildi. Qətl və qarət hər qədəmdə hökmfərma idi [hökm sürürdü]. Çünki hər kəsin libası təzə və nəğd pulu 100 manatdan artıq olsa, o adam "burjuy" idi. Bu da həman Salman bəy Əlibəyovun bir aylıq fəaliyyəti nəticəsi idi. Bir aydan sonra o ətrafda quldurdan və qaçaqdan başqa "tovariş" qalmamışdı.

---

1918 sənəsi yay fəsli gəldi. Azərbaycan müstəqillən elan edilərək Azərbaycan Hökuməti təşkil olundu. Hələ Azərbaycan Hökumətinin əmri hər yerdə cari deyildi. Lakin xalq yavaş-yavaş xeyir və şərini qanmağa, dostu ilə düşmənini tanımağa başlayırdı. O zamanlar idi ki, hələ bütün Qarabağ təhlükə altında və Şuşa şəhəri düşmən əlində ikən, camaatın tələbi ilə Salman bəy Əlibəyov asayişi-ümumiyyə [ictimai asayiş] düşməni sifətilə həbs edilmişdi. O vaxtdan bəri Salman bəy Şuşa həbsxanasında yatırdı.

Bir neçə ay keçdi. Qarabağın qara günləri, əsəfnak [təəssüflü] saatları idi. Şəhərdə aclıq, susuzluq; az qalmışdı dövlətli-kasıb qırğını düşsün. Digər tərəfdən, erməni quldurlarından Məlik-Sahnazaryan neçə min nəfərlik çete dəstəsilə şəhərin 14 verstliyində olub, bilavasitə şəhəri təhdid altında bulundururdu. Camaat gecə-gündüz qaraqol çəkirdi.

Bu əsnada zilhiccətülharamın 10-da, Qurban bayramı günü, bir gün əvvəl qəhrəman Azərbaycan ordusu tərəfindən paytaxtımızın düşməndən alınması xəbəri gəldi. Şuşa şəhəri, Şuşa əhalisi tarixdə görmədiyi bir təntənə və dəb-dəbə ilə üç gün üç gecə bayram elan etdi. Daha bu bayramın vəsfi qeyri-qabildir.

Ancaq bunu ərz edəlim ki, Azərbaycan-türk millətinin tarixi milli bayramı münasibətilə safdil [sadəlövh] camaat siyasi məhbus olan Salman bəy Əlibəyovun həbsdən azad edilməsini istədi. Hökuməti-məhəlliyyə [yerli hökumət] dəxi bu rəydə olaraq Salman bəyi həbsxanadan azad etdi. Bu şərtlə ki, aralıq sakit olanadək siyasi və ictimai işlərdə iştirak etməsin. Sonra Azərbaycan Hökuməti möhkəmləşərək məmləkət daxilində hərc-mərcə və iğtişaşa yer verməməyə əzm etdikdə və Şuşaya əsgər gəldikdə, Salman bəy asayişi-ümuma müzirr [ümumi asayişə zərərli] bir şəxs olmaq üzrə dübarə həbs edilmişdi.

Nəhayət, bir gün, ermənilər bir cinayət münasibətilə, bəhanə ilə Salman bəyi şahid göstərirlər. Müstəntiq, Salman bəyi təhtəlhifz [mühafizə altında] Ermənistana apartdırır. Bu əsnada ermənilər mühafizə əsgərlərinə hücum edərək Salman bəyi onların əlindən alırlar.

Salman bəy həbsdən xilas edildikdən sonra gedib Şuşanın Ermənistan hissəsində (orada iki hissə var: biri sırf ermənilərlə məskun Birinci uçastok, digər[i] sırf müsəlmanlarla məskun İkinci uçastok) sükunət etməyə [yaşamağa] başlamış və erməni təşkilatı həman Salman bəyin nəfinə [xeyrinə] bir qədər ianə toplamışdır. İştə bu ianədən məst olaraq dünkü bolşevik Salman bəy bu gün Daşnak firqəsinin agenti və monarxistlərin, ümum Azərbaycan istiqlaliyyəti düşmənlərinin sağ əli olmaq üzrə "Ərizə" sərlövhəsi ilə bir danos yazaraq Azərbaycanın istiqlaliyyəti bünövrəsini Hindarxı məmurələri kimi xarabazara döndərmək qəsdilə qazır və müstəqil Azərbaycanın cüzilayənfəki [ayrılmaz hissəsi] olan Qarabağı işğal etmək üçün Daşnak firqəsinin təhriki ilə əl altından işlər görür.

Dün özünə namuslu bolşevik deyən Salman bəy bu gün daşnakların ianəsinə aldanaraq, bütün Qarabağ mahalını özgələr əlinə vermək istəyir və danosbazlığa başlayır.

Əgər Salman bəydə bir zərrə qədər millət namusu qalmışsa, xəbər versin görək Cavanşir və Şuşa uyezdlərinin hangi 30 kəndinin vəkilidir? Bu kəndlərin adlarını yazsın, o vaxt kənd camaatı onun gözünə tüpürərək deyərlər: Yalan deyirsən, kompanyonun [şərikin] olan daşnaklar qədər həyasızcasına yalan deyirsən. Biz səni vəkil etmədik. Biz türklük, islamlıq və azərbaycanlılıq namusunu daşnak ianəsinə satan alçaqlardan deyiliz!

Qoy bildirki bolşevik, bu ilki daşnak qabı yalayan Salman bəy bilsin, qarabağlı başını, canını verər amma namusuna toxunmağa izn verməz. Qarabağlı ölər, amma düşmənə baş əyməz. Ələlxüsus dünya cifəsindən [leşindən] ötrü düşmənə namusunu satmaz.

Son ilin təcrübəsi bunu gözəl isbat etdi. Əgər Salman bəy həman vəkili olduğunu iddia etdiyi 30 kəndin adını yazmazsa bilsin ki, bütün Cavanşir və Şuşa qəzalarının kəndlərini bir-bir soraraq Salman bəy hangi kənd tərəfindən vəkil edildiyini öyrənəriz. Əgər böylə kənd yoxsa, onda Şuşa və Cavanşir qəzalarının düşmən əlinə keçən 30 kəndi camaatına Salman bəy cavab verməli olacaqdır.

*Qarabağlı Xəlil*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 26 yanvar (Bazar günü) tarixli 97-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## FELYETON

### Nəşriyyatımızın əsbabi-tərəqqi və tədənnisi [tərəqqi və tənəzzül səbəbləri]

-1-

Azərbaycanımızda mətbuat, bilxassə kitab nəşriyyatı pək çox zəif və pərişandır. Bu zəif və pərişanlıqdan dolayı oxucularca istifadə və istifazəsi [feyz alınması, bəhrələnilməsi] kafi dərəcədə olmadığı kimi, nəşriyyatı müəyyən bir şəklə qoymaq, ülum [elmlər] və maarifin intişarına [yayılmasına] xidmət edəcək idarələr vücuda gətirmək, müəssisələr təşkil etmək dəxi müşküldür. Zira mətbuat və nəşriyyatımız, ələləksər [çox vaxt] zəif və davamsız əllərə füqərayi-kasibə tərəfindən nəşr olunmuşdur. Əhalinin avam və savadsızları çox olduğundan, o qədər alıcı olmamış, kitab və mətbuat nəşrinə iqdam [təşəbbüs] edən həvəskar yoxsul isə bir ayın zərfində elani-iflas etməyə məcbur olmuşdur. Arabir zənginlərdən mətbuat, qəzetə, məcmuə nəşrinə rəğbət göstərən olmuşsa da, o dəxi ticarət nöqteyi-nəzərindən irəli gəlmişdir. Beş para xəsarəti [ziyanı] görüncə, iqdam etdiyi işindən əl çəkmişdir. Millət və milliyyəti, ülum, ədəbiyyatı yalnız beş paraya fəda etmişlər, istiğnakaranə bir ətvarla [etinasız bir tövrlə] mətbuat və ülum-maarif intişarı [elm və maarifin yayılması] meydanından guşeyi-istirahətə çəkilmişlərdir. Bunların meydandan çəkilmələri, mətbuat və nəşriyyatı pərişan bir surətdə buraxmaları, acizlik və xəsarət qorxusundan deyildir. Zənni-acizanəmcə ülum və maarif ərbabı olmadıqlarıdır. Əgər nəşriyyat idarəsi başında ərbabi-elm və zəka olsaydı, ayda yüz minlərlə para qazanan zənginlər ildə min manat xəsarətdən qorxmaz və mətbuatı çoluq-çocuq əllərinə buraxmaz, dedi-qodudan mütəəssir olmaz, bir sifətlə meydandan çəkilməzlərdi. Millətdə milli və elmi intibah törədəcək müəssisati-elmiyyə [elmi müəssisələr] təsis və nəşri-maarif idarələri təşkil edərlərdi.

Qonşularımız daima can və mal qoymaqla dillərinin, elmlərinin islah və ikmal [təkmilləşməsi] və intişarına [yayılmasına] var qüvvələri ilə çalışdılar, müvəffəq də oldular. Ədiblər, feylesoflar, həkimlər, şairlər, mühərrirlər və sənətkarlar yetişdirdilər. Xaricdən və daxildən edilən mütəəssibanə hücumlara sinəsipər oldular. Zamanın icab etdiyi qüvvətlə müdafiəyə qalxışdılar. Ehrazi-zəfər dəxi eylədilər [zəfər də qazandılar], bizim kimi məğlub və mənkub [bədbəxt, zəlil] olaraq ayaqlar altında qalmadılar.

- Neyçün?
- İş başında milli duyğu, milli hiss, milli düşüncə ilə müsəlləh [silahlanmış] ağıl və zəka ərbabı oturdu.

Nəşriyyat işində yalnız zəngin olmaq kifayət etməz. Ülum və maarif sahibi olmaqla bərabər, nüfuzlu olmaq dəxi lazımdır. Nüfuz olmaz isə əlverişli əsərləri təb [çap] və nəşr etmək olmaz. Lazımınca əhali arasına paylamaz, əsərlər xəlqə [xalq] arasında nəşr olunmazsa [yayılmazsa], camaat avam qalar. Kəndi tarix, kəndi ülum və ədəbiyyatından məhrum olar. Tarix və ədəbiyyatdan məhrum olan millətin isə səfalət dərəkəsinə [çuxuruna] yuvarlanması tarixən müsbit və mühəqqəqdir [tarix tərəfindən sübut edilmişdir].

Nəşriyyat və mətbuat mə'nən və maddətən sarsılmaz bir qüvvə ərbabı tərəfindən mövqeyi-intişara qonularsa, o əsərlər mütləq mənsub olduğu millətin intibahi-elmiyyəsinə [elmi intibahına], ülumi-ədəbiyyəsinə, fünun və maarifinin təkamül və tərəqqisinə qüvvət verər. Milli duyğu, milli düşüncəni ortalığa açar, saçar. O sayədə hər kəs kəndi tarixini, milli örfədatını [adətlərini] və ənənati-milliyyəsini [milli ənənələrini] anlar.

Məmləkətdə məktəblər, mədrəsələr, darülfünunların [universitetlərin] güşad edilməsi [açılması], şairlər və müəlliflər, mühərrirlər və mütərcimlər yetişdirəcək müəssisələr təsis olunar. Hər sinfə məişətini təmin edəcək qədər də maaş verilər ki, o sayədə hər sinif ixtiyar və kəndisinə ixtisas etdiyi sənətin tərəqqisinə çalışar. Nəticədə bu gün kəndimizə mənsub olmasalar da, hər birimizin təqdir və təqdisinə məzhər olub [hər birimiz tərəfindən təqdir edilən və ucaldılan], adları təkrar-təkrar mətbuatımızı "bəzəyən" alman, fransız, ingilis və rus və sair millətlərin şüəra [şairləri], üdəbası [ədibləri] kimi millətimizin mənbeyi-iftixarı olan ülum və ədəbiyyat ərbabı meydana çıxar. Bu kimi müəssisələr ələləksər bütün elini, yurdunu, millətini, bəzən hansı millət və dindən olursa-olsun, təbəəsini sevən, maarifpərvər dövlət və məmləkətlərdə bulunur. Bu feyzi-üzmadan [böyük feyzdən] yalnız Rusiya təbəəsi olan bilxassə [xüsusilə] Qafqaziya türkislamları məhrumdurlar.

Bu məhrumiyyətimizin neçə-neçə səbəbləri vardır. Yeri gəldikcə, tərəfimizdən göstəriləcəkdir. Lakin ən ümdə səbəb, Rusiyada qeyri-rusların, bilxassə türk-islamların Rusiya hökumətimüstəbidəsinin ruslaşdırmaq siyasəti altında əzilmələri və göz açmalarına imkan verilmədiyidir. Bu "inayəti"-müstəbidənənin [müstəbidlərə xas bu "yaxşılığın"] ən əlası yalnız islamlara aid idi. Lakin millət-hakimə olan ruslar üçün dövləti xəzinə hesabına həddən ziyadə məktəblər, mədrəsələr, darülfünunlar, qiraətxanalar açılıb və nəşriyyat idarələri, ülum, maarif müəssisələri təsis olunurdu. Avropadan müqtədir müəllimlər, məşhur və mükəmməl məlumat sahibi filosoflar cəlb olunurdu. Təlim və tədris kitabları gətirilirdi. İntibahi-milliyyə və tərəqqiyyati-elmiyyələrinə səbəb olacaq hər dürlü vasitələrə təvəssül olunurdu [müraciət edilirdi]. Hətta – Ş. Samiyə nəzərən – türklərin cəddi-ələları [ulu babaları] olan yakutların çocuqlarını ruslaşdırmaq və onlara rus ülum və ədəbiyyatını öyrətmək üçün Sibiryada, buz səhralarında məktəblər təsisi, o çocuqları dərs vaxtı məktəbə, dərsdən sonra evlərinə aparmaq üçün məccani [pulsuz] arabalar təyin edildiyini bizzat müşahidə etmişəm.

Rusiya təbəəsi türk-islamlara isə böylə ədalətkaranə iltifat və nəvazişlər deyil, kəndi zəhmətləri sayəsində maarif bünövrəsinin vücuda gətiriləcəyi duyulunca dərhal "tatarlara elmi müsaidə yoxdur" deyə amansız cəlladlar əli ilə söndürülürdü. Bakıda "Nəşri-maarif" və "Səadət" məktəb, mədrəsələrinin vəqəsi, iddiamızı sübut edən müsbət [isbatlanmış] dəlillərdəndir. Rusiyadakı türk-islam təbəələrə ancaq ancaq canilik, qatillik, oğruluq, yankəsiçilik [cibgirlik], çirkinlik və murdarlıqlar irtikab etmək [cinayət işləmək] "imtiyazatı" verilirdi. Casusluq, danosbazlıq məktəbləri güşad edilirdi. Yumruq, qamçı, həbs, sürgün, yeri düşdükdə qətliam "ata"ları ilə nəvazişlər olunurdu.

Varsın şimdi müstəqil yaşamağa layiq millətin ah və əninini [naləsinin] qılıncdan kəskin, topdan ötgün olduğunu vəhşətpərvər Nikolay ricali-hökuməti [hökumət adamları] vüzuhuyla [aydınaşkar] anlasın.

Halbuki bir dövlətin hökmdarı və ricali-hökuməti ərbabi-elm və maarifdən təşəkkül edərsə, onların dövründə düha və zəka, ülum və fünun sahibləri çoxalar, sayələrində ülum və maarif şəşədar olar [parlayar]. Çünki xalq, xüsusən hökumət-mütləqədə [mütləqiyyət hökumətlərində] padişahlarının əhval və hərəkətinə tabe olarlar. Əfkar, hökmdarın xoşuna gedən yola yönələr. Daha əhalinin arasında ziddiyyət, cəhalət, səfalət və cinayət hökmfərma [hakim] olmaz. Bəlkə hökmdarlarının əfkar və amalına təqviyyət etmək [dəstək vermək] üçün onun sevdiyi və təqdis etdiyi [ucaltdığı] ülum və maarif ərbabı olmağa çalışarlar ki, nəticədə müqtədir və məsud bir kütleyi-müəzzəmə [əzəmətli kütlə] kimi yaşamaq səadətinə nail olarlar.

## SAVADSIZLARA ÇARƏ VƏ SAVADLILARA İMDAD

Bu axırkı illərdə yazılmış təhriri-nüfusdan [əhalinin sayımından] böylə məlum olur ki, rus əhalisindən hər 100-ə 30 nəfəri savadlı, qalan 70 nəfəri isə bisavaddır. Yəni 100 milyonluq bir taifənin 30 milyonu təlimli, 70 milyonu da avamdır.

Rusiyanın bu dərəcədə avamlığına yevropalılar arasında "Rusiya qaranlığı" demişlərdir. Filhəqiqə [doğrudan da] bu qaranlıqdan, bu avamlıq cəhalətindən nələr qaldı ki, rus millətinin başına gəlməmiş olsun. 70 milyon camaatı avam saxlayan hökumət, düvəli-müəzzəmədən [böyük dövlətlərdən] sayılmış rus dövlətinin rəzalətinə, bugünkü fəlakətinə bais olmuşdur.

Bəşəriyyətin ən müdhiş düşməni iştə həman avamlıqdır ki, bundan hamıdan artıq Azərbaycan Hökuməti qorxmalıdır. Zira Azərbaycandakı savadsızlıq ruslarınkından daha şiddətlidir. Böylə olan surətdə, vətənin qorxusu andraniklər kimi təcavüzkarlardan daha artıq, vətənin doğma övladı olan cühəla [cahillər] güruhundandır. Zira bunların cahilanə zərbələri, avamlıq nəticəsi olaraq ən dəhşətli fəlakətlər doğurur. Avam millət taxıl taylarını odlar, meşələri qırıb çatar, dəmiryollarını tarmar edər. Molla Nəsrəddin kimi oturduğu budağı mişarlar da, amma bununla özünə hazırladığı fəlakəti anlamaz və bir gün gələr ki, vətəni baltalayıb cəhənnəm uçurumlarına atar. Hələ oğru və quldurluq kimi cinayətlərin də arabərəsi kəsilməz.

Millətin savadsızlığı hökumət kişilərini hər an, hər dəqiqə düşündürməlidir. Camaatın avamlığına çalışmış zəvat [şəxslər] bunun "ləzzətini" gördülər. Bu bizim üçün bir ibrət dərsi olsun da, avamlarımızın ədədini mürurla [zaman keçdikcə] əksiltməyə çalışacaq.

Vaxtilə vətənimizdə mütəəddid [çox sayda] seminariyalar, gimnaziyalar və bəlkə akademiyalar açılacaqdır. Lakin bu mədrəsələr, yeniyetmə övladımızın tərbiyə və təliminə olduğu cəhətə, yaşlısaçlı savadsızlarımıza bunlardan bir fayda yoxdur. Bunlar üçün gərək xüsusi çarələr aranılsın. Mənə qalarsa, 20 yaşından 50 yaşına qədər tamam savadsızları hökmən savad öyrənməyə məcbur etsinlər. Vəqti-müəyyənədə [vaxtında] öyrənməyənləri, mümaniət [müqavimət] göstərənləri təhti-mühakiməyə [mühakimə altına] alıb cəzalandırsınlar. Nəzərə öylə gəlir ki, bu baş tutası məsələ deyil. Lakin hökumətin bu işə meyil və rəğbəti olarsa, buna dair bir qanun layihəsi tərtib verilərsə, aralıqda heç bir çətin iş də qalmaz.

Əvvəla, yüz minlərcə cavanlarımız əsgərliyə dəvət olunaraq hökumət qışlalarında [kazarmalarında] əyləşəcəklər. Zənnimcə bu cavanlara müharibə məşqləri təlimindən əlavə, hökumətin bir vəzifəsi də bunlara türkcə savad öyrətməkdir.

İkincisi, azadəliyi əlindən alınmış bir çox polis və məhkəmə dustaqları həbsxanalarda səhərdən axşamadək bikarcasına yeyib-yatırlar. Bunların da savad təlimi, hökumətin vəzifəsi gərək olsun.

Üçüncüsü, fəhlələrin rifah və asayişinə çalışan Məsai Vəzarəti [Əmək Nazirliyi] bunların savad təliminə dair xüsusi qanun layihəsi tərtib verməlidir ki, mədənlərdə fəhlələr işdən fariğ [asudə] olduqları vaxtlar savad öyrənməyə məcbur olsunlar.

Dördüncüsü, Maarif Vəzarətinin təklifi ilə məktəbləri mövcud olan kəndlərdə müəllimlər axşam kursu açıb kəndlilərə (ayrı məvaciblə) savad öyrətsinlər.

Beşincisi, şəhərlərdə və qəsəbələrdə əsnaf əhlinə savad öyrətmək üçün bunların da qeydinə Sənətkarlar İttifaqı qalaraq, hər sənətçi dəstəsinə məxsus birər savad kursu açmalıdır. Bundan görülür ki, hər sinfin, hər sənətkar dəstəsinin özünə məxsus ittifaqı gərək olsun, ta ki, hər ittifaq da üzvləri üçün birər savad kursu aça bilsin. İndi buyursunlar: baqqallarımız, əllaflarımız, hətta hamballarımız belə birləşsinlər, savadsız həmkarlarının da qeydinə qalsınlar.

Məsələnin rəsmi cəhəti qurtardı. Bir qədər də maarif cəmiyyətlərinin fəaliyyətindən bəhs etməliyiz. Bir vaxt var idi şəhərlərimizdə "Nəşri-maarif", "Nicat", "Səfa" cəmiyyətləri maarif yolunda böyük fədakarlıqlar göstərmişlərdir, məktəblər açmışlardır, qəzetələr nəşr etmişlərdir. Bu gün nədənsə bunlardan heç bir əsər zahir olmayır. Səbəb nədir ki, istibdad dövründə çalışıb-çabalayan cəmiyyətlərimiz böylə bir müstəid [əlverişli] zamanda heç bir iş görə bilməyirlər? Millət və Azərbaycan namına [adına] tələb edirik ki, bu cəmiyyətlər axşam kurslarını, cümə məktəblərini, xanımlar kursunu və sair maarif vəsilələrini [vasitələrini] işə-başa salsınlar.

Əlhasil, savadsızlara çarə varsa, o da üç yerdən hasil olacaqdır:

1) Hökumətdən,
2) Sənətkarlar ittifaqlarından və
3) Maarif cəmiyyətlərindən.

Baxalım, ilk qədəmi hangisi başlayacaqdır!

Bugünkü bahalıq, qəzetə və jurnal kimi maarif mayəhtacını [vasitələrini] öylə bir hala salmışdır ki, daha bir çox türk maraqlıları təkcə bir nüsxə qəzetə almaqdan məhrum qalmışlardır. Bu isə, savadsızlıq dərəcəsinə qədər tənəzzül etmiş olurlar. Bəzi şəhərlərdə qiraətxanalarımız var idi. Bu gün onlardan da bir əlamət qalmamışdır. Yövmiyyə [gündəlik] qəzetələrin maraqlıları indi ayda bir kərə də türk qəzetəsini ziyarət edə bilməyirlər. Buna da bir tədbir lazımdır. Yenə bu məsələdə də hökumətin kömək və imdadına ehtiyac görünür.

Hökumət idarələrinə və əlalxüsus öylə müəssisələrə ki, orada camaat yığıncağı vaqe olur, birər nüsxə türk qəzetəsi göndərmək vacibatdandır. İştə buraya yığılan camaat, sair yoldaşların gəlməsinə müntəzir [gəlməsini gözləyib] oturub qalarkən boş vaxtlardan istifadə edib, bu boş vaxtları qəzetə mütaliəsi ilə keçirə bilərlər. Bu müəssisələrdən nəzərimdə bulunanlar bunlardır:

1) Kənd yüzbaşıları idarələri,
2) İşqollar,
3) Əsgər qışlaları,
4) Həbsxanalar,
5) Şəhər bələdiyyələri,
6) Şəhər mərizxanaları [xəstəxanaları],
7) Müsafirlərə məxsus postaxanalar.

İştə həmin müəssisələrə hökumətin təklifi ilə birər nüsxə göndərilərsə, savadlılar oxur, savadsızlar da qulaq asıb hər iki tərəf faidəmənd olarlar [faydalanar]. Bundan əlavə, Ağstafa, Gəncə, Yevlax, Hacıqabul, Biləcəri, Sabunçu, Xaçmaz və Bakı mövqiflərində [stansiyalarında] nəşriyyat ticarəti ilə məşğul olan şəxsləri vadar etmək lazımdır ki, türk qəzetələrini də məcburən satsınlar.

Tək hökumətin müavinəti ilə iş tamam olmaz. Lazımdır ki, camaatda da bir hümmət əsəri görünsün. Məsələn, nə olar hərgah hamamlar, dəllakxanalar, çayxanalar, əczaxanalar, mehmanxanalar, mərizxanalar birər nüsxə qəzetə alıb müştəriləri üçün saxlayalar. Həm müştərilərin vaxtı xoş keçər, həm qəzetə məlumatından da istifadə alarlar. Əcnəbilər böylə rəftar etmişlərdir. Biz də onların yolu ilə getsək mənzili-məqsədə çatarıq!

*Fərhad Ağazadə*

## MƏTBUAT

Fəhlə konfransının 23 yanvar iclasında, cərəyani-əfkarla qərardadı arasındakı təzadı sayaraq bu qərarları nagəhani [gözlənilməz] adlandırır və bunun səbəbini "Kimlərinsə, kimləri isə aldatması qorxusu" təsəvvüründə görərək, nəhayət əmələ [fəhlə] konfransına "İskra" böylə tövsiyə edir:

Ümum fəhlə hərəkatının təcrübəsi əsası ilə deyiriz ki: "Ən yaxşı siyasət Lassalın siyasətidir – hər nə varsa açıq demək siyasəti. Biz demişik və təkrar ediriz: hal-hazırda tətil etmək heç kəsə xeyir verməz. Ona görə açıqdan-açığa və doğrudan güzəştə getmək lazımdır. Ailə sahiblərinə də, təklərə də 360 manat artırmaq – bu maaşların nə vaxtdan verilməsinin fərqi gözlənmədən – Sentrokaspinin avqustda verdiyi fərqin o biri aylara da tətbiqindən asılı tutulmaq şərti ilə və müştərək müqavilənamənin təcdidi [bərpası] – iştə ağıllı güzəşt üçün əsaslar. Əmin oluruz ki, bazar günkü iclasında konfrans dəxi bu yol ilə gedər."

Əmin oluruz ki, Fəhlə Konfransı məmləkətin və ticarət və sənaət işlərinin vəziyyətini nəzərə alaraq, Məsai naziri həzrətlərinin və firqə rəislərinin səsinə qulaq asar və bunu qəbul edər.

## BAKI XƏBƏRLƏRİ

"Balaxanı mədən dairələrində "Müsavat" şöbəsi!"

21 kanuni-sani [yanvar] səşənbə [çərşənbə axşamı] günü saat 3-də bə'dəzzəval [günortadan sonra] Türk Ədəmi-Mərkəziyyət "Müsavat"ın Balaxanı mədən mərkəzi şöbəsinin sabiq heyəti-idarə əzası [idarə heyəti üzvü] Bünyadzadə Ağanın mənzilində iclas edərək:

1) mədən dairəsindəki şöbənin təcdidi [bərpası];
2) məhəlli-idarə [idarə yeri] təyini və
3) heyəti-idarə intixabı [seçilməsi] məsələləri müzakirə edilərək, şöbənin məhəlli-idarəsi Seyid Məhəmmədzadə Seyid Ağanın 59 nömrəli mülkündə olmağı qərara alındıqdan sonra, heyəti-idarə əzası intixabına şüru edildi [başlandı]. Nəticədə əsamisi zirdə mühərrər əşxas intixab edildilər [adları aşağıda yazılmış şəxslər seçildilər]:

Mirzəağa Kərimzadə cənabları sədr, Rəhim bəy Cahangirzadə müavin, Yusifzadə Əbdürrəhim katib, Məşhədi Kərim Məhəmmədzadə (mübəlliğ [təbliğatçı]), Haşim bəy Cahangirzadə, Cabbar Məhərrəmzadə, Məcid Sadiqzadə, Ağa Babazadə, Abdulla Zülfüqarzadə, Mirzə İbrahim Cahangirzadə və Əsgər bəy Məlikyeganzadə xəzinədar.

*Sədr: Mirzəağa Kərimzadə.*
*Katib: Yusifzadə Əbdürrəhim.*

* Yanvar ayının 26-da, gündüz saat 3-də Türk Mütəəllimlərinin [tələbələrinin] Abbas Şərifzadənin təhti-idarəsində [idarəsi altında] bulunan "Musiqi və dram" studiyasının ikinci dəfə olaraq iclası vaqe olacaqdır. Üçüncü ali-ibtidai [məktəbi] mülkündə.

* Sabiq Yemelyanov zükur [oğlanlar] gimnaziyası binasında, yanvar ayının 22-dən Bakı Ticarət məktəbinin dərsləri başlanmışdır.

## BEZ FƏQƏRƏSİ [BEZ ƏHVALATI]

Tağıyev fabrikasından çıxan manufaktur barəsində, yəni manufakturu alıb onunla şiddətli dərəcədə ehtikarçılıq [möhtəkirlik] edənlər barəsində əhali arasında cürbəcür danışıqlar və hətta mətbuatda da bəzi narazılıqlar eşidilməkdədir. Ərzaq naziri vəkili Yusifəli Əliyev cənabları tərəfindən bu barədə ciddi surətdə təhqiqat yapılıb, camaat adına alınıb ehtikarçılar əlinə keçən manufakturlar barəsində təftişat davam edir. Hələlik bir neçə nəfər xəyanətkarlardan ələ keçib həbsə alınıbsa da, lakin bəziləri barəsində məlumat yığılır.

Ələlümum [ümumiyyətlə] birdəfəlik kimin adına manufaktur alınıb və kimə çatmadığını bilməkdən ötrü Yusifəli əfəndi qərar qoymuş ki, bundan sonra fabrika kantorasından bütün şəhadətnamələrin surətini alıb, məhəlli mətbuatda dərc etdirsin. Bu səyaqla hər kəs ki, özünə mütəəlliq [aid] manufakturu tamamilə almamış olarsa, o vaxt lazımdır vəkil cənablarına təcili surətdə elan etsin ki, lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

Alınan məlumat noyabr ayının əvvəlindən başlanıbdır. Çünki ancaq bugündən etibarən fabrika məmulatı Nəzarətin təhti-təftişatına [təftişi altına] alınıbdır. Bugündən etibarən fabrikadan çıxan mallar, tamamən ya Ticarət və Sənaət Nəzarəti və ya ki Ərzaq Nəzarətinin şəhadətnamələri ilə buraxılmışlardır. İştə məlumat budur:

Fabrika kantoru öz ixtiyarı ilə buraxıb Şağan kəndi camaatı üçün 3500 arşın kənd vəkili M. B. Məhəmmədbəyova.

Ərzaq Nəzarəti vasitəsilə buraxılıb: Bakıda Maarif Nəzarətinə 600 arşın, Bakıda K. S. Qasımzadəyə manufaktur 1000 arşın və genə də həman şəxsə hamam üçün qətifə 200 ədəd; Qoraxda R.Musa oğluna manufaktur 12000 arşın; Kürkənddə Balakişi və sairlərinə camaat üçün manufaktur 1600 arşın; Qazax camaatı üçün D.Amintayova manufaktur 8000 arşın; Fatmayı kəndi camaatı üçün Ruhüləmin və sairlərinə 4000 arşın; Zirə kənd camaatı üçün Muradova 10000 arşın; Hacı Pirverdi məscidi məhəlləsi camaatı üçün Eminova 1000 arşın; Hacıyev məscidi camaatı üçün Şeyx Musa cənablarına 1000 arşın və genə də Hacı Hüseyn məscidi camaatı üçün həman Şeyx Musaya genə də 1000 arşın, Bakıda aptekçi Qolberqə yara bağlayan tənzif buraxılıb 1000 arşın; Şuşa şəhəri camaatı üçün Ya. B. Miralayevə manufaktur 30000 arşın; Dərbənddə hərbi Axtı komitəsi üçün 10000 arşın, Bakıda R.Rüstəmova 1000 arşın; Bakıda vəzarət [nazirlik] qulluqçularının istehlak cəmiyyətinə vəkil Vəlibəyova 11000 arşın; Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] 20000 arşın; Dərbənd Bələdiyyə rəisinə 20000 arşın; Şuşada Malıbəyli camaatı üçün 10000 arşın; Nardaran kəndi camaatı üçün vəkil Balakişi və sairlərinə buraxılıb 8000 arşın.

Noyabr ayının 24-dən etibarən fabrikanın nəzarəti Ticarət və Sənaye Nəzarətinin ixtiyarına keçdiyi üçün, bugündən sonra verilən şəhadətnamələr tamamilə həman Nəzarətin idarəsindən verilmişdir:

Məhəmmədli məscidi camaatı üçün buraxılır 3000 arşın, Ramana kəndi camaatı üçün Ağasəf Babayevə buraxılır 6000 arşın. Bakıda mağaza sahibi olan Abdulla Dadaşova tənzif ağı 5000 arşın, Bakıda qaraj qulluqçuları üçün 2100 arşın, Bakıda Abbas Rəfiyevə qətifə 200 dyujin, Mərdəkan kəndi camaatı üçün Hacı Məhəmmədə verilib 6000 arşın, Bakıda aptek sahibi Ermansa verilib tənzif 10000 arşın, Bakıda B. X. Cavanşirə verilib manufaktur 500 arşın, Bakıda N. B. Hacınskiyə 200 arşın, Bakıda Nəcəfquluya corab sapı 6 put, Zaqatalda istehlak cəmiyyətinə camaat üçün 50000 arşın, Məlik Rəsulovun balıq vətəgəsi üçün 3000 arşın, Pirşağı kəndi camaatı üçün Gülməhəmməd Q. S. oğluna buraxılıb 6150 arşın, Lənkəran camaatı üçün Yusif Qəribova verilib 6000 arşın, Bakıda Zaydlerə verilib tənzif 15000 arşın, Maştağa kəndi camaatı üçün buraxılıb Muradəli və sairlərinə 20000 arşın, Bakıda İran konsulxanasına camaat üçün buraxılıb 3000 arşın, Balaxanı kəndi camaatı üçün buraxılıb P. Cəbiyevə 6000 arşın, Bakı qazısı üçün Ağa Qədirova buraxılıb 3000 arşın, "Kazbek" fabrikası üçün buraxılıb Tağıyevə 10000 arşın, 2-ci Bakı mövqifi [stansiyası] naçalnikinə buraxılıb 1800 arşın, türk zabitinə verilib 5000 arşın, Türkiyə qoşunu üçün buraxılıb 65000 arşın, poçta və teleqraf qulluqçuları üçün buraxılıb 45 parça, genə də həman qulluqçular üçün buraxılıb 8 dyujin yarım qətifə, Qala kəndi camaatı üçün buraxılıb Hacı Ağaya manufaktur 20000 arşın, K. B. Səlimxanova verilib 10000 arşın, genə həman şəxsə verilib qətifə 1000 ədəd, Nuxu şəhəri camaatı üçün verilib Salamzadəyə 3000 arşın, "Bank" balıq mədənləri [vətəgələri] üçün verilib Vəlibəyova 1750 arşın, Bakıda yəhudilərin ruhanilərinə verilib 2000 arşın, Tağıyev skladının qulluqçularına verilib 7 parça, genə də onlara verilib qətifə 8 dyujin yarım, Yu.Tislenkoya verilib qətifə bir dyujin, genə də həman şəxsə verilib manufaktur 144 arşın, Quba şəhəri camaatı üçün buraxılıb M.R.Tutunova 15000 arşın, Əsədullayev kantorunun qulluqçularına buraxılıb 7 parça, Bakıda Z.V.Vəzirova verilib 2000 arşın, Quba şəhəri camaatı üçün buraxılıb Ağasəf Babayevə 3 kip (tay), general-mayor Xəlilova buraxılıb 700 arşın, Bakıda Yevdokimova buraxılıb 306 arşın, Tağıyevin qulluqçularına buraxılıb 1000 arşın, genə də onlara buraxılıb qətifə 5 dyujin, Bakıda Obşestvenni Sobraniye [Bakı İctimai Yığıncağı] klubunun damını təmir üçün H. Qasımova buraxılıb 3000 arşın, Bakıda Bedenkoya 90 arşın, Mərdəkan camaatı üçün buraxılıb Əlibaba Aslanova 7000 arşın, Bakıda A.Rəfiyevə 5000 arşın, Nuxu camaatı üçün M.B.Səlimzadəyə 3000 arşın, Bakıda bazar taciri Vəlibəyova 10000 arşın.

Bu məlumat, ancaq dekabr ayının 10-cu gününə kimi verilən bezlərin məlumatıdır. Bu günlərdən sonrakı məlumat gələcəkdə dərc ediləcəkdir.

## İDARƏDƏN CAVABLAR

İkinci firqə əsgərlərimizdən imzasın[ı] oxuya bilmədiyimiz əfəndiyə: Yuxarıda Mirzə Abbas Şahbazzadəyə yazdığımızı oxuyarsınız.

Molla Haşım Ağaəlizadə əfəndiyə: Doğru deyirsiniz. Sizin haqqınızda səhv olubdur. Təsdiqinə yetişdik.

## İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə vüsul olub [çatıb]:

Paşa Qurbanov və Aydəmir Musaxanov vasitəsilə müsəlman zərgərləri arasında cəm etdikləri 800 manat;

Sabiqki ianədən idarədə qalmış idi 300 manat.

Yekun 1100 manat.

Min yüz manat Ağaməhəmməd İbrahimzadə cənablarının vasitəsilə lazım olan yerinə göndərilmişdir.

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крепостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor İ.Q.Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9-12-yədək; axşam saat 4-6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Arvad diş həkimi**
**M.S.İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş diş həkimi**
**M.B.Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Mehmanxaneyi-"Məhəmmədiyyə"**

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Odun**

Bununla əhaliyə elan olunur ki, odun, Xəzər Müstəhlik Cəmiyyəti "Kooperatsiya"-nın Budaqovski və Merkuryevski küçələrin küncündəki (qapısı Budaqovskidən) bir putu 8 manat 65 qəpikdən satılacaqdır. Satış bu kanuni-saninin [yanvarın] 24-dən başlayıb səhər saat 9-dan gündüz saat 3-ə kimi davam edəcəkdir.

*İngiltərə Ərzaq komissarı mayor İnvud*
*T-20*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qəzetələrdən***

"general Xəlil bəy": Xəlil paşa (Xəlil Qut) nəzərdə tutulur.

***Salman bəy kimdir?***

"ümmülvəqt": (öz zəmanəsinin anası) hər dövrdə o dövrün qayda-qanunlarına, nizamına görə yaşayan, prinsipləri olmayan.

"Qarabağlı Xəlil": bu imza Xəlil İbrahimə (İbrahimov Xəlil) məxsusdur.

***Felyeton***

"…tarixən müsbit və mühəqqəqdir.": qəzetdə "tarixən" yerinə "tarixi" getmişdir.

"…Ş. Samiyə nəzərən…": Türk yazıçısı, publisisti və dil alimi Şəmsəddin Sami nəzərdə tutulur.

"Əfkar, hökmdarın xoşuna gedən yola yönələr.": qəzetdə "yönələr" yerinə "tökülər" getmişdir.

***Savadsızlara çarə və savadlılara imdad***

"əllaf": taxıl, un, yem, ot kimi şeylərin alverçisi.

***Mətbuat***

"…ən yaxşı siyasət Lassalın siyasətidir.": Alman filosofu və siyasi xadimi, alman sosial-demokratiyasının əsasını qoyan Ferdinand Lassal nəzərdə tutulur.

***Bakı xəbərləri***

"Mirzəağa Kərimzadə cənabları sədr…": qəzetdə bu cümlənin əvvəlinə "1)" əlavə edilmişdir.

***Bez fəqərəsi***

"dyujin" (yaxud "dyujina"): 12 ədəd.

***İdarədən cavablar***

"Yuxarıda Mirzə Abbas Şahbazzadəyə yazdığımızı oxuyarsınız.": Qəzet idarəsinin M. A. Şahbazzadəyə cavabı 24 yanvar 1919-cu il tarixli 96-cı nömrədə çap edilmişdir.



# Mədəniyyət



**Tahir Salahov - 95**

**Azərbaycanda rəssamlığın zəngin ənənələri var. Bu ənənələri tarixin müxtəlif dövrlərində mədəniyyətimizi sənətin belə bir istiqaməti üzrə irəli aparmış görkəmli sənətkarlarımız formalaşdırıblar. Onların hər birinin adı, yaradıcılıq irsi bizim üçün böyük bir dəyərdir. Bu insanların əbədiyyət ömrü zəkalarının işığı, təxəyyüllərinin əlvan boyaları, fırçalarının, tişələrinin qüdrəti ilə yaratdıqları və indi də dünyanın müxtəlif qalereyalarını bəzəyən əsərlərində yaşayır.**



## Bir ömrün rənglər dünyası







Azərbaycan rəssamlığının təşəkkülü və inkişafında rolu olan hər bir sənətkarımızı bu sənətin simvollarından hesab edə bilərik. Bu sırada elə adlar da var ki, Azərbaycan rəssamı deyəndə birinci onlar yada düşürlər. Anadan olmasının 95-ci ildönümü tamamlanan Tahir Salahov istisnasız olaraq belə şəxsiyyətlərdən biridir. Böyük sənətkarın adına bu statusu qazandıran bir tərəfdən onun parlaq istedadı, yaratdığı əsərlərin müstəsnalığı, digər tərəfdən yaradıcı şöhrətinin bütün dünyaya yayılmasıdır.

Tahir Salahov 1960-cı illərdə nüfuz qazanmış "sərt üslub"un banisi olmuşdur. Sənət şedevrləri yaratmış məşhur fırça ustasının yaradıcılığında biz yalnız yüksəlişlər görmüşük. Rəssamın obrazlar aləmi ilbəil zənginləşərək əsas etibarilə tematik tablolar, portret və peyzajlar vasitəsilə öz dövrünü əks etdirmiş və bütün əsərlərində həyatın nəbzi çox incəliklə təsvir olunmuşdur.

Tədqiqatçılar, görkəmli nəzəriyyəçilər dünyaşöhrətli rəssamın incəsənətdə həm də yeni təfəkkür irəli sürənlərdən biri olduğunu qeyd edirlər. Bu yeni sənət dayaz nikbinlik qavramından imtina etmiş, süjet ikinci plana çəkilərək özünəməxsus bədii çözümlə əvəz olunmuşdur. Rəng bütün çoxsaylı çalarları ilə təsvir vasitəsinin başlıca bədii amili rolunu üzərinə götürmüşdür. Tahir Salahov təsviri sənətdə fikir, düşüncə, ideya, mövqe rəssamlığının qüdrətli yaradıcısıdır. Onun hər bir əsərinin öz mənası, öz fəlsəfəsi var. Tünd rənglər, sərt cizgilər rəssamın əsərlərinin bədii ifadə vasitələridir. Tahir Salahovun əsərləri hər zaman layiq olduğu hörməti qazanmışdır.

### Emalatxanadakı köhnə tikiş maşını

1928-ci il noyabrın 29-da Bakıda anadan olan Tahir Salahovun ömür və yaradıcılıq yolu o qədər də rəvan keçməyib. Uşaqlıq illəri bu gün də qorxulu röya kimi xatırladığımız ötən əsrin 30-cu illərinin qanlı repressiya dövrünə təsadüf edib. Minlərlə vətənpərvər ziyalımızın ömrünə son qoyan qırmızı terror dalğası onların ailəsindən də yan ötməyib. Atası Teymur Salahovu qanlı caynaqlarına alıb aparıb. Teymur Salahov dövrünün tanınmış şəxslərindən idi. Vəzifə pillələrində addım-addım irəliləmişdi. Əliqanlı repressiya cəlladları onun ömrünün davam etməsinə imkan versəydilər, kim bilir bu bilikli, enerjili, dövrünün tərəqqipərvər ziyalısını hələ qarşıda nə qədər uğurlar gözləyirdi. Amma əfsus ki, fələyin gərdişi döndü.

Laçın rayonunun birinci katibi vəzifəsinə təyin edilən Teymur Salahovu 1937-ci ildə həbs edib, "xalq düşməni" damğası vurdular. Trotskist-zinovyevçi əksinqilabçı təşkilatın üzvü, ziyankar, terrorçu və s. bu kimi ağır ittihamlarla günahlandırıb, həbsindən doqquz ay sonra 15 dəqiqəlik məhkəmənin hökmü ilə güllələdilər. Beləliklə, 9 yaşlı Tahir ailənin başqa övladları ilə anası Sona xanımın ümidində qaldı. Atalarını itirəndə böyük qardaşı Sabirin 11, ortancıl qardaşı Mahirin 10, kiçik bacısı Zərifənin 5 yaşı vardı. Körpə Leyla isə cəmi 2 aylıq idi.



Bir anlığa heç yerdə işləməyən evdar bir qadını o ağır illərdə 5 uşaqla təsəvvür edək. Həyat isə Salahovları sınamaqda davam edirdi. 37-ci ilin repressiyalarından, ailənin başsız qalmasından sonra çəkdiyi çətinliyin üstünə İkinci Dünya müharibəsinin gətirdiyi problemlər də əlavə olundu. 1942-ci ildə Tahir demək olar ki, məktəbə getmədi. Qardaşı Mahirlə birlikdə şəhər su kəməri idarəsində işləyib xırda xərclik əldə edirdilər.

Tahir Salahovun emalatxanasında olanlar onun burada ən dəyərli əşyalardan biri kimi qoruduğu köhnə tikiş maşınını yaxşı xatırlayırlar. Bu, anası Sona xanımın maşını idi. Qadın həmin köhnə tikiş maşını ilə uşaqlarını aclıqdan, səfalətdən qorumuş, onların layiqli insanlar kimi yetişməsi üçün ömrünü şam kimi əritmişdi. Övladları da onun zəhmətini itirməmişdilər. Təkcə Tahir Salahovun fırçasının dünyaya yayılan şöhrəti Sona xanımın o ağır illərdə çəkdiyi əziyyətlərin ən böyük mükafatı idi.

### İlk əsərlər, ilk sərgilər

Tahirin rəssamlıq istedadı erkən yaşlardan özünü göstərirdi. O, orta təhsilini 1945-ci ildə Bakı şəhərində başa vurub Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə daxil olur. 1950-ci ildə bu təhsil müəssisəsini də tamamladıqdan sonra Leninqrad Ali Sənaye Rəssamlıq Məktəbində oxuyur. 1951-ci ildə isə V.İ.Surikov adına Moskva İncəsənət İnstitutuna daxil olur. 1955-ci ildə çəkdiyi "Dalğa" və "Estakada" adlı rəsm əsərləri ilə ümumittifaq, xarici və respublika sərgilərində iştirak edir. 1957-ci ildə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirir. Diplom işi olan "Növbədən qayıdanlar" əsəri ilə ümumittifaq sərgisində iştirak edir və bu əsəri sərgi iştirakçılarında böyük maraq yaradır.

Yağlı boya ilə kətan üzərində, daha çox soyuq rənglərlə çəkilmiş və hazırda Sankt-Peterburqdakı Rusiya İncəsənət Akademiyasında saxlanılan əsərin ərsəyə gəlməsi üçün gənc rəssam iki aydan artıq Neft Daşlarında yaşamalı olmuşdur. Bu rəsmin çəkildiyi zamanlar Neft Daşları yenicə tikilirdi və dəniz üzərindəki şəhərin şöhrəti dünyaya təzə-təzə yayılırdı. Elə "Növbədən qayıdanlar" əsərində də arxa planda tikilməkdə olan neft şəhərciyinin quruluşunu görürük. Yaxşı rejissuralı və effektlə işlənmiş iri tablo yeni dünya baxışına doğru yolun başlanğıcı olduğunu xəbər verirdi.

O dövrdə sənətşünaslar bu rəsm əsərini "bütün cərəyanlara qarşı çıxan əsər" kimi dəyərləndirirdilər. Rəsm o qədər peşəkar səviyyədə işlənmişdi ki, hətta onun çəkildiyi anların hava şəraitini belə duymaq mümkündür. Növbədən qayıdan neftçilər küləyə qarşı irəliləyirlər. Onların simalarında yorğunluq qədər əzm, güc və iradə də duyulur. Bu əsərlə rəssam Azərbaycan neftçilərinin böyük əzmkarlığını, məğrurluğunu canlandırırdı.

"Növbədən qayıdanlar" əsəri ilə Tahir Salahovun adı sənət aləmində parlamağa başladı. Onu SSRİ Rəssamlar İttifaqı üzvlüyünə qəbul edirlər. 1958-ci ildə "Səhər eşelonu" əsərini, ardınca 1959-cu ildə "Rezervuar parkı", "Neftçi" əsərlərini yaradır. "Səhər eşelonu" və "Rezervuar parkı" peyzajları tarixən sənaye şəhəri olan Bakının həyat axarını gözəl əks etdirir və bu əsərləri yaratmış rəssamın nə qədər böyük yaradıcılıq duyumuna malik olduğunu göstərir. Bu isə çox vacib məqamdır.

Tahir Salahovun 1960-cı ildə yaratdığı "Təmirçilər" və "Bəstəkar Qara Qarayevin portreti" əsərləri də böyük rəğbətlə qarşılanmışdır. "Təmirçilər"də rəssamın əsas yaradıcılıq subyekti yenə də zəhmət adamıdır. Qayıqla iş yerinə yollanan təmirçilər müxtəlif psixoloji ovqatlarda təqdim olunurlar. Tablonun ümumi ahəngi bir qədər tutqundur. Sağdakı fəhlə gödəkçəsinə bürünüb özünü küləkdən qoruyur, soldakı isə baxışlarını sanki potensial seyrçiyə, yaxud müsahibinə dikib. Bu əsərdəki zəhmət adamı mövzusunu, onun durumunu, ictimai statusu haqqında təəssüratı rəssamın "Xəzərin sahilində" (1967) əsərində də görürük. Sahildə dincələn bir balıqçının təsvir olunduğu rəsmin manerası, təsvirin iri formaları "Təmirçilər"də olduğu kimidir.

### Yeni dövrün insanı

Moskva Dövlət Tretyakov Qalereyasında nümayiş etdirilən "Bəstəkar Qara Qarayevin portreti" əsərində isə görkəmli sənətkarın bir bəstəkar, intellektual şəxsiyyət kimi ümumi portreti yeni dövrü təmsil edən insan obrazında işlənib. Əsərdə bəstəkar əyləşmiş şəkildə təsvir edilir. Qara Qarayevin keçirdiyi daxili, mənəvi gərginlik ovqatından bəlli olur. Bu ovqat onun bir-birinə ilişdirilmiş əllərindən, iradəli sifətindən, dalğın düşüncəli görkəmindən duyulur. 1962-ci ildə Tahir Salahov bu əsərinə görə SSRİ Rəssamlıq Akademiyasının gümüş medalı ilə təltif edilir. 1968-ci ildə isə SSRİ Dövlət Mükafatına layiq görülür. Xarici jurnalistlərə müsahibələrinin birində rəssam xatırlayırdı ki, əsər üzərində işləyərkən tez-tez Opera və Balet Teatrına gedər, Qara Qarayevin baletlərinə tamaşa edər, hər gün onun musiqilərini dinləyərmiş. Bununla bəstəkarın musiqi dünyasını tamamilə mənimsəməyə çalışarmış. Bunun sayəsində rəssam bu qədər uğurlu bir rəsm əsərini ərsəyə gətirə bilir.

Tahir Salahovun ötən əsrin 60-cı illərində çəkdiyi bir çox rəsm əsərində insanların nigaranlığı, intizarı sezilir. Bunu 1967-ci ilə aid məşhur "Abşeron qadınları"nda daha çox duyuruq. Əsərdə analar və gəlinlər dəniz sahilində nigaran bir duruşla oğullarının, ərlərinin yolunu gözləyirlər. Rəssam nigaranlıq hissini qadınların əhvali-ruhiyyəsində, sərt xətlərlə cizgilənmiş sahilyanı qumların pərakəndə naxışlarında çatdırır. Tahir Salahov əvvəlki tablolarındakı təmkinli enerjini burada zahiri statika, durğunluqla əvəzləyir. Qadınların alabəzək geyimləri, qırmızı, bənövşəyi, ağ, göy, müxtəlif çalarlı rəngləri isə daha çox dekorativ naxışlardır. Amma bu naxışlar da narahatlıq motivində özünə yer tutur. "Yeni dəniz" əsərində (1970) isə bənd üstündəki fəhlələrin dənizə gur suların sürətlə axmasını izləyən baxışlarında nigaranlığı duyuruq. Amma bu nigaranlıqda böyük bir fərəh də var. "Yeni dəniz" öz əməyinin bəhrəsini görən əməkçilərin təmkinli fərəhini göstərir.

Tahir Salahovun 60-cı illərdə çəkdiyi ən məşhur əsərlərdən biri də "Sənə, bəşəriyyət!" rəsm-pannosudur. Bu əsər ilk dəfə 1961-ci il aprelin 12-də Bakıda təşkil edilmiş respublika bədii sərgisində nümayiş etdirilib. Rəssam özü bu əsər haqqında qeyd edirdi ki, onu hər hansı sifarişlə deyil, "ruhun daxili, optimist əmri ilə" çəkib. Bu əsərlə kosmosun fəthindən heyranlığını çatdıran rəssam deyirdi: "1959-cu ildə, insanın kosmosa uçuşundan iki il əvvəl gecənin bir vaxtı mən qəflətən yuxudan ayıldım və kosmik səmada yanar ulduzlar arasında uçan, antik çöhrəli kişi və qadın eskizi çəkdim. Az sonra mən həmin eskizi kətan üzərinə köçürdüm və məhz Yuri Qaqarin kosmosa uçan gün bu işi sərgidə nümayiş etdirdim". Sənət taleyi bir qədər mübahisəli olan, uzun illər lazımi qiymətini almayan bu əsər 2008-ci ildə bərpa edilərək hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır. Tahir Salahovun xalça üzərinə köçürülmüş əsərləri arasında "Sənə, bəşəriyyət!" əsəri də var.

Rəssamın "Aydan" tablosu, bəşəriyyətin gələcəyinə görə məsuliyyət daşıyan insanın fəlsəfi portreti kimi yaratdığı Dmitri Şostakoviçin, şair Rəsul Rzanın, bəstəkar Fikrət Əmirovun portretləri, "Köhnə Bakı", "Səhər ovu", "Nardaran qarpızları", həmçinin Odlar yurdu triptixi - "Atəşgah", "Xəzər bu gün" və "Qız qalası" əsərləri və başqa yaradıcılıq nümunələri Tahir Salahov fırçasının qüdrətini əks etdirən ayrı-ayrı nümunələrdir.

O, təsviri incəsənətin ən müxtəlif janrlarında öz fırçasını sınayıb və eyni qüdrətlə dəyəri misilsiz olan şedevr əsərlər yaradıb.

### Əsərlərdə dolaşan yaradıcı ruh

Tahir Salahovun ömrünün 60-cı illərdən sonrakı dövrü həm sənətdə, həm ictimai işlərdə aktiv fəaliyyətlə, ardıcıl yüksəlişlərlə, sənətinə verilən yüksək mükafatlarla zəngindir. Görkəmli rəssam Azərbaycan Rəssamlar İttifaqının məsul katibi, Azərbaycan Rəssamlar İttifaqının sədri, keçmiş SSRİ Rəssamlar İttifaqının birinci katibi, müxtəlif illərdə Azərbaycan və keçmiş SSRİ Ali Sovetinin deputatı olub. Rusiyanın, eləcə də bir çox MDB ölkələrinin rəssamlıq akademiyaları ilə yanaşı, Madriddəki San-Fernando Kral İncəsənət Akademiyasının və Fransa Zərif Sənətlər Akademiyasının müxbir üzvü, Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşı seçilib. 1997-ci ildə Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti seçilib. 2011-ci ildən Avropa Elm və İncəsənət Akademiyasının incəsənət bölməsinin həqiqi üzvü, Almaniya Rəssamlar İttifaqının fəxri üzvü seçilib.

Tahir Salahovun misilsiz sənəti daim öz layiqli qiymətini alıb. O, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Azərbaycanın ali mükafatları olan "Heydər Əliyev" və "İstiqlal" ordenləri ilə təltif olunub. 2021-ci ildə Rusiya Rəssamlıq Akademiyasında "Tahir Salahov medalı" təsis edilib.

2012-ci ildə Bakıda İçərişəhər Tarix-Memarlıq Qoruğunda rəssamın ev-muzeyi açılıb. Ev-muzey Tahir Salahovun Azərbaycan dövlətinə bağışladığı özünün rəsm əsərlərindən ibarət kolleksiyası və şəxsi arxivi əsasında yaradılıb.

Tahir Salahov 20 may 2021-ci ildə 92 yaşında Almaniyanın Berlin şəhərində müalicə olunduğu xəstəlikdən vəfat edib və Bakıda Fəxri xiyabanda dəfn olunub. Dünyaşöhrətli rəssam, akademik Tahir Salahov ölməz əsərləri ilə indi də aramızdadır, onun yaradıcı ruhu bu əsərlərin rənglər aləmində dolaşır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**Mediatur**

## Özbəkistan telekanalında Bakı şəhəri haqqında veriliş nümayiş etdirilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə "Heydər Əliyev İli" və Şuşa şəhərinin 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar Özbəkistan mətbuatının nümayəndələrinin Azərbaycana mediaturu təşkil olunub.**




Mədəniyyət Mərkəzindən bildirilib ki, mediatur çərçivəsində Özbəkistanın "Sevimli TV" telekanalı tərəfindən şəhərin əsas ziyarət mərkəzlərindən olan Dağüstü park, Hərbi Qənimətlər Parkı, Azərbaycan Milli Xalça Muzeyi və Dənizkənarı bulvar haqqında televiziya verilişi hazırlanıb.

Kanalın aparıcısı Niqora Elmuradova ilk olaraq tamaşaçıları Dağüstü parkla tanış edərək qeyd edir ki, bura Azərbaycan paytaxtının ən hündür nöqtəsidir və buradan şəhərin özünə və Xəzər dənizinə, Dənizkənarı bulvara gözəl mənzərə açılır.

Jurnalist daha sonra çəkilişləri Hərbi Qənimətlər Parkında davam etdirərək, 44 günlük Vətən müharibəsi haqqında məlumat verib. Qeyd olunur ki, burada Azərbaycan xalqının öz ata-baba torpaqlarını erməni işğalından azad edilməsi şərəfinə xatirə park-kompleksi yaradılıb və parkda Vətən müharibəsi nəticəsində düşməndən hərbi qənimət kimi götürülmüş ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları və s. eksponatlar sərgilənir.

Daha sonra Azərbaycan Milli Xalça Muzeyini ziyarət edən yaradıcı heyət sözügedən muzeylə bağlı reportaj hazırlayıb. Burada qeyd olunur ki, xüsusi memarlıq üslubunda tikilmiş Milli Xalça Muzeyi müasir Bakının ən tanınmış memarlıq simvollarından biridir və xarici turistlərin ziyarət etdiyi məkanlar arasında ilk yerlərdən birini tutur. Burada o da vurğulanır ki, muzeyin Azərbaycanda qədim xalçaçılıq sənətinin öyrənilməsi və təbliği sahəsində xüsusi rolu vardır.

Muzeyin əməkdaşları tərəfindən verilən məlumatda Xalça muzeyində 6000-dən çox eksponat toplanıb, bu da Azərbaycan xalçalarından ibarət dünyanın ən böyük kolleksiyasıdır. Burada sərgilənən nümunələrin əksəriyyəti XVII-XX əsrlərə aiddir və müxtəlif üslub, məktəblərin xalçalarını təmsil edir.

Dənizkənarı bulvarda aparılan çəkilişlər zamanı aparıcı azərbaycanlıların həyat tərzindən, Bakının müasir memarlığından, şəhərin maraqlı küçələrindən, ləzzətli mətbəximizdən, azərbaycanlıların qonaqpərvərliyindən danışıb, həmçinin paytaxt sakinləri və turistlərlə söhbət edib.

**Mədəni irsimiz**

## Qahirədə Azərbaycan xalçaçılıq sənəti kursunun yeni müdavimləri ilə görüş keçirilib



Misirdə Azərbaycan xalçaçılıq sənəti kursunun yeni müdavimləri ilə görüş keçirilib. Bu ölkənin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən Misir-Azərbaycan Dostluq Cəmiyyətində "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan xalçaçılıq sənətinin tədrisi davam etdirilir.

Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov bildirib ki, Azərbaycan xalçaçılıq sənətinin təbliğ olunması məqsədilə yaradılmış kursda xalça ustası Camal Məhəmmədin rəhbərliyi ilə müxtəlif ölkələrdən 65 tələbə bu qədim sənətin sirlərinə yiyələnib. Misirdə xalçaçılıq sənətinə böyük marağı nəzərə alaraq, gələcəkdə kursun fəaliyyətinin daha da genişləndirilməsi nəzərdə tutulur. Hazırda yüzlərlə tələbə gələcək kurslarda iştirak etmək üçün öz növbəsini gözləyir.

S.Nəsirov xalçaçılıq kursunun iştirakçıları ilə görüşdə bildirib ki, təmsil etdiyi təşkilat xalqlar arasında əlaqələrin möhkəmləndirilməsinə öz töhfəsini verir və uzun illərdir ki, müxtəlif millətlərdən olan tələbələrə xidmət edən fəaliyyətləri həyata keçirir.

Cəmiyyətin sədri diqqətə çatdırıb ki, Azərbaycan dövləti xalqımızın məişətində özünəməxsus yer tutan xalçaçılıq sənətinə böyük qayğı göstərir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə müxtəlif beynəlxalq layihələr həyata keçirilir.

Tədbirdə çıxış edən xalça ustası Camal Məhəmməd Azərbaycan və Misirdə xalçaçılıq sənətindən bəhs edərək onlar arasında fərqi izah edib. Tədbirin sonunda yeni müdavimlərə Misir-Azərbaycan Dostluq Cəmiyyəti nəzdində xalçaçılıq sənəti kursunda iştirak etmiş tələbələrin toxuduğu ilk xalça nümayiş etdirilib.

Qeyd edək ki, xalçaçılıq sənəti ilə yanaşı, hazırda cəmiyyətin nəzdindəki Azərbaycan dili, muğam sənəti və digər fənlər üzrə kurslarda 55 ölkədən 600-dən çox tələbə ödənişsiz təhsil alır.

**Xəbər**

## Türk Mədəniyyəti və İrsi Fonduna yeni prezident təyin olunub

**Qazaxıstanın Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu Zirvə toplantısında türk ölkələrinin dövlət başçıları tərəfindən Aktotı Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunub.**



Fondun prezidenti Aktotı Raimkulova türk dünyasının mədəniyyətinin və irsinin inkişafına verdiyi töhfələrə görə təşkilatın keçmiş prezidenti Günay Əfəndiyevaya minnətdarlığını bildirib.

Günay Əfəndiyeva Aktotı Raimkulovaya qurumun gələcək fəaliyyətinin davam etdirilməsində uğurlar arzulayaraq, vəzifə müddətində böyük sevgi və həvəslə görülən ortaq çalışmalar üçün əməkdaşlara təşəkkür edib.

Aktotı Raimkulova təşkilatın türk dünyasında ortaq etnik, mədəniyyət və tarixə əsaslanan əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində bundan sonra da layihə və fəaliyyətlərini aktiv şəkildə davam etdirəcəyini bildirib.

# Dünya transmilli cinayətkarlıq epidemiyası ilə üz-üzədir

## Vəziyyət o qədər ciddiləşib ki, artıq qlobal təhlükəsizlik fövqəladə hala çevrilib

**Noyabrın 28-də Avstriyanın paytaxtı Vyanada beynəlxalq polis təşkilatı - İnterpolun 100 illiyinə həsr olunmuş "yubiley" Baş Assambleyası öz işinə başlayıb. Onun əsas mövzuları transmilli cinayətkarlıqla mübarizə, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və polis işində yeni texnologiyalardan istifadədir.**






İnterpolun rəhbəri Yurgen Ştok transmilli mütəşəkkil cinayətkarlığın vəziyyətini epidemiya ilə müqayisə edib. Onun dediyinə görə, qlobal təhlükəsizlik sahəsində fövqəladə vəziyyət yaranıb. Təşkilatın rəhbəri Baş Assambleyada transmilli cinayətkarlıq probleminin həllinə yönəlmiş "Vyana Bəyannaməsi"ni açıqlayacağına söz verib. "Biz cəmiyyətə və biznesə ziyan vuran transmilli mütəşəkkil cinayətkarlıq epidemiyası ilə üzləşmişik. Vəziyyət o qədər ciddiləşib ki, artıq qlobal təhlükəsizlik fövqəladə hala çevrilib", - İnterpol rəhbəri bildirib.

Xatırladaq ki, Beynəlxalq Cinayət Polisi Təşkilatı 1923-cü ildə Vyanada yaradılıb. Qüvvədə olan Nizamnaməsi 1956-cı ildə qəbul edilib.

İnterpolun üzvü olan ölkələrdə milli mərkəzi bürolar yaradılır. Təşkilatın fəaliyyəti, əsasən, həddi-buluğa çatmamışların cinayətkarlığı, narkotik maddələrlə qaçaqmalçılıq və onların qeyri-tibbi istifadəsi, qəlp pulkəsmə və qiymətli kağızların saxtalaşdırılması, daxili və xarici mülki aviasiya xətlərində banditizm ilə mübarizəyə yönəldilmişdir.

İnterpol hüquq-mühafizə orqanlarının qlobal əməkdaşlığında mühüm rolunu saxlayır. Son illər cinayətkarlar getdikcə daha çox sərhədlər boyu və onlayn fəaliyyət göstərdikcə, İnterpolun cinayətlə mübarizədəki rolu artıb. İnterpol bildirir ki, bütün dünyada polis idarələri onun məlumat bazalarından gündə 20 milyon dəfədən çox, yaxud saniyədə təxminən 250 axtarış sorğusu aparır.

İnterpol öz missiyasının bir hissəsi olaraq, bütün dünyada polis qüvvələrinə ekstradisiyası gözlənilən şübhəlinin yerini tapıb həbs etmək üçün müraciət edən qırmızı bildirişlər dərc edir.

Yalnız İnterpolun 195 üzv ölkəsi təşkilatın qaydalarına uyğun olduğu müddətdə qırmızı bildiriş tələb edə bilər. Təşkilatın 2017-ci ildə yaradılmış vəkillər və polis məmurlarından ibarət işçi qrupu daxil olan bütün qırmızı bildiriş sorğularını hərtərəfli yoxlayır.

Bundan əlavə, İnterpolun Fayllarına Nəzarət Komissiyası kimi tanınan, mübahisəli qırmızı bildirişləri və digər xəbərdarlıqları öz sistemindən silən müstəqil qurumu var. Komissiya üzvləri əsasən hüquqşünaslardan ibarət əlavə nəzarət orqanıdır.

Təşkilatın daimi iqamətgahı Fransanın Lion şəhərindədir. Azərbaycan 4 noyabr 1992-ci ildən İnterpolun üzvüdür.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# COVID-19 ürək xəstəliklərinə səbəb olur

**Dünyada milyonlarla insanın ölümünə səbəb olan COVID-19 kəskin infeksiya kimi başlayan, lakin sonradan xroniki hala çevrilən ciddi sağlamlıq problemidir. İlk zamanlar ağciyərlərə təsirinə görə təhlükəli hesab edilən virusun aparılan araşdırmalardan sonra ürək problemləri olmayan insanlarda belə ürək zədələnməsinə səbəb olduğu məlum olub. Alimlər bildirirlər ki, koronavirusdan sağalanların 70-80 faizinin ürək-damar sistemində zəifləmə müşahidə olunur.**

Dünyanın diqqət mərkəzində olan COVID-19-la bağlı araşdırmalar hələ də davam edir. Tədqiqatlar həm aktiv və sağalmış xəstələr üzərində, həm də həyatını itirmiş şəxslərdə patoloji-anatomik müayinələrlə həyata keçirilir. Belə araşdırmalardan biri də Nyu York Universitetinin Qrosman Tibb Məktəbinin tədqiqatçıları tərəfindən COVID-19-un orqanizmə fəsadları ilə bağlı aparılıb. Sübut olunub ki, koronavirus insanlarda xəstəliyin ağır keçməsindən və yanaşı xəstəliklərin olmasından asılı olmayaraq ürəkdə fəsadlar yarada bilir.

Araşdırma zamanı koronavirusa yaxalanmış və daha sonra ürək-damar problemləri səbəbindən dünyasını dəyişmiş yaşlı və orta yaşlı səkkiz xəstənin məlumatlarından istifadə edilib. Onların heç birində öncədən ürək çatışmazlığı və ya kardiomiopatiya olmayıb. Keçirilən anatomik müayinə zamanı müəyyən edilib ki, virus damar divarlarının daralmasına səbəb olur. Elmi tədqiqat virusun birbaşa infarkt riskini artırdığını aydınlaşdırmaqla yanaşı, damarların zədələnməsi ilə beyin və digər orqanlara zərər verə biləcəyini də aşkarlayıb.

Tədqiqat göstərib ki, qanda laxtalanma və iltihabın inkişafına təkan verən koronavirus ürək damarlarını blokladığına görə infarkta səbəb ola bilir. Belə ki, xəstəliyin ağır gedişatı zamanı trombların və iltihab prosesinin güclənmə ehtimalı artır. Koronavirus ateroskleroz kimi tanınan lövhə adlandırdığımız ürək-damar divarındakı pozuntulara birbaşa nüfuz edir və iltihabı tətikləyir. Damar divarına yapışan virus orada başlayan pisləşməni hədəf alaraq yara əmələ gətirir və iltihab yolu ilə yaranı genişləndirir, kənar amillərin təsiri altında infarkta gətirib çıxarır.

2022-ci ildə aparılan digər bir araşdırma zamanı isə xəstəxanaya yerləşdirilməsi tələb edilməyən koronavirus xəstəsində belə ürək-damar, qan laxtalanması, insult, ritm pozuntuları, ürək çatışmazlığı, perikard iltihabı və ani ürək dayanması xəstəliklərinin inkişaf riskinin olduqca yüksək olması müəyyən edilib.

Son illər miokardit cavan xəstələrdə ölümün əsas səbəblərindən biri hesab edilir. Ürəyi zədələmək üçün virusun bu orqana daxil olması şərt deyil, virus ağciyərləri zədələməklə və ürəkdə oksigen aclığına səbəb olmaqla, həmçinin iltihabi immun cavab yaratmaqla buna səbəb olur. Universitetin tədqiqatçıları ürək xəstəliyi və ya ürək xəstəliyi risk faktorları olan gənclərə COVID-19-un təsirləri ilə bağlı araşdırmaların hələ davam etdiyini bildirirlər. Bəzi ilkin araşdırmalar göstərib ki, koronavirusu hətta yüngül keçirənlərdə belə o, ürəyə zərər verərək xroniki ürək xəstəliklərini tətikləyir.

Koronavirus əleyhinə peyvəndlərin yan təsirləri barədə müxtəlif fikirlər səsləndirilir. Bəzi insanlar infarkt, insult və buna bənzər laxtalanma ilə əlaqəli xəstəlikləri COVID-19 peyvəndləri ilə əlaqələndirirlər. Lakin bununla bağlı heç bir elmi məlumat yoxdur. Əksinə, araşdırmalar bu xəstəliklərə məhz koronavirusun səbəb olduğunu ortaya qoyub.

Alimlər müəyyən ediblər ki, ürək xəstəlikləri insanın ölüm riskini artıran əsas faktordur. Siqaret çəkmək, oturaq həyat tərzi keçirmək, yüksək qan təzyiqi, yüksək qan lipidləri, şəkərli diabet, artıq çəki və qidalanma bu risk faktorları arasındadır.

Mütəxəssislər bildirirlər ki, bundan sonra COVID-19 virusu artıq hamımızın adi qəbul etdiyi qrip kimi həyatımızda olacaq. Bu zaman bizim vəzifəmiz ürək xəstəliyi riskini artıran amillərdən mümkün qədər uzaq olmaqdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Pol Linç "Peyğəmbərin nəğməsi" romanına görə Buker mükafatına layiq görülüb

**2023-cü ilin Buker mükafatı faciənin astanasında olan ailənin və ölkənin hekayətini təsvir edən "Peyğəmbərin nəğməsi" (Prophet Song) romanına görə irlandiyalı yazıçı Pol Linçə verilib.**



AZƏRTAC xəbər verir ki, P.Linçin sayca beşinci olan bu romanı Qərb demokratiyalarındakı iğtişaşları və Suriyada alovlanan münaqişə kimi fəlakətlərə laqeydliklərini göstərməyə çalışır.

"Bu əsər emosional təsvirin təntənəsidir, ruhlandırıcı və cəsarətli romandır. "Peyğəmbərin nəğməsi" hal-hazırda mövcud olan sosial və siyasi təlatümləri əks etdirir. Oxucuları təsirli və həqiqətə yaxın əsərlə tanışlıq gözləyir, onlar kitabda əksini tapan tövsiyələri hələ uzun müddət xatırlayacaqlar" - Buker mükafatının təşkilat komitəsi kitab haqqında bu sözləri yazıb.

"Peyğəmbərin nəğməsi" əsəri elə ilk misralardan bizi totalitarizmə qərq olmuş İrlandiyada öz ailəsini qorumağa çalışan qadının dəhşətli həyat şəraiti ilə tanış edir, bizi alışdığımız sakit və durğun vəziyyətimizdən çıxarır", - deyə 2023-cü ilin Buker mükafatının münsiflər heyətinin sədri, kanadalı yazıçı Esi Educan qeyd edib.

"Oxucunu kitabdakı hadisələrə elə kökləmək istəmişəm ki, əsərin sonunda o bu problemi özlüyündə bütün təfərrüatı ilə hiss edə bilsin" - yazıçı Buker mükafatının saytında dərc olunan şərhlərində yazıb.

Müsabiqə təşkilatçılarının bildirdiyinə görə, o, Ayris Merdok, Con Banvil, Roddi Doyl və Enn Enraytdan sonra Buker mükafatına layiq görülən beşinci İrlandiya yazıçısıdır. 2018-ci ildə bu mükafatı Şimali İrlandiya yazıçısı Anna Berns qazanıb.

Pol Linç 1977-ci ildə İrlandiyanın Limerik şəhərində sahil mühafizəsi əməkdaşının ailəsində anadan olub. O, yazıçılıq karyerasına 2013-cü ildə başlayıb, o vaxta qədər isə kino tənqidçisi kimi fəaliyyət göstərib. P. Linç bir çoxu ədəbiyyat sahəsində mükafatlara layiq görülən "Səhər saatlarında qırmızı səma" (Red Sky in Morning), "Qara qar" (The Black Snow), "Qreys" (Grace) və "Dənizin arxasında" (Beyond the Sea) kitablarının müəllifidir.

İrlandiyalı ədibin sözlərinə görə, onun yaradıcılığına Fyodor Dostoyevskinin "Yer altından məktublar", Herman Melvillin "Katib Bartlbi", Cozef Konradın "Tayfun" və Uilyam Folknerin "Mən ölərkən" əsərlərinin çox güclü təsiri olduğunu vurğulayıb.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


AZƏRBAYCAN

Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır

Asiya Parlament Assambleyasına sədrlik edəcək

Türkiyənin Antalya şəhərində Asiya Parlament Assambleyasının (APA) İcraedici Şurasının iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 20 dövlətin parlament nümayəndə heyəti təmsil olunub.

Tədbirdə Azərbaycan APA-nın 2024-2025-ci illər üzrə sədri seçilib.

"Azərbaycan"

yüksələn nüfuz

İlham Əliyevin müstəqil siyasəti ilə Azərbaycan yeni çağırışlara cavab verən ölkə statusuna sahiblənib

Beynəlxalq təşəbbüslərə Azərbaycanın töhfəsi

məkrli planlarını iflasa uğradır

görməyənlər

Havayı qrant tələdə olur

"Yalan ayaq tutar, yeriməz"

Media azadlığından sui-istifadə edənlərin təxribatları ifşa olunur

azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Zəhmətlə fəth edilən zirvə

**İdmanın inkişafı, gənc nəsildə idmana marağın oyanması bu sahəyə göstərilən qayğıdan qaynaqlansa da, onların fiziki və taktiki cəhətdən güclü idmançı kimi yetişmələrində ən böyük pay sahibləri məşqçilərdir.**





O məşqçilər ki, ömrünü peşəsinə həsr edib bütün bacarığını yetirmələrinə vermək üçün daim çalışır, hazırladıqları idmançıların qazandıqları hər bir uğura sevinirlər. Çünki istənilən insan çəkdiyi əziyyətin bəhrəsini gördükdə sevincinin hədd-hüdudu olmur. Bu sevinc hissləri isə məşqçiləri öz işlərinə daha həvəslə, daha peşəkar yanaşmağa ruhlandırır.

Ölkəmizdə idmanın müxtəlif sahələri üzrə uğurlar qazanan məşqçilər çoxdur. Onlardan biri də pauerliftinq (ağırlıqqaldırma) üzrə Azərbaycan Respublikasının idman ustası, Əməkdar məşqçi, Fəxri bədən tərbiyəsi və idman işçisi, respublika dərəcəli hakim Natik Əliyevdir. 1972-ci ildə Gəncə şəhərində anadan olan mütəxəssis 30 nömrəli tam orta məktəbdə təhsil aldıqdan sonra 1995-ci ildə ADAU-dan məzun olub. 2011-2015-ci illərdə Moskva şəhərində Rusiya Dövlət Gənclər İdman və Turizm Universitetinin aspiranturasında təhsil alıb, 2017-ci ildə Rusiya Federasiyasında pedaqoji elmlər namizədi elmi dərəcəsini alıb. 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında elmi dərəcəsi təsdiqlənib. Adaptiv bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası üzrə fəlsəfə doktoru adına da layiq görülən Natik Əliyevin 9 monoqrafiya və məqaləsi elmi jurnallarda dərc olunub.

Tanınmış idman mütəxəssisinin əmək fəaliyyəti də çox geniş və məhsuldar olub. Əmək fəaliyyətinə 2000-ci ildə "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətinin ağır atletika bölməsində məşqçi müəllim kimi başlayıb. 2005-ci ildən indiyədək 2 nömrəli Uşaq Gənclər İdman Şahmat Publik Hüquqi Şəxs Məktəbinin ağır atletika bölməsinin məşqçi müəllimi kimi çalışır. 2003-cü ildən bu günədək İcma Əsaslı Reabilitasiya Mərkəzində (UAFA) könüllü olaraq ağır atletika üzrə məşqlər təşkil edir.

Milli Paralimpiya Komitəsində yığma komandanın da məşqçisi kimi çalışan Natik Əliyevin yetirmələri dünya, Avropa və Paralimpiya Oyunlarının qalibi, mükafatçısı və iştirakçısı olublar.

Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsinin Gəncə Regional Filialının direktoru kimi fəaliyyət göstərən Natik Əliyev 2011-ci ildən pauerliftinq üzrə Xüsusi Olimpiya Komitəsinin (XOK) yığma komandasının baş məşqçisidir. Onun yetirmələri Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında 2015-ci ildən indiyə kimi bir sıra mükafatlara layiq görülüblər. Belə ki, 2015-ci ildə ABŞ-nin Kaliforniya Ştatının Los-Anceles şəhərində təşkil edilən mötəbər turnirdə 4 qızıl, 3 gümüş, 1 bürünc medala sahib olublar.

Uğur seriyası 2019-cu ildə BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində də davam edib. Belə ki, idmançılarımız 1 qızıl, 2 gümüş və 1 bürünc medalla vətənə dönüblər. Cari ildə də atletlərimiz nailiyyət qazanıblar. Almaniyanın paytaxtı Berlindən 8 bürünc medala sahib olublar.

Tanınmış idman mütəxəssisi əqli və fiziki imkanları məhdud olan həssas təbəqənin cəmiyyətə inteqrasiyası və cəmiyyətdə özlərinə tam şəkildə yer tapmalarına yardımçı olmaq kimi çətin və şərəfli missiyanı yorulmaq bilmədən layiqincə yerinə yetirir. Bu xeyirxah işdə ona uzun ömür, cansağlığı və məşqçilik fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq. İnanırıq ki, Natik Əliyev hələ uzun müddət idman üzrə neçə-neçə Avropa və dünya çempionları yetişdirəcək.

*Səbuhi SABİROĞLU*

## ALLAH RƏHMƏT ELƏSİN!

Vaqif Həsənov və Bəxtiyar Sadıqov Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Samuxdan Firdovsi Əliyev Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ziyad Səmədzadə Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, ictimai təşkilatları və professor-müəllim heyəti universitetin sabiq kafedra müdiri

**NAZİM İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru professor Natiq Cavadov Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İlqar Tağıyev, Rövşən İsgəndərov və Sərvər Babayev Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5278
Sifariş 3112

Qiyməti 40 qəpik